**Azərbaycan Milli Elmlər Akademiyası**
**Şəki Regional Elmi Mərkəzi**

Ümummilli lider Heydər Əliyevin
100 illik yubileyinə ithaf olunur

# ŞƏKİNİN ORTA ƏSRLƏR TARİXİ

## (Tağı Musəvinin tədqiqatları üzrə)

**Elm və təhsil**
**Bakı – 2023**

**AMEA Şəki Regional Elmi Mərkəzi Elmi Şurasının 21 aprel 2023-cü il tarixli 3 №-li protokoluna əsasən nəşrinə icazə verilmişdir**

Elmi redaktor: *t.e.d., prof.* **Mehman Süleymanov**

Tərtibçilər: **Rahim Həsənov, Aydın Məmmədov**

Rəyçilər: *t. ü. f. d., dos.* **Rəşad Mustafa,**
*t. ü. f. d.* **Vüsal Baxışov**

Bədii redaktor: **Aygül Xəlilova**

Dizayn: **Aynur Mustafayeva**

Rəssam: **Asim Abbasov**

**Şəkinin orta əsrlər tarixi (Tağı Musəvinin tədqiqatları üzrə)**
**Bakı, Elm və təhsil, 2023, 150 səh.**

*Kitabda tədqiqatçı alim Tağı Musəvinin 1969-cu ildə "Şəki fəhləsi" qəzetində hissə-hissə çap olunmuş "Şəkinin orta əsrlər tarixi haqqında" adlı geniş məqaləsinin elmi-tənqidi mətni, XVI – XVIII əsrlər Şəkisinə aid tərcümə etdiyi rəsmi sənədlər öz izahları ilə birlikdə geniş oxucu kütləsinə təqdim olunur.*

*Tağı Musəvinin bu araşdırmalarında əsasən XVI əsrin başlanğıcı ilə XVIII əsrin 40-cı illəri arasındakı dövrdə Şəki ilə Səfəvilər dövləti arasındakı münasibətlər, Şəkinin Səfəvilər dövlətində mövqeyi, bölgədə baş verən ictimai-siyasi prosseslər və s. məsələlər yer almışdır.*

ISBN 978-9952-568-30-1 ©Elm və təhsil, 2023

# Mündəricat

**ÖN SÖZ** ........ 5
**TƏRTİBÇİLƏRDƏN** ........ 7

**TARİXÇİ, TƏRCÜMƏÇİ VƏ KEÇMİŞ HƏRBİ TƏYYARƏÇİ** ........ 14
**Tağı Musəvinin hansı kitabları çap olunmuşdur?** ........ 14
**Tağı Musəvinin həyatının son dövrlərini necə öyrəndik?** ........ 15
**Tağı Musəvinin həyat hekayəsi** ........ 16
**ŞƏKİNİN ORTA ƏSRLƏR TARİXİ HAQQINDA** ........ 19
**ŞƏKİ ÖLKƏSİNƏ AİD ORTA ƏSR SƏNƏDLƏRİ** ........ 61

**SƏNƏDLƏRİN İZAHLARI VƏ AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏ OLUNMUŞ MƏTNLƏRİ** ........ 68
**1. Şəki ölkəsinin sədrliyi vəzifəsi haqqında I Şah Təhmasibin fərmanı** ........ 68
Tərcüməsi: ........ 71
**2.Şirvan və Şəki ölkələrinin sədrliyi haqqında I Şah Təhmasibin fərmanı** ........ 73
Tərcüməsi: ........ 75
**3.Şəki qışlaqları haqqında Şah Səfinin verdiyi fərman** ........ 76
Tərcüməsi: ........ 77
**4.Şəki ölkəsi haqqında I Şah Səfinin fərmanı** ........ 78
Tərcüməsi: ........ 80
**5.Kiş, Nuxu və Şəkərənd kəndlərinin tiyul verilməsi haqqında II Şah Abbasın hökmü** ........ 81
Tərcüməsi: ........ 84
**6.Kiş, Nuxu, Şəkərənd kəndlərinin tiyul verilməsi haqqında Şirvan bəylərbəyisi Xosrov xanın hökmü** ........ 86
Tərcüməsi: ........ 87
**7.Şəki ölkəsi kəndxudalarının şikayəti ilə əlaqədar olaraq II Şah Abbasın fərmanı** ........ 88
Tərcüməsi: ........ 89
**8.Şəki ölkəsi hakiminə II Şah Abbasın göndərdiyi fərman** ........ 90
Tərcüməsi: ........ 92
**9.Şəki rəiyyətlərinin ərizəsi və II Şah Abbasın hökmü** ........ 93

Tərcüməsi:.................................................................... 96
**10.Şəki ölkəsinin vergi məsələləri haqqında II Şah Abbasın fərmanı**............................................. 97
Tərcüməsi:.................................................................... 99
**11.Şəki məliyi Səfiqulunun şikayəti ilə əlaqədar olaraq II Şah Abbasın fərmanı**...................................100
Tərcüməsi:.................................................................... 101
**12.Şəki vəzirinin rüsumu haqqında II Şah Səfinin (Şah Süleyman) hökmü**..........................104
Tərcüməsi:.................................................................... 106
**13.Şəki ölkəsinin məlikliyi vəzifəsi haqqında II Şah Səfinin (Şah Süleyman) fərmanı**.........................108
Tərcüməsi:.................................................................... 110
**14.Şəki ölkəsinin məlikliyi vəzifəsi haqqında Şah Sultan Hüseynin fərmanı**.....................................112
Tərcüməsi:.................................................................... 114
**15.Şəki ölkəsi məlikliyi haqqında Şah Sultan Hüseynin fərmanı**.....................................117
Tərcüməsi:.................................................................... 120
**16.Məlik Səfiqulunun övladlarının vergilərdən azad edilməsi haqqında Surxabın hökmü**................................125
Tərcüməsi:.................................................................... 126
**17.Əlimərdan bəyin Şəkiyə məlik təyin olunması haqqında Nadir şahın fərmanı**................................127
Tərcüməsi:.................................................................... 128
**18.Şəki ölkəsinin məlikliyi vəzifəsi haqqında Nadir şahın fərmanı**.................................................128
Tərcüməsi:.................................................................... 131
**19.Şəki ölkəsinin məlikliyi vəzifəsi haqqında Nadir şahın fərmanı**.................................................132
Tərcüməsi:.................................................................... 134
**20.Şəki ölkəsinin məlikliyi vəzifəsi haqqında Nadir şahın fərmanı**.................................................135
Tərcüməsi:.................................................................... 138
**ŞƏXS VƏ YER ADLARI GÖSTƏRİCİSİ**........................ **139**

# ÖN SÖZ

Azərbaycanın dövlətçilik tarixinin özəklərindən birini təşkil edən Şəkinin tarixi-siyasi coğrafiyası haqda istər qədim, istər orta əsrlər, istərsə də yeni dövr ilə bağlı müxtəlif səyyahlar, salnaməçilər məlumat vermişlər. Qədim və antik dövr mənbələrinin məlumatları ilə yanaşı, bölgədə aparılmış arxeoloji qazıntılar nəticəsində Şəkinin şəhər tipli yaşayış məskəni olaraq tarixinin 2800 il bundan əvvələ getdiyi müəyyən edilmişdir. Ərazidə aparılmış arxeoloji qazıntılarda Fazıl, Kiş, Oxud, Cəyirli və s. kəndlərin eramızdan əvvəlki dövrlərdə daha böyük yaşayış məskənləri olduqları təsdiqlənmişdir. Erkən xristianlığa qədərki dövrə aid müxtəlif dinlərin və adət-ənənələrin mövcudluğu, mədəni zənginlik bölgədə bütün tarixi dövrlərin əhatə olunmasına dəlalət edir.

Şəkinin Erkən Orta əsrlər tarixi ilə bağlı müasir dövrdə müxtəlif aspektlərdən araşdırmalar aparılmışdır. Bu dövrdə Qafqaz Albaniyasının ictimai-siyasi və dini durumunda baş vermiş kəskin dəyişikliklər tədqiqatların daha da dərindən aparılmasına ehtiyac olduğunu göstərir. Bütpərəstlik və onun adət-ənənələri, erkən xristianlığın müxtəlif aspektlərdən yayılması (əvvəlcə Surofil, sonra Yuanfil) tarixi zənginliklərlə bərabər qarışıq məqamları da əxz etdirmişdi. Ölkəmiz müstəqillik əldə etdikdən sonra Erkən Orta əsrlərdə Azərbaycanın və onun ictimai-siyasi, tarixi-mədəni mərkəzlərindən olan Şəkinin tarixi ilə bağlı müəyyən məsələləri əks etdirən elmi araşdırmalar davamlı şəkildə aparılır. Şəki alban çarlığı ilə də bağlı da tədqiqat işləri görülmüş və yeni faktlar ortaya çıxarılmışdır.

Şəki tarixinin ən qaranlıq və müəmmalı dövrü isə Klassik Orta əsrlərdən başlayan dövrdür. Səlcuq yürüşlərindən sonra ölkəmizdə baş vermiş siyasi prosseslər, bu prosseslərdə Şəkinin rolu və mövqeyi ilə bağlı tədqiqat işləri olduqca zəif haldadır. Doğrudur, istər sovet dövründə, istərsə də müstəqillik illərində XI – XVII əsrlər ümumazərbaycan tarixi ilə bağlı yetərincə tədqiqat işləri apa-

rılmış, yeni-yeni faktlar təhlil olunmuşdur. Amma sırf Şəki ilə bağlı bu dövrə aid tədqiqatların azlığı təkzibolunmaz faktdır.

Bu yaxınlarda tarixçi – tədqiqatçılar Rahim Həsənov və Aydın Məmmədovla görüşdüyümüz zaman məlumumuz oldu ki, onlar "Şəkinin orta əsrlər tarixi" adlı bir kitab tərtibi üzərində işləyirlər. Ölkəmizin tarixi, görkəmli şəxsiyyətləri bizim hər zaman diqqət mərkəzimizdə olduğundan həmin kitabla da maraqlanmaya bilməzdik. Məlumumuz oldu ki, tərtibçilərin ərsəyə gətirdikləri kitab sovet dövründə Vətən tarixinin Orta əsrlər dövrünü araşdırmış Tağı Musəvinin tədqiqatlarından və tərcümələrindən ibarətdir. O cümlədən, Tağı Musəvinin 1969-cu ildə "Şəki fəhləsi" qəzetinin 12 nömrəsində hissə-hissə çap edilmiş "Şəkinin Orta əsrlər tarixi haqqında" adlı məqaləsi ilk dəfə olaraq 53 il sonra bu kitabda bütöv şəkildə oxucuların diqqətinə çatdırılır. Maraqlıdır ki, məqalənin çap olunduğu 1969-cu il Ulu öndər Heydər Əliyevin birinci dəfə hakimiyyətə gəldiyi ildirsə, həmin məqalənin ilk dəfə olaraq 53 il sonra bu kitabda bütöv şəkildə çap olunduğu 2023-cü il isə Ulu öndərin 100 illik yubiley ilidir! Tərtibçilər həm bunu, həm də, Tağı Musəvinin elmi fəaliyyətinin Ulu öndər Heydər Əliyevin diqqətindən kənarda qalmadığı faktını da nəzərə alaraq tərtib etdikləri kitabı Ulu öndərin 100 illik yubileyinə ithaf ediblər. Belə ki, Ümummilli lider Heydər Əliyev vaxtilə Tağı Musəvinin əsərlərinə yüksək qiymət vermiş, onun Səfəvilər dövlətinin Azərbaycan dövləti olduğunu təsdiqləyən kitablarını, tərcümə etdiyi Orta əsr sənədlərinin surətlərini İran rəsmilərinə təqdim etmişdir.

Nəticə olaraq deyə bilərik ki, təqdim edilən kitab Azərbaycan tarixinin daha bir səhifəsinin öyrənilməsi baxımından olduqca əhəmiyyətlidir. Şanlı dövlətçilik tariximizdə önəmli yer tutan Şəkinin Orta əsrlər dövrünə aid qaranlıq qalan bir çox nüanslara "Şəkinin Orta əsrlər tarixi (Tağı Musəvinin tədqiqatları üzrə)" kitabında aydınlıq gətirilmişdir.

**Vüqar İskəndərov**,
Azərbaycan Respublikası Milli Məclisinin deputatı.

# TƏRTİBÇİLƏRDƏN

XX əsrin 50 – 70-ci illərinə aid materiallar axtardığımız zaman 1969-cu ilin "Şəki fəhləsi" qəzetində belə bir sərlövhə diqqətimizi cəlb etdi: "Şəkinin Orta əsrlər tarixi haqqında". İlk baxışda sadə publisistik yazıya bənzəsə də məqalə ilə tanış olduqda onun vacib bir akademik tədqiqat işi olduğunu gördük. Müəllif Tağı Musəvidir. O, 1946-cı ildən Azərbaycanda yaşayan İran əsilli şəxs, keçmiş hərbi təyyarəçi idi. Təbrizdə anadan olmuşdu. Azərbaycanda fars dilində yazılmış Orta əsr sənədlərinin tərcüməsi sahəsində ixtisaslaşmışdı. "Şəkinin Orta əsrlər tarixi haqqında" məqaləsini də əsasən əlinin altında olan Səfəvilər dövləti dövrünə aid fars dilində yazılmış Orta əsr sənədlərinə istinadən tərtib etmişdi.

Məqalənin əvvəlində müəllif Şəkinin qədim dövlətçilik ənənələrinə malik bölgə olmasını, erkən və klassik orta əsrlərdə müstəqil Şəki hakimliyinin mövcudluğu və fəaliyyəti ilə bağlı qısa məlumat verir. Məqalənin sonrakı hissəsi isə əsasən Səfəvilər dövrünə aid Şəki ilə bağlı zəngin məlumatlardan ibarətdir. I Şah İsmayılın hakimiyyət başına gəlməsinin ardınca cərəyan edən siyasi proseslərdə Şəkinin yeri, hökmdarın bölgə ilə bağlı siyasəti tədqiqat işində öz əksini tapmışdır. Şəki – Səfəvi münasibətləri ilə bağlı mənbələrdə əks olunmuş məlumatların geniş təhlili dövrün siyasi mənzərəsində Şəki hakimliyinin yerini və mövqeyini dərindən öyrənməyə imkan verir. Hökmdarların fərmanları ilə yanaşı dövrün yazılı tarixi mənbələri əsasında aparılan təhlillər tədqiqat işində müəyyən bitkinlik, tamlıq yaratmış olur.

Tədqiqatda Şəki hakimliyinin I Şah İsmayılın dövründə statusu və mövqeyi, qurumun qismən müstəqil siyasət yeritməsi məsələlərinə toxunulur. Şəkinin gürcü çarları ilə konfliktləri barəsində olan məlumatların tədqiqata cəlb edilməsi isə ərazi reallıqlarını, Şəki hakimliyinin regionda güc sahib olmasını aşkara çıxarmış olur. Hökmdar fərmanları, saraya yetişən məktublar və dövrün müəlliflərinin əsərləri əsasında Tağı Musəvi Şəki hakiminin Səfəvi

sarayında nüfuzu, I Şah İsmayılın, digər Səfəvi şahlarının Şəkiyə münasibəti məsələlərini daha qabarıq halda təqdim etmişdir.

Azərbaycan tarix elmində Tağı Musəviyə qədər və ondan sonrakı dövrdə Şəki ilə bağlı məsələlərə toxunulsa da, Səfəvi və Şirvan dominantlığı özünü göstərir. Tağı Musəvi isə tədqiqatında birbaşa Şəkinin dolğun tarixini ortaya qoymağa çalışır.

Tədqiqat işində I Şah Təhmasibin dövrünə aid hadisələrdə Şəkinin mövqeyi, Səfəvi sarayında Şəkiyə münasibət məsələləri yer almışdır. Tarixi mənbələrdən məlum olduğu kimi I Şah Təhmasib Şirvanşahlarla kəskin münasibətdə olmuşdur. Şirvanşah Şahruxun Təbriz sarayına münasibətinə aid məsələlərdə Şəki hakimi Dərvişməhəmməd xanın tutduğu mövqe Tağı Musəvi tərəfindən geniş aspektdə təqdim edilmişdir. Tədqiqatçı burada əsasən dövrün şah fərmanları və məktublarını fars dilindən tərcümə edərək Şəkidə cərəyan edən prosesləri aydınlığı ilə izah etməyə müvəffəq olmuşdur. Tağı Musəvinin bu dövrə aid təhlilləri nəticəsində Dərvişməhəmməd xanın dərin zəkaya və güclü siyasi bacarığa malik olması üzə çıxmış olur. Tədqiqatdan məlum olur ki, Şəki hakimi I Şah Təhmasibin Şəkini Səfəvilərə birləşdirmək istəyini sezdiyinə görə buna qarşı siyasi addımlar atmağa çalışır, Şirvanşahlarla münasibətini nizamlayırdı. Tağı Musəvinin təhlillərindən belə məlum olur ki, hətta Şəki hakimi Səfəvi – Osmanlı qarşıdurmasını da analiz etməyə səy göstərmişdi.

I Şah Təhmasibin 1538-ci ildə Şirvanşahlar dövlətinin mövcudluğuna son qoymasından və qardaşı Əlqas mirzəni Şirvan bəylərbəyisi təyin etməsindən sonra ölkədə cərəyan edən proseslərə toxunan müəllif Şəkidəki gərgin siyasi durum, Dərvişməhəmməd xanla şah sarayı arasında intriqaların dərinləşməsi haqda müfəssəl məlumat verir.

Tağı Musəvinin Şəki hakimliyinin süqutu ərəfəsində siyasi vəziyyəti və Dərvişməhəmməd xanın mövqeyi ilə bağlı məlumatları xüsusilə dəyərlidir. Müəllifin araşdırmasından belə nəticəyə gəlmək olur ki, Şəki hakimliyi yetərincə fundamental dövlət olmuşdur və şah bu qurumu öz dövlətinə qatmaq üçün güclü səy göstərmişdir.

Tədqiqat işində Şəkinin 1551-ci il hücumu ərəfəsindəki müdafiəsi ilə bağlı müfəssəl məlumatlar var. Burada hadisələr başqa vilayətlərdən asılı olmayaraq konkretləşdirilərək oxucuya təqdim edilir. Dərvişməhəmməd xanın güclü müqaviməti, ordunun hissələrə bölünməsi Şəkinin yetərincə dirəniş etdiyini göstərmiş olur.

Burada bir məqama da toxunmağımız yerinə düşər ki, müəllif yazısında bir qayda olaraq Səfəvilər dövlətini Vətən kimi, Osmanlı dövlətini isə işğalçı kimi təqdim edir. Amma Şəki ilə Səfəvilər arasında münasibətlərdə Şəkiyə simpatiya bəsləyir. Bəzən elə olur ki müəllif Səfəvilərlə münasibətlərdə Şəkinin uğursuzluğunu gizlədir. Məsələn, müəllif məqalədə 1551-ci ildə Şah Təhmasibin Şəkiyə hücumunu və bu hücuma qarşı şəkililərin ciddi müqavimət göstərməsini ətraflı şəkildə təsvir etsə də, "Gələsən, görəsən" qalasından qaçmağa çalışan Dərvişməhəmməd xanın və onun yanında olan 400 nəfərdən 250-nin öldürülməsinin üstündən sükutla keçmişdir.

Tağı Musəvinin tədqiqatında Şəki hakimliyinin ləğvindən sonra Səfəvi sarayının bölgəyə münasibəti, ərazini idarə edən şəxslərin fəaliyyəti, əhalinin Səfəvi dövlətinə münasibəti məsələlərinə də toxunulmuşdur. Araşdırma işinin unikallıqlarından biri isə Şəki ilə bağlı məsələlərdə ərazinin kəndləri və müxtəlif yer adlarının vurğulanmasıdır ki, göstərilən yerlərin həmin dövrdə Azərbaycana məxsus olması ilə bağlı faktları daha da möhkəmləndirir.

Tədqiqat işində Şəkinin Səfəvilər dövlətinə birləşdirilməsindən sonra I Şah Təhmasibin bu bölgəyə böyük üstünlük verməsindən bəhs edilir. Müəllif bölgənin həm geostrateji mövqeyi, həm də təbii sərvətləri barədə məlumat verir. I Şah Təhmasibin 1568-ci ildə Tiflisi qorumaq üçün məhz Şəki vilayətinin qoşunlarından istifadə etməsi, göstərilənlərə bariz nümunədir.

I Şah Təhmasibin ölümündən sonra baş verən hakimiyyət uğrunda çəkişmələrdə Şəki hakiminin rolu ilə bağlı məqamlara toxunan müəllif yenidən baş verən hadisələri Şəkiyə yönəltməyə çalışır və buna göstərdiyi mənbə sübutları ilə nail olur. Şəki hakimi Şamxal Sultan Çərkəzin saray çevrilişlərində rolu və II Şah İsmayılın taxta çıxarılmasında xidmətləri oxucuya təfsilatı ilə çatdırılır.

Eyni zamanda, Şəkinin nüfuzunun artmasından bəhs edilir. Bir sözlə, Tağı Musəvi ilk tədqiqatçıdır ki, Səfəvilər dövrü Şəkisinin nüfuzu ilə bağlı ətraflı tədqiqat aparmışdır.

İkinci Səfəvi – Osmanlı müharibəsi nəticəsində Səfəvilər dövləti ağır məğlubiyyətə düçar olmuş, ərazisinin böyük hissəsini itirmişdir. Səfəvi hakimiyyəti Azərbaycanla bərabər başqa ərazilərdə də zəifləmiş, feodal pərakəndəliyi artmışdı. Şah Məhəmməd Xudabəndənin səriştəsizliyi, qızılbaş tayfaları arasında düşmənçiliyin yaranması dövlətin sütunlarını sarsıdırdı. Belə bir zamanda qızılbaşların Xorasan qrupu şahın kiçik oğlu Abbas mirzəni 1587-ci ildə taxta çıxardı. I Şah Abbas taxta çıxdığı zaman dövlətin süqutu ilə üzbəüz qaldığından 1590-cı ildə İstanbulda Osmanlı dövləti ilə sülh müqaviləsi bağladı. Müqavilənin şərtləri olduqca ağır idi. Səfəvilər tarixində ilk dəfə belə böyük ərazilərin itirilməsi ilə üzləşmişdi. Belə ki, Talış, Ərdəbil, Qaracadağ, Xalxal istisna olmaqla Azərbaycanın çox hissəsi Osmanlı dövlətinə verildi.

Tağı Musəvinin tədqiqatlarında I Şah Abbasın dövründə Şəki ilə bağlı diqqətçəkən məqamlara toxunulur. 1606-cı ildə Şəki uğrunda aparılan döyüşlər, Şahmir xanın Şəkiyə hakim təyin edilməsi, nəhayət, Osmanlı ordusunun iki dəfə ağır məğlubiyyətə uğradılması ətraflı şərh edilmişdir. Müəllif burada Şəki ilə bağlı məsələləri konkretləşdirmiş, Şirvandan ayıraraq diqqəti birbaşa əraziyə yönəltmişdir. Tağı Musəvinin təqdim etdiyi materiallarda Şəki hakimlərinin hansı nəsildən olması da, bir çox hallarda qeyd edilmişdir. Məsələn, Şahmir xandan bəhs olunarkən onun köhnə Şəki hakimləri nəslindən olmasını vurğulayır. Burada onu da qeyd etmək lazımdır ki, bir sıra hallarda Şəki hakimləri yerli əyanların arasından təyin edilmirdi. Bunu təbii qarşılamaq lazımdır. Çünki 1551-ci ildən sonra Şəkidə vəzifə məsələləri Şah sarayından həll olunurdu. I Şah Abbas isə hakimiyyətinin ilk illərində yerli əhalinin dəstəyini qazanmaq üçün köhnə hakim nəslindən istifadə etmişdir.

Müəllifin qeydlərindən məlum olur ki, Şahmir xanın dövründə Şəki hakimliyində, nisbətən dirçəlmə meylləri vardı. Tağı Musəvi I Şah Abbasın ətraf ərazilər, hətta Gürcüstanla bağlı məsələləri

Şahmir xanla məsləhətləşməsini göstərməklə, Şəkinin saraydakı nüfuzunu diqqət mərkəzinə çəkmişdir.

Tədqiqatda Şəki məliyi Səfiqulu və qardaşları ilə yanaşı onların bəzi övladlarının, nəvə və nəticələrinin hər biri haqqında və hətta birincinin bir kötücəsi haqqında da məlumat var və onların şah sarayındakı nüfuzundan da bəhs edilir.

Tədqiqatda I Şah Abbas və I Şah Səfinin dövrlərində Şəkinin iqtisadi durumu, kənd təsərrüfatı ilə bağlı müfəssəl məlumatlar verilir. Şəki və Şirvanın əsas istehsal sahəsi olan ipəklə bağlı məlumatlarda Şəki ipəyinin dəyərindən və dövlət tərəfindən inhisara alınmasıdan danışılır. Bu dövrdə Şəkinin ipəklə bağlı ixtisaslaşması və əhalinin əsas gəlir mənbəyi olması ilə bağlı məlumatlar təqdim edilir.

Araşdırmada diqqəti cəlb edən məsələlərdən biri Osmanlılarla 1612-ci ildə bağlanmış II İstanbul (Sərab) müqaviləsidir. Müqavilə 1555-ci ildə imzalanmış Amasiya barışığını təsdiqləməklə bərabər bir sıra əlavə bəndləri də özündə əks etdirir. Belə ki, Osmanlılar Şəki və Şirvan bölgələrini bu şərtlə tərk edirdilər ki, onlara ildə 100 dəvə ipək vergi olaraq verilsin. Tağı Musəvi tədqiqat işində bu məsləyə ətraflı toxunaraq qoyulan verginin Şəki hakimi tərəfindən verilmədiyini və 1617-ci ildə veriləcək natural verginin 50% azaldılmasına nail olunduğunu göstərmişdir. Hətta müəllif sonrakı dövrdə ümumiyyətlə, Şəkinin Osmanlılara həmin natural vergini vermədiyini qeyd edir və bunu Şəkinin siyasi və iqtisadi qüdrəti kimi qiymətləndirir.

Doğrudur, Tağı Musəvinin təqdim etdiyimiz tədqiqat işində razılaşmadığımız bəzi nüanslar da var. Məsələn, elə Osmanlılara vergi verməməyin vilayətin qüdrəti kimi qiymətləndirmək sadəlövhlük olardı. Belə ki, bütün mənbələrdən məlum olduğu kimi 1603-cü ildən etibarən Səfəvi dövlətində hərbi-siyasi güc bərpa olunmuşdur. I Şah Abbasın hərbi islahatları öz effektini vermiş, itirilən torpaqlar geri qaytarılmışdır. Həmin zamanda əks tərəfdə – Osmanlıda saray çevrilişləri və hakimiyyət uğrunda mübarizə dövrü kimi qiymətləndirilir. Yəni şah hakimiyyətinin gücü və hökmdarın əmri olmasaydı, heç bir vilayət hakimi bağlanmış müqavilənin

şərtlərini poza bilməzdi. Bütün sadalananlar Tağı Musəvinin tədqiqatına heç bir xələl gətirmir.

Tədqiqat işində müəllifin yol verdiyi yeganə ciddi səhv isə Nadir şahın 3 mart 1746-cı il tarixli farmanının tarixini 7 il səhv – 1739-cu ilin may ayı kimi, göstərməsidir.

Tədqiqatda I Şah Abbasın Osmanlılarla bağlanmış üçüncü müqaviləsi (Mərənd müqaviləsi) zamanı və ondan sonrakı dövrdə Şəkinin durumuna diqqət yetirilir, yeni Şəki hakiminin – cəyirli tayfasından olan Məhəmməd sultanın, Danqı kəndində (təxminimizə görə Danqı kəndi indiki Qax rayonunun Tanqıt kəndi ola bilər) şah üçün iqamətgah tikməsi də vurğulanır.

Tədqiqatda I Şah Abbasdan sonra hakimiyyət başına keçmiş I Şah Səfinin (1629–1642) dövründə Şəki vilayətində baş verən hadisələrə də yer verilmişdir. Tağı Musəvi Şəkiyə hakim təyin edilmiş Aslan sultanın ərazidə apardığı qəddar siyasət və əhalinin haqlı aqressiyalarından geniş bəhs edir. Bununla bərabər, şahın Şəkidəki durumla bağlı məlumatlı olmağı, onun Şəkiyə münasibəti dövrün fərmanları əsasında təhlil edilmişdir. Fərmanların təhlili nəticəsində Şəkidə kəskin feodal əsarətinin mövcudluğu üzə çıxmış olur.

Həm şah fərmanları, şikayətnamələr, həm də dövrün tarixçilərinin əsərləri əsasında Tağı Musəvi XVII əsr Şəkisini yetərli təsvir etməyi bacarmışdır. Hətta Şah Səfinin hakimiyyət başına keçməsində Davud bəy adlı nüfuzlu Şəki əyanının rolu və onun paytaxtda və Şəkidə mövqeyi ətraflı təsvir edilir. Doğrudur, həmin dövrə aid fərmanların bir çoxu formal xarakter daşıyırdı. Belə ki, Səfəvi dövlətində həm daxili, həm də xarici tənəzzül dövrü başlanmışdı. Böyük coğrafi kəşflər, quru yollarının əhəmiyyətinin azalması, ticarətin okeanlara keçməsi, ölkə daxilində feodal pərakəndəliyi, iri feodalların özbaşınalıq siyasəti dövlətin sütunlarını sarsıtmışdı. Buna görə də bir çox şah fərmanları və vilayət hakimlərinin əmrnamələri işlək mexanizmə malik deyildi. Tağı Musəvi verdiyi təhlillərdə bunu etiraf etmişdi. Lakin formallıqlara baxmayaraq, Tağı Musəvinin tərcümə etdiyi bütün fərmanlarda Şəki ilə bağlı zəngin elmi-tarixi biliklər mövcuddur (bu fərmanların Tağı Musəvi tərə-

findən edilmiş tərcüməsi izahları ilə birlikdə bu kitaba əlavə edilib). Məsələn, II Şah Abbasın (1642–1666) dövrünə aid 7 fərman tərcümə olunmuşdur ki, bu fərmanlar əsasında XVII əsrin ikinci yarısında Şəki ilə bağlı bütün sahələrdə baş verən hadisələri izləmək mümkündür.

II Şah Abbasın dövrünə aid sənədlərdə Şəki əhalisinin ağır durumu nəzərə çarpır. Belə ki, vilayətdən ümumi vergilərdən başqa əlavə olaraq qeyri-qanuni vergilər alınması xalqın güzəranını iflic vəziyyətinə salmışdı.

Tağı Musəvi sənədlərdə göstərilən Nuxa adı ilə bağlı əlavə məlumat verməklə ərazinin adının uzun müddət stereotip olaraq göstərilən Xoylu Cəfərqulu xandan başladığı fikirlərini alt-üst etmiş olur.

Tağı Musəvi etdiyi təhlillərdə ən çox Şəki vilayətinin əhalisini mübariz olduğunu ön plana çəkmişdir. Məsələn, II Şah Abbasın dövründə Şəki məliyi Həsənin Şirvan bəylərbəyi ilə əlbir olub Şəki vilayətindən artıq vergi alması və Şəkidə əhalinin ona güclü müqavimət göstərməsi ilə bağlı faktlar daha geniş təhlil edilmişdir. II Şah Səfinin (Şah Süleyman) Şəki əhalisinin fikirlərini nəzərə alması ilə bağlı fərmanlar və şəkililərin istədiyi şəxsin hakim təyin edilməsi şah sarayının Şəkiyə necə önəm verməsini və əhalinin çıxışlarından narahat olmasını göstərir. Diqqət çəkən məsələlərdən biri isə şah sarayında özbaşınalığın vurğulanmasıdır. Belə ki, Şəki hakimi Məlik Səfərqulu 7 – 8 il məliklik etdikdən sonra vəfat edir və köhnə məlik Həsən saray məmurlarını ələ almaqla yenidən əvvəlki vəzifəsinə qayıdır. Şah Sultan Hüseynin (1694–1722) hakimiyyəti illərində Şəki əhalisinin şikayət məqsədilə şaha müraciəti və əvəzində onlardan peşkəş tələb olunması, həmin vaxt Səfəvilər dövlətinin ümumi vəziyyətinin acınacaqlı olduğunu göstərirdi.

Qeyd edək ki, Şəki ilə bağlı tarixi hadisələr geniş oxucu ictimaiyyətinin arasında Şəki xanlığının tarixi ilə məhdudlaşır. Sovet dövründə və müstəqilliyimizin ilk 30 ili ərzində bu məsələ ilə bağlı tədqiqatlar əsas etibarı ilə şablon xarakter daşımışdır. Heç bir əsərdə Şəkinin Orta əsrlər tarixi Tağı Musəvinin araşdırmaları qədər geniş təhlilə malik olmamışdır.

# TARİXÇİ, TƏRCÜMƏÇİ VƏ KEÇMİŞ HƏRBİ TƏYYARƏÇİ*

Vaxtilə Cənubi azərbaycanlı astrofizik Hüseyn Kuçek Lələ İranın rəsmi dövlət qəzeti olan “Keyhan” qəzetinə verdiyi bir müsahibəsində bildirmişdi ki, “Heydər Əliyev bizə Şah İsmayıl Xətainin və onun oğlu I Şah Təhmasibin sərəncam və fərmanlarının fotosurətlərini bağışladı ki, onları Tehran kitabxanasına verək. Sonra bizə Tarix İnstitutunun professoru Tağı müəllimin bir-birindən qiymətli Səfəvilər dövlətindən bəhs edən kitablarını hədiyyə etdi...”[1].



*Tağı Musəvi*
*(1918–2000)*

## Tağı Musəvinin hansı kitabları çap olunmuşdur?

Tağı Musəvi 1960-cı ildə tarix elmləri üzrə namizədlik dissertasiyasını müdafiə etdikdən sonra 1960-cı və 1970-ci illərdə Azərbaycan tarixinin öyrənilməsi işinə sanballı töhfələr vermişdir. Aşağıdakı siyahı onun həmin illərdəki elmi fəaliyyətinin istiqamətləri barədə az-çox təsəvvür yarada bilər:

- 1962 – 1964-cü illərdə rəhbərliyi və iştirakı ilə S.C.Pişəvərinin seçilmiş əsərləri toplanmış, tərcümə edilmiş, nəşrə hazırlanmış və geniş müqəddimə ilə 1965-ci ildə ərəb əlifbası ilə Bakıda kitab şəklində çap edilmişdir.
- 1965-ci ildə “Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər” adlı kitabı çap olunub.

---

* Məqalə 3 may 2023-cü il tarixdə “Mədəniyyət” qəzetinin (№ 33 (2002)) 6-cı səhifəsində ixtisarla çap edilmiş, sonra isə bu şəkildə “Şəki Ensiklopediyası” saytında dərc olunmuşdur.

[1] *Novruzoğlu R.* Şah İsmayıl… (Şərur düzündən başlanan qələbə) // Respublika : qəzet. — Bakı: Azərbaycan, 2012. — 21 dekabr. — Səh.: 8.

- 1967-ci ildə “Bakı tarixinə dair orta əsr sənədləri” adlı kitabı çap olunub.
- 1968-ci ildə çapdan çıxmış “1951 – 1953-cü illərdə İran fəhlələrinin tətil hərəkatı” adlı kitabın iki elmi redaktorundan biri olub (müəllif S. M. Onullahi idi).
- 1969-cu ildə “Şəki fəhləsi” qəzetində “Şəkinin Orta əsrlər tarixi” adlı böyük məqaləsi hissə-hissə çap olunub.
- 1971-ci ildə İran Kommunist Partiyasının tarixi mövzusunda kollektiv əsərin yazılmasında iştirak edib.
- “F. Rəşidəddinin “Vəqfnameyi-Rəbi-Rəşidi” əsərində Azərbaycan tarixinin ictimai-iqtisadi, mülki və hüquqi məsələlərinə dair” çoxcildlik üçün geniş məqalə yazıb.
- 1977-ci ildə “Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədlər” adlı kitabı çap olunub. O, bu kitabını 1968-ci ildə müzakirələrə təqdim etmişdi. 1971-ci ildə isə Azərbaycanın Orta əsr tarixinə dair sənədləri mövzusunda sayca 4-cü kitabını müzakirələrə təqdim etsə də həmin kitab heç vaxt çap olunmayıb...

## Tağı Musəvinin həyatının son dövrlərini necə öyrəndik?

Lakin ötən əsrin 70-ci illərindən sonra isə elmi nəşrlərdə T. Musəvinin imzası gözə dəymir, sanki elmdən, tarixçilikdən getmiş kimi görünür. T. Musəvinin AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun arxivində saxlanılan şəxsi işindəki məlumatlar da ötən əsrin 70-ci illərinin sonlarında bitir. Nə baş vermişdir? T. Musəvi hara getdi, başına nə iş gəldi? Bu sualın cavabını öyrənmək bizim üçün heç də əlçatan olmayacaqdı, əgər ipucu tapılmasaydı. İpucu isə o oldu ki, tanınmış jurnalist Elman Eldaroğlu 2019-cu ildə Modern.az saytında dərc edilmiş “ABŞ-da yaşayan məşhur azərbaycanlı teleaparıcı...” adlı məqaləsində T.Musəvinin də adını çəkmişdir və göstərmişdir ki, ABŞ-da yaşayan məşhur azərbaycanlı teleaparıcı Günel Musəvi tarixçi Tağı Musəvinin nəvəsidir. Buna görə biz əvvəl T.Musəvinin nəvəsi Günellə, sonra isə

T. Musəvinin oğlu Yusiflə əlaqə yarada bildik və nəticədə T. Musəvinin həyat və fəaliyyətinin son dövrlərini də öyrəndik...

## Tağı Musəvinin həyat hekayəsi

Tağı Məmmədəli oğlu Musəvi (Tağıyev) 1 may 1918-ci il tarixdə Təbrizdə kəndli ailəsində anadan olub. Atası keçmiş silah alverçisi idi, lakin sonradan sənətini dəyişmiş və ömrünün sonunadək bağçılıqla məşğul olmuşdur. Anası isə əvvəlcədən sadə bir kəndçi qızı olub.

T. Musəvi 1923 – 1930-cu illərdə Təbrizdə "Gülzar" adlı yeddiillik məktəbdə oxuyub. Sonra bir müddət Təbrizdəki xalça fabrikində fəhlə işləyib. 1934-cü ildə Təbrizdə "Ədib" adlı orta məktəbi, sonrakı illərdə isə əsgərlik məktəbini bitirib. Əsgərlik məktəbindən təhsilini davam etdirmək üçün Tehran Ali Hərbi Universitetinə göndərilib. 1941-ci ildə bu universitetin şturmanlıq fakültəsini bitirib və təyyarəçi-leytenant şturman olaraq xidmət etmək üçün İran Hərbi Hava Qüvvələrinin birinci alayına təyinat alıb. Eyni vaxtda İran Xalq Partiyasının (Tudə) sıralarına daxil olub. 1942-ci ildə xidmət etdiyi hərbi alay tərəfindən təyyarəçi ixtisası üzrə ixtisaslaşmaq üçün Tehran Təyyarəçilik Məktəbinə göndərilib. 1942 – 1945-ci illərdə əvvəl Tehranda, sonra İsfahanda, daha sonra Kirmanşahda və sonra yenidən Tehranda İran Hərbi Hava Qüvvələrinin təyyarəçi-şturmanı olaraq xidmət edib. 1945-ci ildən 1946-cı ilədək gizli şəkildə partiya fəaliyyəti ilə məşğul olub və partizan dəstəsinə başçılıq edib. 1946-cı ilin aprel ayında Azərbaycan Milli Hökuməti tərəfindən Azərbaycan SSR-ə ezam olunub, 1947-ci ilə qədər Kirovabad Hərbi Təyyarəçilik Məktəbində orta bombardmançı təyyarə kapitanı ixtisası üzrə ixtisaslaşıb və işləyib. Sovet silahlı qüvvələrinin kapitanı hərbi rütbəsinə malik olub (bəzi məlumatlara görə həm də Azərbaycan Milli Hökumətinin hərbi qüvvələrinin mayoru idi). 1947-ci ildə bir müddət Hacıkənddə 250 nəfərlik fədai dəstəsinə başçılıq edib. Bu dəstə şah qoşununa qarşı güman edilən partizan və müqavimət hərəkatı üçün hazırlanırdı.

T. Musəvi 1947 – 1951-ci illərdə Azərbaycan KP MK nəzdində Partiya Məktəbində təhsil alıb, sonra 1951 – 1952-ci illərdə Bakıda Azərbaycan Demokrat Partiyası MK-da təlimatçı vəzifəsində çalışıb. 1952 – 1956-cı illərdə V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun marksizm-leninizm kafedrasının aspiranturasında təhsil alıb. 1956 – 1961-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti yanında Radio Verilişləri və Televiziya Komitəsində radionun xarici verilişlər reaksiyasında redaktor və mütərcim, 1961 – 1980-cı illərdə Azərbaycan SSR EA Tarix İnstitutunda əvvəl kiçik elmi işçi, sonra isə baş elmi işçi vəzifəsində çalışıb. O, ana dili və fars dili ilə yanaşı fransız və rus dillərini də bilirdi.

T. Musəvi 1979-cu ildə İranda islam inqilabının baş verməsindən sonra İrana qayıdıb. Amma ailəsini İrana aparmayıb, özü tək gedib. 1981-ci ildə, Bakıda qalmış 1929-cu il təvəllüdlü həyat yoldaşı Tuğra Məmməd qızı Musəvinin ölümcül xəstə olması xəbərini alıb və Bakıya geri dönüb. Tuğra Musəvi əslən Ərdəbildən idi və ixtisasca həkim olub. Onu ölümün pəncəsindən xilas etmək mümkün olmayıb, o, 52 yaşında Bakıda vəfat edib. T. Musəvi bundan sonra yenidən İrana qayıdıb. Lakin daha orada çox yaşaya bilməyib. Siyasi təqiblərə məruz qalıb. 1982-ci ildə dostlarının köməyi ilə Əfqanıstan tərəfdən SSRİ-yə qaçırılıb və bundan sonra yenidən Bakıda yaşamağa başlayıb. Bir müddət sonra isə İsveçin Lund şəhərində yaşayan qızı Azərin yanına gedib və ömrünün sonunadək onun yanında qalıb.

2000-ci ildə Hüseyn Yəhyayenin İranda Zaqros nəşriyyatında çap olunmuş “Azərbaycan tarixinin guşələri və Demokrat Firqəsi liderlərindən biri ilə söhbət” (گوشه هایی از تاریخ آذربایجان و گفتگویی با یکی از سران فرقه ی دمکرات) adlı farsca 392 səhifəlik kitabında, müəllif girişdə bildirir ki, kitabın ikinci hissəsini Mir Tağı Musəvidən götürdüyü müsahibə əsasında yazmışdır. Müsahibəni Türkiyədə götürüb və həmin vaxt Tağı Musəvi yarımiflic vəziyyətində olub. Buna baxmayaraq onun bütün suallarına dəqiq cavab verib, yalnız bəzi hallarda, bəzi adamların adlarını xatırlaya bilməyib. Müəllif girişin sonunda Tağı Musəvi ilə bağlı əlavə edir ki, “Müsahibəni tərcümə edərkən mən bu nəticəyə gəldim ki, Azərbaycanın tarixinə qısa xü-

lasə versəm, Demokrat Partiyasının siyasi fəaliyyətini müzakirə etsəm, onun güclü və zəif nöqtələrini göstərsəm yaxşı olar. Mən bu məsələləri birinci hissədə müzakirə edirəm. Mir Tağı Musəvi ilə müsahibə isə ikinci hissədədir. Musəvi İranın hava qüvvələrinin ilk olaraq Tudə partiyasına və sonra Azərbaycan Demokrat Partiyasına qoşulan ilk pilotu olmuşdur və uzun illər onun liderlərindən biri olmuşdur. Hərəkatdan sonra o, SSRİ-yə köçmüşdür. İslam İnqilabından sonra o, İrana qayıtdı. Lakin cari vəziyyətlər onu ölkəni tərk etməyə və sürgün həyatı yaşamağa məcbur etdi. O, indi mehriban qızı Azərlə İsveçin cənubunda yaşayır, yaşlanıb və qismən iflicdir. O, hələ də Azərbaycanı sevir və arzulayır ki, sivil dünyada hər zaman olduğu kimi öz yerini tutsun".

T. Musəvi 30 iyul 2000-ci il tarixdə – 82 yaşında, İsveçin Lund şəhərində vəfat etdi. Vəsiyyətinə uyğun olaraq həmin şəhərdəki qəbiristanlığın müsəlmanlar üçün ayrılmış hissəsində dəfn olundu.

T. Musəvinin 1952-ci il təvəllüdlü oğlu Yusif ABŞ-da yaşayır (Rüstəm və Ziya adlı iki oğlu və Günel adlı bir qızı var). 1954-cü il təvəllüdlü qızı Azər İsveçdə yaşayır (Zərdüşt və Kambiz adlı iki oğlu və Tuğra adlı bir qızı var). 1962-ci il təvəllüdlü oğlu Ruzbeh isə 30 il Almaniyada yaşayıb və 2022-ci ildə orada da vəfat edib (Mirtağı və Fillip adlı iki oğlu var).

**Rahim Həsənov,**
AMEA Şəki Regional Elmi Mərkəzinin
tarixi irs və etnoqrafiya şöbəsinin müdiri;
**Aydın Məmmədov,**
M.F.Axundzadə adına Şəki Mədəniyyət
Mərkəzinin əməkdaşı.

# ŞƏKİNİN ORTA ƏSRLƏR TARİXİ HAQQINDA*

Hazırda Azərbaycanın qabaqcıl rayonlarından biri sayılan Şəkinin orta əsrlər tarixi çox mürəkkəb və olduqca maraqlıdır. Onun münbit torpağı, təbii zənginliyi və firavan nemətləri tarix boyu bir çox qəsbkarları tamahlandırmışdır. Azərbaycanın bütün mərd oğulları kimi, şəkililər də həmişə yadelli qəsbkarlara qarşı rəşadətlə mübarizə aparmış və böyük igidlik nümunələri göstərmişlər. Şəki əhalisi eyni halda təsərrüfat sahələrində, xüsusilə baramaçılıq, maldarlıq, atçılıq, meyvəçilik, taxılçılıq, çəltikçilik və tütünçülük sahələrindəki müvəffəqiyyətləri ilə də tarixən özünü şöhrətləndirmişdir. Qeyd olunan müsbət cəhətlərə əsasən cəsarətlə demək olar ki, Şəki tarixi ümumazərbaycan tarixinin parlaq səhifələrini təşkil edir. Lakin nədənsə, indiyədək bu işə lazımınca diqqət yetirilməmiş və Şəkinin keçmişi haqqındakı məlumat-

* Tağı Musəvinin bu tədqiqat işi məqalə şəklində 1969-cu ildə hisssə-hissə "Şəki fəhləsi" qəzetinin aşağıdakı 12 nömrəsində çap olunub:

1. № 33 (7.367) 20 mart;
2. № 38 (7.372) 1 aprel;
3. № 46 (7.381) 19 aprel;
4. № 60 (7.395) 24 may;
5. № 75 (7.410) 28 iyun;
6. № 76 (7.411) 1 iyul;
7. № 83 (7.418) 17 iyul;
8. № 86 (7.421) 24 iyul;
9. № 87 (7.422) 26 iyul;
10. № 88 (7.423) 29 iyul;
11. № 89 (7.424) 31 iyul;
12. № 90 (7.425) 2 avqust.

Tədqiqatda müəllif heç bir qeyd verməyib, buradakı bütün qeydlər tərtibçilərindir, – *Tərtibçi.*

lar hələ də orta əsrlərin ərəb və fars dilli mənbələri arasında qalmaqdadır.

İlk mənbələrin məlumatından başqa Şəkinin orta əsrlər tarixini aydınlaşdırmağa imkan verən bir sıra dəyərli sənədlər, xüsusilə ayrı-ayrı orta əsr hökmdarlarının bəzi fərmanları da dövrümüzə qədər gəlib çatmışdır. Həmin fərman və sənədlər əsas etibarilə Azərbaycan SSR Elmlər Akademiyasının Əlyazmaları fondunda, Gürcüstan SSR Elmlər Akademiyasının Əlyazmaları İnstitutunda, Britaniya muzeyində və ayrı-ayrı arxivlərdə mühafizə olunur. Şübhəsiz ki bu mənbə və sənədlər əsasında Şəkinin orta əsrlər tarixinə aid geniş həcmli elmi-tədqiqat əsəri yazıla bilərdi. Lakin təəssüflə qeyd etməliyik ki, bu vacib və mühüm vəzifə indiyədək yerinə yetirilməmişdir.

Azərbaycan tarixinin birinci cildində[2] Şəkinin orta əsrlər tarixi haqqında verilən məlumatları istisna etsək, deyə bilərik ki, Şəkinin orta əsrlər tarixi haqqında yalnız XIX əsrdə iki əsər yazılmışdır. Onlardan biri "Şəki xanlarının ixtisar üzrə tarixi", digəri isə "Şəki xanları və onların nəsilləri" adlanır. Hər iki əsərin müəllifləri XIX əsrin birinci yarısında yaşamışlar. Təxminən 10 səhifə həcmində olan birinci əsərin əlyazması vaxtilə akademik B. Dornun əlinə keçmiş və nəticədə əsər ilk dəfə 1858-ci ildə Peterburqda "əl-İntixabat əl-bəhiyyə" adlı məcmuə daxilində çap olunmuşdur. Sonra 1926-cı ildə həmin əsər və onun rus dilində tərcüməsi Bakı şəhərində ayrıca kitabça şəklində bir daha nəşr edilmişdir.

Yeri gəlmişkən qeyd etməliyik ki, 1929-cu ilədək yanlış olaraq Qazı Əbdüllətif əfəndi bu əsərin müəllifi hesab olunmuşdur. Yalnız həmin ildə Salman Mümtaz "Maarif işçisi" jurnalının 2-ci və 3-cü nömrələrində qeyd olunan əsərin Kə-

---

[2] Müəllif bu kitabı nəzərdə tutur: "Azərbaycan tarixi", I cild, Bakı, 1961.

rim ağa Fateh tərəfindən yazıldığını isbat etmişdir. Həmin ildə Salman Mümtaz XIX əsrin ortalarında Hacı Əbdülhəmid tərəfindən yazılmış "Şəki xanları və onların nəsilləri" adlı beş səhifəlik ikinci əsəri və onun ruscaya tərcüməsini də çap etdirmişdir. Demək lazımdır ki, bu əsərlərin hər ikisi əsas etibarilə rəvayət xarakterində yazılmışdır. Onların müəllifləri yalnız I Şah Abbas dövründə yazılmış "Tarix-i aləmara-yi Abbasi" əsərində Şəki haqqındakı məlumatlardan yarımçıq şəkildə istifadə etməklə kifayətlənmiş və digər tarixi mənbələrə diqqət yetirməmişlər.

Biz yeri gəldikcə həmin əsərlərdəki uydurmaları, qeyd olunan müəlliflərin yanlış fikirlərini hörmətli oxucuların nəzərinə çatdırmağa çalışacağıq. Hər halda, qeyd olunan əsərləri bütünlüklə dəyərsiz adlandırmaq düzgün olmaz. Ona görə ki, müəlliflər XVIII əsrin sonu və XIX əsrin birinci yarısında Şəki xanları haqqında mücərrəd şəkildə olsa da müəyyən məlumatlar vermişlər.

Azərbaycanın hazırkı ərazisi daxilində orta əsrlər dövründə Şəkkan, Şəkki və nəhayət, Şəki adlanan bir vilayətin olması tarixə məlumdur. Bu vilayət Azərbaycan ərazisinin şimal-qərbində, Böyük Qafqaz sıra dağlarının cənub yamaclarında, dəniz səthindən təxminən 650 metr hündürlükdə yerləşən nisbətən geniş sahəni əhatə edirmiş. O, şimaldan Dağıstanla, qərbdən Gürcüstanla, cənubdan Şirvanla, şərqdən isə Şabranla əhatə olunurmuş. Qədim Azərbaycanın Muğan, Arran, Şirvan və Şabran vilayətləri kimi keçmişdə həmin vilayətin də böyük şöhrəti olmuşdur.

Bu vilayətin adı bir sıra ərəb və fars dilli orta əsr mənbələrində çəklimişdir. Məsələn, IX əsrdə yaşamış ərəb müəllifi əl-Bəlazuri özünün "Fituh-ül-büldan" əsərində 531 – 579-cu illər arasında Şəkkanda böyük hərbi istehkamlar tikilməsi haqqında məlumat vermişdir. Belə güman etmək olar ki, şi-

maldan xəzərlərin hücumunun qarşısını almaq məqsədilə tikilən bu istehkamlar Şəkidən Dərbəndə qədər uzanırmış. Həmin əsərdə Salman ibn Rəbiənin başçılıq etdiyi Xilafət ordusunun Arrandakı yürüşlərindən bəhs olunarkən deyilir ki, bu ordu Kürlə Arazın birləşdiyi yerdə Kür çayını keçir və Qəbələni tutur. Həmin əməliyyatdan sonra Salman ibn Rəbiə, Şəkkan və Kamibəran əmirləri ilə sülh müqaviləsi bağlayır və onların xilafətə xərac vermələri qərara alınır. Sonra əsərdə Xəzər xaqanı ilə döyüş nəticəsində xilafət ordusunun məğlubiyyətindən, Salman ibn Rəbiənin öldürülməsindən və əl-Cərrah adlı digər ərəb sərkərdəsinin başçılığı ilə Dağıstan səmtinə yeni ordu göndərilməsindən danışılır. Bu haqda verilən məlumatda deyilir ki, əl-Cərrahın başçılıq etdiyi ordular Qumuq əhalisi üzərinə hücuma keçərək onların çoxunu əsir aldıqdan sonra geri qayıdır və Şəkkanda dayanırlar. Bu ordular qış fəslini Bərdə və Beyləqanda keçirirlər. Həmin məlumatlar X əsrin ərəb müəlliflərindən Əbubəkr Əhməd ibn əl-Fəqih əl-Həmədaninin "Kitab əl-büldan" əsərində də verilmişdir. Bundan başqa "Kitab əl-büldan" əsərində biz Şəkkan istehkamları adının Dərbənddəki Babül-əbvab istehkamları adı ilə bir sırada çəkildiyini görürük. Yuxarıda qeyd olunan məlumat ilk növbədə Şəkinin keçmiş adının Şəkkan olmasını sübut edir. Digər tərəfdən görünür ki, IX və X əsrlərdə Şəki Azərbaycanın böyük hərbi-strateji əhəmiyyətə malik vilayətlərindən biri sayılırmış. X əsrin görkəmli tarixçisi Məhəmməd əl-Müqəddəsinin "Əhsənət-təqasim fi mərifətəl-əqalim" əsərində verilən məlumat bu cəhətdən xüsusilə diqqətəlayiqdir. Burada müəllif Arrandakı Şəmkur, Bərdə, Şamaxı, Şabran, Qəbələ və Babül-əbvab şəhərləri ilə birlikdə, Şəki şəhərinin də adını çəkmişdir. Əsərdə deyilir ki, Şəki şəhəri hamar yerdə salınmışdır. Şəhər əhalisinin bir hissəsi müsəlman, digər hissəsi isə xristiandır. Şəhərin müsəlmanlar

yaşayan hissəsində Cümə məscidi tikilmişdir. Sonra müəllif Şəki şəhərinin təbii gözəlliyini, onun torpağının münbitliyini, şəhər ətrafında geniş otlaqlar və çəmənliklər olmasını qeyd etmişdir. Ərəb səyyahı əl-İstəxrinin "əl-Məsalik va-l-məmalik" əsərində Kür çayı haqqındakı izahatla əlaqədar olaraq Şəkkinin adı çəkilmişdir. 1263-cü ildə Abdullah bin Məhəmməd bin Kiya əl-Mazandarani tərəfindən yazılmış "Risale-yi fələkiyyə" adlı kitabda Şəkkinin adı Şirvanla birlikdə çəkilmişdir. Buradan görünür ki, qeyd olunan dövrlərdə Şəki vilayəti Şirvanın tabeliyində olmuş və oradan toplanan vergilər Şirvanın vergiləri ilə birlikdə hesaba alınmışdır. "Həbib-üs-siyər" əsərinin müəllifi Qiyasəddin Xandəmirin izahından məlum olur ki, XIV əsrin sonunda, daha dəqiq desək, 1394-cü ilin avqust ayında Əmir Teymur Gürcüstana yürüş təşkil edərkən onun orduları Şəki vilayətinin yaxınlığından keçmiş və bu vilayətə ziyan vurmamışlar.

Məlumdur ki bu təhlükəsizlik Şirvanşah I İbrahimin müdrik siyasəti sayəsində mümkün olmuşdur. Qeyd etməliyik ki bu dövrdə I İbrahim Azərbaycan vilayətləri arasında birlik yaratmağa və Teymurun hakimiyyətindən öz xalqının xeyrinə istifadə etməyə çalışırdı. Həmin müdrik siyasət nəticəsində o öz təsirini Şəki və Qarabağa yaya bilmişdi. 1398-ci ildə Şirvanşah I İbrahimin təsiri altında Şəkinin hakimliyi vəzifəsi Sidi Əlinin oğlu Sidi Əhmədə tapşırıldı. 1402-ci ildə Sidi Əhmədin rəhbərliyi altında Şəki ordusu Osmanlı sultanı I Bəyazidə qarşı hərbi yürüşdə fəal iştirak etdi[3]. Osmanlılar üzərində qələbə çalmaq Şirvanşahın nüfuzunu daha da artırdı. Bu iş Şəki vilayətinə də öz müsbət təsirini buraxdı.

[3] Şəki hakiminin və şəkililərin 1402-ci il Ankara döyüşündə iştirak etməsi barədə məlumat dövrün mənbələrinə əsaslanmır.

Şəki vilayətinin müəyyən dərəcədə Şirvanşahlara tabe vəziyyətdə olması, demək olar ki, bütün XV əsr boyu davam etmişdir[4]. "Tarix-i aləmara-yi Abbasi" əsərində I Şah İsmayılın atası Sultan Heydərin 1487-ci ildə Dağıstana yürüş təşkil etməsindən danışılan yerdə Şirvanın tabeliyində olan bir şimal vilayəti kimi Şəkinin adı çəkilmişdir[5]. Əsərdə Sultan Heydərin rəhbərliyi altında qızılbaş qoşunlarının Şəki yolu ilə Dərbəndə getməsi də qeyd olunmuşdur.

XVI əsrin əvvəllərində, daha dəqiq desək, 1500-cü ildə, I Şah İsmayıl Səfəvi öz atasının intiqamını almaq üçün Şirvan və Dağıstana qızılbaşların hərbi yürüşünü təşkil edir. Bu yürüş zamanı onun qoşunları Kürlə Arazın birləşdiyi məntəqədə – Qoyunulumu adlanan yerdə, Kür çayının keçdikdən sonra ilk dəfə Şəki ordusu ilə üz-üzə gəlir[6]. Şirvanşah Fərrux Yasarın tərəfini saxlayan şəkililər həmin vuruşmada çox böyük qəhrəmanlıq göstərirlər. Buna görə I Şah İsmayıl 1509-cu ildə ikinci dəfə Şirvana yürüş təşkil edərkən Bakı və Dərbənd

---

[4] Bu fikirlə müəyyən dərəcədə razılaşmaq olmaz. Belə ki, XV əsr boyu Şəki hökmdarlığı ilə Şirvanşahlar arasında qarşıdurmalar da baş vermişdir və ilk mənbələrdə bu əsrdə Şəkinin Şirvana tabe olduğunu göstərən heç bir məlumata rast gəlinmir.

[5] 1488-ci ildə I Şah İsmayılın atası Şeyx Heydər öz qoşunu ilə Dərbəndə yürüş edərkən Şəkidən keçib getmişdir. Bu zaman Şəki əhalisi onu qonaqpərvərliklə qarşılamışdır (Bax: *Qiyasəddin Xandəmir*. Tarix-i həbibüs-siyər fi əxbar əfrad-i bəşər. Tehran, 1333, c. IV, səh.433.).

[6] Bu keçid "Qoyunölümü" adı ilə tanınırdı və yeri Mingəçevir keçidinə daha çox uyğun gəlir. Namiq Musalı göstərir ki Səfəvi müəllifləri 1500-cü ilin payızında İsmayılın Şirvan üzərinə yürüş edərkən Qoyun-ölümü adlı yerdən Kür çayını keçdikdən sonra Şəki hakiminin qüvvələrini məğlub etdiyini qeyd edirlər (Bax: *Musalı N.* "Cahangüşa-yi xaqan-i sahibqiran" əsərində Şəki tarixinə dair məlumatlar // Şəki. Biblioqrafik göstəricisi. Tarix-diyarşünaslıq materialları / Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu. — Bakı: Turxan NRB, 2019. — Səh. 356 ).

qalalarının fəth etdikdən sonra belə Şəki vilayətinin sərhədlərinə yaxınlaşmağa cəsarət etmir və həmin vilayətlə öz münasibətlərini diplomatik yolla sahmana salmağa çalışır. Beləliklə, I Şah İsmayıl dövründə Şəki vilayəti Şirvanla ittifaq şəraitində öz nisbi müstəqilliyini qoruyub saxlaya bilir. Bununla yanaşı, həmin dövrdə Şəkinin hakimləri ilə Səfəvilər arasında münasibətlər də yaxşılaşır.

Belə ki, 1521-ci ildə gürcü hökmdarı Levonun Şəki vilayətinə hərbi yürüş təşkil etdiyi vaxt Şəkinin hakimi Həsən bəy I Şah İsmayıla məktub göndərir və ondan yardım xahiş edir. Həmin məktubla əlaqədar olaraq I Şah İsmayıl özünün adlısanlı əmirlərindən Div Sultan Rumlunu böyük ordu ilə şəkililərin köməyinə göndərir. Bu ordu Şəki ordusu ilə əməkdaşlıq şəraitində Qanıx, Qiberi, Zəyəm və Kirəm istiqamətində irəliləyərək özünü Qoriyə çatdırır. Gürcüstan qoşunlarının məğlubiyyətini görən Levon I Şah İsmayılın qarşısında üzr istəməyə məcbur olur. O qızılbaş və Şəki ordularının Gürcüstandan geri çağırılmasını xahiş edir.

Bu hadisədən sonra Şəki vilayətinin mövqeyi daha da möhkəmlənir. Bu hal isə Şəki vilayətini Səfəvilərə tabe vəziyyətə salmaq istəyən I Şah İsmayılı nigaran edir. Həmin dövrün tarixçilərindən Həsən bəy Rumlu özünün "Əhsənüt-təvarix" əsərində yazır ki, 1524-cü ilin yazında I Şah İsmayıl Şəkiyə yürüş təşkil etmək qərarına gəlir. Bu məqsədlə o öz ordusu ilə ova çıxmaq bəhanəsi altında Təbrizdən Şəkiyə tərəf yola düşür. Eyni yolda o, ayrı-ayrı vilayətlərin ordu başçıları və əmirlərinə də öz orduları ilə birlikdə Şəki səmtinə hərəkət etmək haqqında, Şəki vilayətinin ətrafında bir yerə toplaşmaq haqqında göstəriş verir. Belə bir şəraitdə böyük bir təhlükənin yaxınlaşmasını hiss edən Şəki hakimi Həsən bəy vəziyyətdən çıxmaq xatirinə şəxsən I Şah İsmayıl ilə görüşmək qərarına gəlir. O, I Şah İsmayılın Şəkiyə yaxınlaşdığı bir

vaxtda qiymətli hədiyyələr götürərək şəxsən şahın görüşünə gedir. Həsən bəyin həmin müdrik siyasəti nəticəsində Şəkiyə qarşı hərbi əməliyyat ləğv olunur və I Şah İsmayıl özünün ata-babalarının məzarını ziyarət etmək arzusunda olduğunu bəhanə edərək Ərdəbil şəhərinə doğru yola düşür.

Qeyd etməliyik ki, bu səfər zamanı I Şah İsmayıl xəstələnir və həmin ilin may ayının ortalarında Sərab şəhəri yaxınlığında Sayın kəndi yanındakı düşərgədə vəfat edir. Belə bir vəziyyəti özü üçün əlverişli hesab edən gürcü hökmdarı Levon I Şah İsmayılın ölümündən azacıq sonra böyük ordu ilə ikinci dəfə Şəkiyə hücum edir[7]. Şiddətli döyüşlər zamanı Həsən bəy ölür, Şəki ordusu ciddi məğlubiyyətə uğrayır. Lakin hərbi məğlubiyyətə baxmayaraq, əhalinin inadlı mübarizəsi fatehləri sarsıdır. Buna görə də gürcülər uzun müddət Şəkidə qala bilmir və öz ölkələrinə geri qayıtmağa məcbur olurlar.

Dövrün tarixi mənbələrində verilən məlumatlardan görünür ki, gürcü orduları Şəkidən geri çəkildikdən sonra vilayətin adlı-sanlı adamları bir yerə toplaşır və Həsən bəyin oğlu Dərvişməhəmməd xanı Şəki vilayətinə hökmdar təyin edir-

---

[7] Bu hadisələr barədə daha ətraflı məlumat "Cahangüşa-yi xaqan-i sahibqiran" əsərində var. Orada göstərilir ki, Şah İsmayıl Şəki hökmdarı Həsən sultanla birlikdə Şəki dağlarında ova çıxıbmışlar. Amma ovdan əvvəl yerli ağsaqqallar ona xəbərdarlıq etmişdilər ki "*keçmiş sultanlar o vilayətdə Şah dağına pənah aparan ovun ardınca getməzdilər... onların ovlanması uğursuzluq əlaməti hesab olunur*"... Şah İsmayıl Şəkidən Ərdəbilə getdi, sonra Təbrizə yola düşməyə hazırlaşarkən xəbər alır ki Levon Şəkiyə hücum edib və Şəki hökmdarı Həsən sultan da döyüşdə şəhid olub. Şah İsmayıl bundan çox qəzəblənsə də Levonu cəzalandırmağa imkan tapmadı, 23 may 1524-cü ildə vəfat etdi (Bax: *Musalı N.* "Cahangüşa-yi xaqan-i sahibqiran" əsərində Şəki tarixinə dair məlumatlar // Şəki. Biblioqrafik göstəricisi. Tarix-diyarşünaslıq materialları / Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu. — Bakı: Turxan NRB, 2019. — Səh. 363–364 ).

lər. Qeyd etməliyik ki, həmin hadisə I İsmayılın oğlu, hələ 11 yaşı başa çatmamış I Təhmasibin şahlıq taxtına oturduğu bir dövrə təsadüf etmişdir. Bu dövrdə Dərvişməhəmməd xan Səfəvilərlə Osmanlılar arasındakı ziddiyyətin getdikcə daha da kəskinləşdiyini görürdü. Eyni zamanda o, Səfəvilərin Şəkini özlərinə tabe etmək niyyətindən də yaxşı xəbərdar idi. Həmin səbəblər üzündən Dərvişməhəmməd xan öz siyasətini Şirvan hökmdarı ilə dostluğu möhkəmlətmək əsasları üzərində qurmağa çalışırdı. Lakin 1535-ci ilin noyabr ayında Sultan Xəlil bin Şeyxşahın vəfat etməsi Şirvanın siyasi mövqeyini zəiflətdi. Sultan Xəlildən sonra hakimiyyət başına keçmiş kiçik yaşlı Şahrux bin Sultan Fərrux ölkəni idarə edə bilmirdi. Şirvanda Şahrux əleyhinə üsyanlar baş verdi.

I Şah Təhmasib isə yaranmış vəziyyətdən əlverişli fürsət kimi istifadə etmək qərarına gəldi. Nəticədə, I Şah Təhmasibin qardaşı Əlqas mirzə, habelə onun adlı-sanlı sərkərdələrindən Bədir xan Ustaclu, Yaqub sultan Qacar, Qaravəli Ərəbkirlu Sunduq bəy Qorçubaşı, Məhəmməd bəy Talış və Məntşa Sultan Ustaclu 20 min nəfərlik ordu ilə Şirvana qarşı yürüşə başladılar. Şahrux Şamaxı şəhəri yaxınlığındakı Buğurd qalasına sığındı. Onun vəkili Hüseyn bəy Buğurd dərəsində Səfəvi qoşunlarını qarşıladı.

Belə bir şəraitdə Şəki ordusu Dərvişməhəmməd xanın rəhbərliyi altında Şirvana köməyə gəldi. Lakin Hüseyn bəyin də Buğurd qalasına geri çəkilməsi və Şahruxun qızılbaşlara təslim olmaq qərarına gəlməsi şəkililəri bütünlüklə məyus etdi. Buna görə də onlar hərbi əməliyyatlardan əl çəkərək öz vilayətlərinə geri qayıtdılar. Şahrux qaladan enib təslim olduqdan sonra I Şah Təhmasibin göstərişi əsasında Təbrizə aparıldı və orada öldürüldü. Şirvanda şirvanşahlıq vəzifəsi I Şah Təhmasibin qardaşı Əlqas mirzəyə tapşırıldı.

Bu hadisə Şirvanda Səfəvilərin hərbi-siyasi mövqeyini möhkəmlətdi. Buna baxmayaraq, Səfəvilər yenə də Şəki vilayətinə nüfuz edə bilmədilər. Vilayət öz hərbi-siyasi mövqeyini qoruyub saxladı.

Əlqas mirzə şəkililərdən ehtiyat edir və həmin vilayətlə Səfəvilər arasındakı gərgin münasibəti dinc yolla sahmana salmağa çalışırdı. Dərvişməhəmməd xan isə qeyd olunan şəraitdən vilayətin istiqlaliyyəti xeyrinə istifadə etmək istəyirdi. Şirvanla Şəki arasındakı münasibətlər qaydaya salındıqdan sonra 1540-cı ildə Əlqas mirzə Dərvişməhəmməd xanı Təbrizə apardı və Səhənd yaylağında onu I Şah Təhmasiblə görüşdürdü. Bu hadisə Dağıstan və Gürcüstanla qonşu olan Şəki vilayətinə Səfəvilərin nə qədər böyük əhəmiyyət vermələrini bir daha sübut edirdi. Həmin dövrün tarixi mənbələrində verilən məlumatlardan görünür ki, qeyd olunan görüşdən sonra Şəki vilayəti yenə də öz istiqlaliyyətini qorumuşdur. Şəki hökmdarı nəinki Əlqas mirzənin təsiri altına düşməmiş, hətta tədricən onu öz təsiri altına da sala bilmişdir. Belə ki, həmin görüşdən bir neçə il sonra Əlqas mirzə Şirvanda müstəqil hökmdar kimi öz adına sikkə vurdurmuş və xütbə oxutmuşdur.

Şirvanı müstəqil dövlətə çevirmək yolunda Əlqas mirzənin ilk tədbirləri I Şah Təhmasibi çox inadkar edir və təşvişə salır. Ona görə ki bu tədbirlər bir tərəfdən Səfəvi dövlətini Şirvanın tükənməz sərvətlərindən məhrum edir, digər tərəfdən isə onun Şəkini tabe etmək haqqında planlarını puça çıxarırdı. Məhz həmin səbəblər üzündən I Şah Təhmasib nəyin bahasına olursa olsun, bu işin qarşısını almaq istəyirdi.

O, 1546-cı ildə ilk dəfə Örkəncoğlunu Şamaxıya göndərdi. Həmin şəxs Əlqas mirzə ilə danışıqlar aparıb Təbrizə qayıtdıqdan sonra Səfəvi hökmdarı Şirvana yenidən böyük bir heyət göndərdi. Seyid Məhəbbət bəy Kəmunə, Sunduq bəy Qor-

çubaşı, Şahqulu Xəlifə, Məsum bəy və Bədir xan kimi adlısanlı xadimlərin daxil olduğu həmin heyət hazırda Sabirabad rayonu ərazisində olan Cavad qəsəbəsində Əlqas mirzə ilə danışıqlar apardı. Bu danışıqlar nəticəsində Şirvanın Səfəvilərə tabe olacağı təsdiq edildi. Eyni zamanda qərara alındı ki, Əlqas mirzə hər il I Şah Təhmasib ordusu üçün min nəfər atlı döyüşçü versin, Təbriz xəzinəsinə isə hər il min tümən nağd pul göndərsin. Lakin Əlqas mirzə bu şərtləri yerinə yetirmədi.

Nəticədə, I Şah Təhmasib Gürcüstana hərbi yürüş təşkil etmək bəhanəsi altında Gəncə şəhərinə gəldi. Qızılbaş orduları Yevlaxda düşərgə saldılar. Bu zaman Əlqas mirzə Şirvan əmirləri ilə birlikdə Qəbələdə idi. Qızılbaşlar Şirvanın paytaxtı[8] Şamaxı şəhərinə qəflətən hücum edərək şəhəri talayıb dağıtdılar. Şəhərdəki Şirvan orduları Dövlətyar bəyin rəhbərliyi altında Gülüstan qalasına geri oturdu. Qızılbaşlar isə dərhal həmin qalanı da mühasirəyə aldılar.

Beləliklə, Şirvanda vəziyyət ağırlaşdı. Qızılbaşlar Gəncədən Şamaxıyadək geniş bir sahədə hərbi əməliyyatın təşəbbüsünü öz əllərinə keçirdilər. Əlqas mirzə 6 min nəfərlik ordu ilə Dərbənd səmtinə geri çəkilmək məcburiyyətində qaldı. Məlumdur ki bu vəziyyət Şəki vilayəti üçün də olduqca təhlükəli idi. Qızılbaşlar vilayətin sərhədlərinə yaxınlaşırdılar. Hər an hərbi toqquşma baş verə bilərdi. Şəkinin təcrübəli hökmdarı Dərvişməhəmməd xan belə bir mürəkkəb şəraitdə bir tərəfdən vilayətin təhlükəsizliyini təmin etdi, digər tərəfdən isə qardaşı Şahnəzəri böyük ordu ilə şirvanlıların köməyinə göndərdi. Bu zaman Dərbənd yolunda güclü şaxta və

[8] Müəllif həmin dövrdə əraziyə Şirvan bəylərbəyliyinin aspektindən yanaşmadığından Şamaxını bəylərbəyliyin inzibati mərkəzi kimi yox, paytaxtı kimi göstərirdi.

çovğuna düçar olmuş şirvanlılar həm də arxa tərəfdən çərkəzlərin hücumuna məruz qalmışdılar. Şahnəzərin başçılıq etdiyi Şəki ordusu belə bir ağır vəziyyətdə döyüş meydanına çataraq dərhal çərkəzlər üzərinə hücuma keçdi. Çərkəzlər 300 nəfərdən artıq itki verdikdən sonra döyüşdən əl çəkməyə və geri çəkilməyə məcbur oldular. Beləliklə, arxa tərəfdən Şirvan ordusunun təhlükəsizliyi təmin edildi. Şəkililər həmin ordunu Dərbəndədək müşayiət etdilər. Lakin Əlqas mirzə Dərbənd qalasında uzun müddət qala bilmədi. Qızılbaşların Dərbəndə doğru yürüşü ilə əlaqədar olaraq o, tələsik qalanı tərk edib Samur çayına doğru geri çəkildi və nəhayət, o çayı da keçib öz yaxın adamları ilə birlikdə Şirvandan İstanbula qaçdı. Əlqas mirzənin bu xəyanəti nəticəsində Şirvan ordusu başsız qaldı. Şirvanlılara yardım edən Şəki ordusu Şahnəzərin rəhbərliyi altında Şəki vilayətinə geri qayıtdı[9].

Bütün Şirvan yenidən Səfəvilərə tabe edildi. Lakin belə hərbi üstünlük şəraitində I Şah Təhmasib yenə də Şəki vilayətinə ordu yeritməyə cürət etmədi. O, Şirvanın hökmdarlığı vəzifəsini öz oğlu İsmayıl mirzəyə tapşırdıqdan sonra 1547-ci ilin son aylarında Təbriz şəhərinə geri qayıtdı.

Qeyd etməliyik ki bu tədbir heç də Şirvanda Səfəvilərə qarşı hərəkata son qoymadı. 1548-ci ildə Şirvanda Bürhan mirzənin rəhbərliyi altında Səfəvilərə qarşı yeni çıxışlar oldu. Digər tərəfdən, Osmanlı hökmdarı Sultan Süleyman Qanuni Əlqas mirzənin xəyanətindən istifadə edərək həmin il-

---

[9] Əslində bu döyüşdə Şahnəzər həlak olub. Həsən bəy Rumlu yazır ki: *"[Əlqas] Şəki hakimi Dərvişməhəmməd xanın qardaşı Şahnəzəri bir dəstə mülazimlə qicdavu (ordunun arxasını mühafizə edən dəstə) [təyin] etdi. Çərkəz camaatından bir dəstə ona rast gəldi. Şahnəzər ayağını möhkəm tutub şiddətli döyüş etdi [Lakin] axırda çərkəzlərin nizə zərbəsi ilə atdan yıxılıb öldürüldü".* (Bax: *Həsən bəy Rumlu.* Əhsənüt-təvarix. — Kasamonu, 2017.— Səh.: 536).

də Azərbaycana yürüş təşkil etdi. Bu zaman İsmayıl mirzə öz atasının köməyinə tələsdi. Bürhan mirzə isə fürsətdən istifadə edərək Şirvanı bütünlüklə ələ keçirdi.

Osmanlılarla Səfəvilər arasında müharibə, nəhayət, I Şah Təhmasibin qələbəsi ilə nəticələndi[10]. Lakin müharibə nəticəsində Azərbaycan ərazisinin böyük bir sahəsi tam mənada yandırılmış səhraya çevrilmişdi. İstər qızılbaşlar və istərsə də Osmanlılar düşmənin irəliləməsinə imkan verməmək xatirinə yol üzərindəki bütün şəhər və kəndləri yandırmış, ərzağı məhv etmiş və əhalini zorla köçürmüşdülər. Buna görə də, Azərbaycan ərazisində hərbi əməliyyat qurtardıqdan sonra I Şah Təhmasib öz ordularını Qarabağa gətirdi və qış fəslini Bərdədə keçirmək qərarına gəldi. Böyük ordunun Bərdədə qışlaması Şəki vilayəti üçün ciddi təhlükə yaratmışdı. Belə bir vəziyyətdə Dərvişməhəmməd xan vilayətin müdafiəsini təşkil edir, Kiş və "Gələsən, görəsən" qalalarında öz mövqeyini möhkəmləndirir. I Şah Təhmasibin 1549-cu ildə həmin qələbə haqqında Mazandaran hökmdarı Məlik Kəyumərsə göndərdiyi fəthnaməsindən məlum olur ki, qızılbaş orduları Bərdəyə gəldikdən sonra Şəki vilayətinə qarşı onların geniş hərbi yürüşü təşkil olunmuşdur.

I Şah Təhmasib Şəki vilayəti əleyhinə hərbi əməliyyat təşkili işini özünün qorçubaşısı Cəlaləddin Sunduk bəyə tapşırmışdır. Beləliklə, o, təxminən 10 min nəfərlik ordunun müşayiəti ilə Şəki vilayətinə hücum etmişdir. Lakin qızılbaşlar vilayət ordusunun gərgin müqaviməti ilə üz-üzə gələrək yenidən Bərdəyə geri çəkilmişlər. Bu hadisədən 10 gün sonra Əlqas mirzənin Həmədana hücum etməsi xəbəri ilə əlaqədar olaraq I Şah Təhmasib öz ordularının böyük bir hissəsini

---

[10] Burada Sultan Süleymanın üçüncü yürüşünün uğursuzluğundan söhbət gedir.

Qəzvin şəhərinə göndərmiş və beləliklə, Şəki vilayətinə ikinci dəfə hərbi yürüş təşkil edə bilməmişdir. Qeyd etməliyik ki, qızılbaşların Şəkiyə qarşı birinci yürüşü vilayətin sərvətinə və təsərrüfatına böyük ziyan vurmuşdur. Mazandaran hökmdarı adına yazılmış fəthnamədən görünür ki, qızılbaşlar Şəkidən qayıdarkən yol üzərindəki bütün kəndləri və yaşayış məntəqələrini çapıb-talamışlar. Onlar özləri ilə Bərdəyə təxminən iki yüz min baş qoyun, əlli min baş qaramal, beş min baş at, otuz min xalvar taxıl və digər ərzaq malları aparmışlar. Bu fakt Şəkinin həmin dövrdə tükənməz sərvətlərə malik bir vilayət olduğunu sübut edir.

I Şah Təhmasibin Bərdədən Qəzvinə qayıtdığı dövrdə, demək olar ki, Şirvan da Səfəvilərə tabe vəziyyətdən xilas olmuşdu. Şirvanşahlar nəslinə mənsub olan Bürhan mirzə Şirvan feodallarının yardımı sayəsində artıq Şamaxı şəhərini tutmuş, öz hakimiyyətini bütün Şirvana yaymışdı. Məlumdur ki I Şah Təhmasib iki cəbhədə vuruşa bilməzdi. O, yalnız öz qardaşı Əlqas mirzənin daha təhlükəli macərasına nəhayət verdikdən sonra bu haqda fikirləşə bilərdi. Beləliklə, Səfəvi dövlətinin bütün gücü Əlqas mirzəyə qarşı yönəldildi. Onun tərəfdarları darmadağın edildi. Əlqas mirzə təslim olmaq məcburiyyətində qaldı. I Şah Təhmasib onu Qəhqəhə qalasında həbs etdirdi. Bu hadisələrdən sonra I Şah Təhmasib Şirvanı yenidən tabe etmək fikrinə düşdü. 1549-cu ildə o, Bürhan mirzənin qəflətən ölməsindən istifadə edərək Abdulla xan Ustaclunu Şirvana hökmdar təyin etdi. Beləliklə, Abdulla xan böyük ordu ilə Şirvana gəldi. O, Xəzərin adalarından birində gizlənmiş Şirvan feodallarına qanlı divan tutdu. Bürhan mirzənin cəsədini qəbirdən çıxartdırdı və onun başını I Şah Təhmasibə göndərdi. Dövrün tarixçiləri yazırlar ki, Abdulla xanın qəddarlığı, istər Şirvan, istərsə də onun qonşuluğundakı vilayətlərdə ciddi təşviş və narahatçılığa səbəb

olmuşdu. Lakin bu müddəa Şəki vilayəti haqqında heç də özünü doğrultmur. Ona görə ki bütün qızılbaş hökmdarları kimi Abdulla xan da Şəki vilayəti ilə münasibət məsələsində ehtiyatlı hərəkət etmişdir. O, ilk növbədə, dinc yolla Şəkinin Səfəvi hakimiyyətinə tabe etməyə çalışmışdır. Görünür, Dərvişməhəmməd xan da münasib vaxt və fürsət əldə etmək xatirinə Abdulla xanın qarşısında müəyyən siyasi manevrlərə əl atmışdır.

Şəkiyə sədr təyin olunması haqqında I Şah Təhmasibin fərmanı bu cəhətdən xüsusilə diqqətəlayiqdir. Əsl nüsxəsi Gürcüstan SSR Elmlər Akademiyası Əlyazmaları İnstitutunun arxivində mühafizə olunan həmin fərmandan məlum olur ki, Şirvan Səfəvilərə tabe edildikdən sonra Mirsultan ləqəbi daşıyan Əbdürrəzzaq adlı bir şəxs həmin ölkəyə sədr təyin olunmuşdur.

1550-ci ilin sentyabr ayında I Şah Təhmasib Şəki vilayətinin sədrliyi vəzifəsini də ona tapşırmışdır. Fərmandan görünür ki, o dövrdə sədrlər əsas etibarilə əhali arasında şiə təriqətini təbliğ edir, dini məsələlərə yetişir, mahal, şəhər və qəsəbələr üçün qazılar və şəriət xadimləri təyin edirmişlər. Beləliklə, I Şah Təhmasibin Əbdürrəzzağı Şəkiyə sədr təyin etməsi, həqiqətdə şiəlik təriqətinin Şəkidə təbliğ olunmasına Dərvişməhəmməd xanın razılıq verməsini sübut edir.

Qeyd etməliyik ki Dərvişməhəmməd xan məhz özünün həmin manevrləri ilə Səfəvilərin Şəkiyə qarşı hərbi yürüşünü təxminən üç il geriyə ata bildi. Lakin I Şah Təhmasib heç də Şəkini sərvətlərinə həmişəlik göz yuma bilməzdi.

I Şah Təhmasib vilayətin təsərrüfatından, maddi sərvətlərindən və canlı qüvvələrindən istifadə etmək istəyirdi. Buna görə də o, nəhayət, 1551-ci ildə Şəki əleyhinə geniş hərbi yürüşə başladı. Qızılbaş orduları onun şəxsi rəhbərliyi altında

hazırda Ağdaş adlanan Ərəş şəhəri[11] yaxınlığında düşərgə saldılar. Abdulla xan Ustaclunun başçılıq etdiyi Şirvan ordusu və Levonun rəhbərliyi altında olan Kaxetiya qoşunları da həmin düşərgəyə gətirildilər.

Belə hərbi üstünlük şəraitində I Şah Təhmasib Şəkiyə elçi göndərərək Dərvişməhəmməd xanın Ərəşə gəlməsini tələb etdi. Dərvişməhəmməd xan bu tələbi təhqiredici hərəkət hesab edərək I Şah Təhmasiblə görüşməyə mail olmadığını bildirdi. Bu cavab qarşısında qəzəblənən I Şah Təhmasib adlısanlı qızılbaş sərkərdələrindən Şahqulu sultan Ustaclunu və Bədir xanı hüzura çağırtdırıb Dərvişməhəmməd xanı zorla Ərəşə gətirmək məsələsini onlara tapşırdı. Beləliklə, Şəki vilayətinə qarşı böyük hərbi əməliyyat başlandı. Qızılbaşlar vilayətin sərhədləri yaxınlığında Şəki ordusunun inadlı müqaviməti ilə üz-üzə gəldilər. Bir neçə gün davam edən həmin döyüşlər cərəyanında ilk cəbhə xətti yarıldı və Şəki ordusu sərkərdələrindən Əmir Yusif əsir düşdü. Bu zaman Dərvişməhəmməd xan ikinci müdafiə xətti təşkil etmək qərarına gəldi. Ordunun bir hissəsi dağlar qoynunda yerləşən sığnaqlara göndərildi. Kiş qalasının müdafiəsinə rəhbərlik işi Cövşən ağanın[12] qardaşı Mahmud bəyə tapşırıldı. "Gələsən, görə-

---

[11] Ərəş şəhərinin xarabalığı indiki Yevlax rayonunun Xanabad kəndi yaxınlığındadır (Bax: Ərəş// Azərbaycan Sovet Ensiklopediyası — Bakı: Qızıl Şərq, 1980. — IV cild. — Səh.: 226).

[12] Burada sual ortaya çıxır, hansı Cövşən ağanın? Axı mətndə Cövşən ağanın adı daha əvvəl heç çəkilməmişdi? Lakin diqqət yetirdikdə ki ərəb əlifbası ilə "Cövşən" və "Yusif" adlarının yazılışları bir birinə bir qədər bənzəyir, o zaman nəticə çıxara bilərik ki, mətndə texniki səhvə yol verilməsi mümkündür və mətndə "Cövşən" və "Yusif" adı ilə təqdim olunan iki ayrı-ayrı şəxs əslində eyni adam ola bilər. Başqa sözlə, çox güman ki Kiş qalasının müdafiəsinə rəhbər təyin edilmiş Mahmud ağa , həmin Şəki sərkərdəsinin adının mənbədə necə yazılmasından asılı olmayaraq qızılbaşlara əsir düşmüş Şəki sərkərdəsinin qardaşıdır.

sən" qalasının müdafiəsinə rəhbərlik vəzifəsini isə Dərvişməhəmməd xan şəxsən öz öhdəsinə götürdü. Həmin vəziyyət qarşısında I Şah Təhmasib də bütün qüvvələrini hərbi əməliyyat meydanına sövq etmək qərarına gəldi. Beləliklə, ilk növbədə qızılbaşların böyük hərbi vahidləri adlı-sanlı sərkərdələrdən Sunduq bəy Qorçubaşı, Şahqulu sultan Ustaclu, Bədir xanın rəhbərliyi altında Kiş qalası istiqamətində hücuma keçdilər. I Şah Təhmasibin möhürlərini mühafizə edən Şahqulu Xəlifə bir neçə hərbi vahidlə sığnaqlara tərəf göndərildi. Abdulla xan Ustaclunun başçılıq etdiyi Şirvan ordusu isə Levonun rəhbərliyi altında olan Kaxetiya ordusu ilə birlikdə "Gələsən, görəsən" qalasına doğru yönəldilər. I Şah Təhmasibin göstərişinə əsasən ilk növbədə Kiş qalası alınmalı idi. Lakin şəkililər qalanı mərdliklə müdafiə edirdilər. Qalanı ələ keçirmək uğrunda 20 günlük ardıcıl, inadlı və qanlı döyüşlər heç bir nəticə vermədi. Buna görə də qızılbaşlar gecələr gizli şəraitdə lağım qazmaq və bir neçə yerdə qala hasarlarının altını ovub boşaltmaq qərarına gəldilər. Beləliklə, qala hasarının altı bir neçə yerdən ovuldu və bünövrə daşlarının altına şalban sütunlar vuruldu. Bu hazırlıq işi başa çatdıqdan sonra qızılbaşlar gecə vaxtı ilk növbədə həmin şalbanlara neft səpib od vurdular. Sonra hasarın həmin yerlərinə top, zərbzən və mancanaqlarla zərbələr endirdilər. Nəticədə qala divarının bir hissəsi uçuldu. Qalanın daxilinə yol açılan kimi qızılbaşların hücumu başlandı. Qala müdafiəçilərinin çoxu döyüş zamanı öldürüldü, qalanları isə əsir alındılar. Həmin dövrün tarixçisi Həsən bəy Rumlunun "Əhsənüttəvarix" əsərində verilən məlumata görə Mahmud bəy də həmin döyüş zamanı əsir düşmüşdü. Lakin o, hiylə işlədərək əsarətdən qaçmağa nail olmuşdur.

Kiş qalası alındıqdan sonra I Şah Təhmasib onun bütün istehkamlarını dağıtmaq haqqında fərman verir. Beləliklə, qa-

lanın bütün bürcləri, müdafiə istehkamları və tikintiləri yerlə yeksan edilir. Kiş qalasının alınması nəticəsində "Gələsən, görəsən" qalasına qarşı hərbi əməliyyat daha da güclənir. Belə şəraitdə Dərvişməhəmməd xan qalanı tərk etmək və əlçatmaz dağlar qoynunda yerləşən sığnaqlara geri çəkilmək qərarına gəlir. Güman etmək olar ki, onun bu qərarı qala ətrafındakı düşmən qüvvələrin gün-gündən artmasından əlavə, həm də qala daxilində ərzaq ehtiyatları və müdafiə vasitələrinin getdikcə daha da azalması ilə əlaqədar olmuşdur. Beləliklə, Dərvişməhəmməd xan qaranlıq gecələrdən birində özünün 400 şəkili döyüşçüsü ilə birlikdə "Gələsən, görəsən" qalasından yola düşür. Şəkililər qalanı mühasirəyə almış Şirvan və Kaxetiya orduları arasından böyük məharətlə keçir və onların xəbəri olmadan qala ətrafından uzaqlaşırlar[13].

Şəki vilayətində Toygün bəy Qacarın neçə il hökmdarlıq etdiyini hələlik dəqiq surətdə müəyyənləşdirmək olmur. Lakin hər halda belə bir fakt, Dərvişməhəmməd xanın ölümündən sonra I Şah Təhmasibin guya Hüseyncan adlı şəxsi Şəkiyə hökmdar təyin etməsi haqqında istər "Şəki xanlarının ixtisar üzrə tarixi" adlı əsərdə, istərəsə də "Şəki xanları və onların nəsilləri" adlı əsərdə irəli sürülmüş müddəaların uydurma və əsassız olduğunu sübut edir[14]. Tarixi hadisələri izləmək əsnasında belə bir ehtimal doğur ki, Toygün bəy Qaca-

[13] Qaladan çıxmağa cəhd etmiş 400 nəfərdən 250-si qızılbaşlar tərəfindən qətlə yetirilmiş, o cümlədən, Çərəndab sultanın mülazimi Kosa Pirqulu Dərvişməhəmməd xan xanı öldürərək, başını kəsib Şah Təhmasibin yanına aparmışdır (Bax: *Həsən bəy Rumlu*. Əhsənüt-təvarix. — Kasamonu, 2017. — səh. 553).

[14] "Şəki xanlarının ixtisar üzrə tarixi" adlı əsərdə və "Şəki xanları və onların nəsilləri" adlı əsərdə Hüseyncanın övladlarının yüzbaşı olduqları göstərilir. Bu doğrudursa, Hüseyncan özü də hakim yox, güman etmək olar ki, Nuxanın yüzbaşısı olmuşdur.

rın Şəkidəki hökmdarlığı 1554-cü ilin ortalarınadək davam etmişdir. Ona görə ki, məhz həmin ildə Osmanlı hökmdarı Sultan Süleyman Qanuni Azərbaycan ərazisinə dördüncü dəfə hərbi yürüşə başlamışdır.

Qeyd etməliyik ki Sənan paşanın rəhbərliyi ilə Osmanlı orduları həmin ildə Azərbaycanın cənub-qərb ərazilərini işğal etdilər. Bununla yanaşı, Sultan Süleyman Şirvan və Şəkini də ələ keçirməyə çalışdı. O, Şirvanşahlar nəslinə mənsub olan və Osmanlılara xidmət edən Qasım mirzəni böyük ordu ilə Dərbənd səmtindən Şirvana göndərdi. Sultan Süleymanın tapşırığı əsasında həm Krım xanının, həm də Kumuk və Qaytaq hakimlərinin himayəsinə arxalanan Qasım mirzə, qısa müddət ərzində Şamaxı yaxınlığına qədər gəlib çatdı və geniş ərazini işğal etdi. Lakin burada o, Abdulla xan Ustaclunun gərgin müqavimətinə rast gələrək geri oturdu və nəhayət, məğlubiyyətə uğradı.

Şübhəsiz ki həmin hərbi əməliyyat zamanı Şəki vilayəti heç də kənarda qalmamışdır. Biz Toygün bəy Qacarın da həmin əməliyyatın gedişində öldürülməsini güman edə bilərik. Şəki və Şirvan haqqında I Şah Təhmasibin Britaniya muzeyində saxlanılan fərmanı bu cəhətdən diqqətəlayiqdir. 1554-cü ilin iyul ayında yazılmış bu sənəddə Əbdürrəzzağın yenidən Şəki və Şirvan vilayətinə sədr təyin edilməsindən söhbət gedir. Beləliklə, məlum olur ki sünni təriqətinin tərəfdarı Qasım mirzə Osmanlıların yardımı ilə Şəki və Şirvan vilayətlərini ələ keçirdikdən sonra şiə təriqətinin təbliğinə xidmət edən sədrlik vəzifəsi həmin vilayətlərdə bütünlüklə ləğv olunmuşdur. Həmin yürüş zamanı Şirvanda şiələrə qəddarcasına divan tutulması dövrün tarixi mənbələrində xüsusilə qeyd olunmuşdur. Sədrlik vəzifəsinin yenidən bərpa olunması haqqında verilmiş bu fərman eyni halda Şəki və Şirvan uğrundakı müharibənin 1554-cü ilin ortalarında Səfəvilərin

xeyrinə sona çatdığını sübut edir. Bu hadisədən sonra dövrün tarixi mənbələrində Toygün bəyin adına bir daha təsadüf olunmur. Daha sonra isə tarixçilər Şamxal sultan Çərkəzin Şəkidə hökmdar olmasını qeyd etmişlər. Bu şəxsin həmin vəzifəyə hansı ildə təyin olunması dövrün tarixi mənbələrində dəqiq yazılmamışdır. Lakin bir sıra faktlar onun 1554-cü ilin ortalarında Şəkiyə hökmdar təyin olunduğunu sübut edir.

Bu məsələ ilə əlaqədar Şəki vilayətinin hərbi-siyasi mövqeyi xüsusilə nəzərə çatdırılmalıdır. Məlumdur ki Səfəvi dövlətinin yaranması və xüsusilə onun get-gedə güclənməsi Osmanlı sultanını xeyli təşvişə salmışdı. Osmanlılar bütün Azərbaycanı işğal etməyə və Səfəviləri zəiflətməyə çalışırdılar.

Xüsusilə, onlar Şəki və Şirvana soxulmaq üçün Krım xanlığından, Dağıstan vilayətlərinin hökmdarlarından istifadə edirdilər. Bundan başqa, Gürcüstan da Səfəvilər üçün daimi təhlükə mənbəyi hesab olunurdu. Beləliklə, Dağıstan və Gürcüstanla qonşu olan Şəki vilayətinin hərbi və siyasi cəhətdən gücləndirilməsi şimal və şimal-qərb sərhədlərində Səfəvi dövlətinin təhlükəsizliyini etibarlı surətdə təmin edə bilərdi.

Məlumdur ki Qasım mirzə macərasından sonra I Şah Təhmasib ilk növbədə həmin işi qaydaya salmalı idi. Belə bir şəraitdə Şamxal Sultan Çərkəz Şəki vilayətinin hökmdarlığı vəzifəsi üçün ən yaxşı namizəd ola bilərdi. Ona görə ki bu şəxs bir tərəfdən Səfəvilərin inanılmış sərkərdəsi və I Şah Təhmasibin yaxın qohumu idi. Çərkəzin bacısından I Şah Təhmasibin Pərixan xanım və Süleyman mirzə adlı iki övladı olmuşdu. Digər tərəfdən isə çərkəz xalqının siyasi və hərbi nümayəndəsi kimi bütün Qafqaz xalqları arasında tanınmışdı.

Şamxal Sultan Çərkəzin hökmdarlığı dövründə Şəki vilayəti Səfəvi imperiyasının qüdrətli vilayətlərindən biri sayılmışdır. Belə ki, 1568-ci ildə I Şah Təhmasib Tiflisi tutmaq istəyən Kaxetiya hökmdarı Semyona qarşı hərbi əməliyyat vəzifəsini Şəki ordusuna həvalə etmişdir. Şəki ordusu Qori yaxınlığınadək irəliləmiş və Kaxetiya orduları üzərində qələbə çalmışdır. Hərbi əməliyyat zamanı şəkililər Semyonu ələ keçirmiş və onu Səfəvi dövlətinin paytaxtı Qəzvin şəhərinə göndərmişlər. Şamxal Sultan Çərkəzin Şəki vilayətindəki hökmdarlığı I Şah Təhmasib hakimiyyətinin son dövrlərinədək davam etmişdir.

Qeyd etməliyik ki I Şah Təhmasib 1574-cü ildə iki ay ağır xəstələnmişdir. Bu zaman onun övladları arasında şahlıq taxt-tacına yiyələnmək uğrunda gərgin mübarizə başlamışdır. Həmin mübarizəyə Şamxal Sultanın bacısı uşaqları da qoşulmuşdular. Lakin I Şah Təhmasib gözlənilmədən ölümün pəncəsindən xilas olaraq hakimiyyəti daha iki il müddətində öz əlində saxlamışdır. Həmin dövrdəki tarixi hadisələrin ümumi gedişindən görünür ki, I Şah Təhmasibin ilk dəfə xəstələndiyi vaxt Şamxal Sultan Çərkəz müəyyən hərbi dəstələrin müşayiəti ilə Qəzvinə gəlmişdir. Şübhəsiz ki bu səfər onun bacısı və bacısı uşaqlarının dəvəti ilə əlaqədar olmuşdur. Hər halda Şamxal Sultan həmin səfərdən sonra həmişəlik olaraq Qəzvində qalmış və I Şah Təhmasibin öldüyü vaxt sarayda baş verən siyasi hadisələrə həlledici təsir göstərmişdir.

Belə ki, I Şah Təhmasib ölən kimi (19 aprel 1576) Şamxal Sultanın silahlı dəstələri saraya soxulmuş və şahlıq məqamının birinci namizədi olan Heydər mirzəni öldürmüşlər.

Nəticədə, hakimiyyət II İsmayıla verilmişdir. O, isə həmin xidmətlər qarşısında şahlıq möhürlərini saxlamaq vəzifəsini Şamxal Sultan Çərkəzə tapşırmışdır. Bütün bu hadisələr Sə-

fəvilərin mərkəzi hakimiyyət aparatında Şəki vilayətinin nüfuzunun xeyli gücləndiyini sübut edir.

II Şah İsmayılın qısamüddətli hakimiyyəti dövründə Şəki vilayətinin vəziyyətini ayırd etmək mümkün olmur. Bu dövrdə ümumiyyətlə mərkəzi hökumətin zəifliyi üzündən bir sıra vilayətlərdə, o cümlədən Şirvanda Səfəvilərə qarşı çıxışlar olmuşdur.

II Şah İsmayılın ölümü isə həmin çıxışları daha da gücləndirmişdir. Belə ki, Şirvanşahlar nəslindən olan şirvanlı Bürhanın oğlu Əbubəkir mirzə Osmanlı hökmdarı Sultan Murada müraciət edərək onun Şirvanı ələ keçirmək işinə yardım göstərməsini xahiş etmişdir.

Osmanlı hökmdarı Sultan Murad isə belə əlverişli fürsətdən istifadə edərək Paşa adı ilə şöhrət tapmış Mustafa paşanı 100 min nəfərlik ordu ilə Şirvana göndərmişdir. Bununla, Şəki və Gürcüstan vilayətləri işğalçılıq təhlükəsi ilə üz-üzə gəlmişdilər.

Dövrün tarixi hadisələrindən görünür ki, belə bir şəraitdə Şəki vilayəti rəhbərləri Səfəvilərin tərəfində olmuş və Osmanlıların işğalına qarşı mübarizədə Gürcüstan hökmdarları ilə əməkdaşlıq etmişlər.

Sultan Məhəmməd Xudabəndənin hakimiyyət başına keçdiyi ilk illərdə Şəki vilayətinin hökmdarı İsa xan olmuşdur. Milliyyətcə gürcü olan İsa xan uzun illər boyu Səfəvi sarayında yaşamış, islam dinini qəbul etmiş və nəhayət I Şah Təhmasibin qardaşı Sam mirzənin qızı ilə evlənmişdi. Lələ Mustafa paşanın orduları Şirvana hücum edən zaman özünün kiçik qardaşı Əli xanla birlikdə Şəki vilayəti ordusunun Osmanlılara qarşı mübarizəsinə rəhbərlik etmişdir. Lakin İsa xanın Gürcüstandakı böyük qardaşı Aleksandr həmin dövrdə Səfəvilərlə əlaqəni kəsmiş, xərac verməkdən boyun qaçırmış

və Osmanlıların tərəfinə keçmişdi[15]. Buna görə də Səfəvi ordusu Ağsu çayının sahilində Osmanlı qoşunlarını məğlub etdikdən sonra (döyüş 28 noyabr 1578-ci il tarixdə baş verib, – *Tərtibç.*) Sultan Məhəmməd Xudabəndənin oğlu Salman mirzə 20 min nəfərlik ordu ilə Tiflisə hücum etmək qərarına gəldi. Aleksandr belə ağır vəziyyətdə hiylə işlədərək bir tərəfdən Salman mirzəyə 5 min tümən nağd pul verməklə Səfəvi hökmdarını razı saldı, digər tərəfdən isə qardaşı İsa xanın Gürcüstanda qalması haqqında ondan razılıq almaqla həqiqətən də Şəki ordusunu başsız qoydu.

"Tarix-i aləmara-yi Abbasi" əsərində verilən məlumatdan görünür ki, İsa xan 1580-ci ildə Gürcüstanda öz böyük qardaşının göstərişi ilə gizlincə öldürülmüşdür.

Qeyd etməliyik ki həmin dövrdə Osmanlıların Şirvana qarşı yeni yürüşləri təşkil olunmuş və nəticədə bütün Şirvan işğal edilmişdir. Bu vəziyyət 20 ildən artıq davam etmişdir.

---

[15] Lələ Mustafa paşanın katibi Gelibolulu Əli özünün "Nüsrətnamə" əsərində göstərir ki, 5 sentyabr 1578-ci il tarixdə Aleksandr özünün üç minlik qoşunu ilə Qanıx çayını keçmiş və Şəkinin Osmanlılar tərəfindən tutulmasına yardımçı olmuşdur. Bundan sonra Aleksandrın oğlu İrakli mirzə Şəkiyə sancaqbəyi təyin edilib. Lakin sentyabrın axırlarında keçmiş Şəki ölkəsi hakiminin (Dərvişməhəmməd xanın?) Mirzə Ömər adlı oğlu bir neçə yüz nəfər piyada və süvari ilə Osmanlı qərargahına gəlib və İrakli mirzənin yerinə Şəkiyə sancaqbəyi təyin olunub (Bax: *Kırızoğlu F.* Osmanlılar'ın Kafkaz Elleri'ni fethi — Ankara, 1976. — səh. 297, 299). Mirzə Ömərin adı bundan sonra daha heç bir mənbədə çəkilmir. 15 may 1583-cü il tarixdə isə Şəkinin sancaqbəyisi Şahmir xan idi (Bax: *Kırızoğlu F.* Osmanlılar'ın Kafkaz Elleri'ni fethi — Ankara, 1976. — səh. 304). Mənbələrdə Mirzə Ömər kimi Şahmir xanın da Şəkinin keçmiş hakimlərinin nəslindən olması göstərilsə də, onun Mirzə Ömərin oğlu, yaxud qohumu olub-olmaması barədə heç bir məlumat verilmir. Şahmir xan 1606-cı ildə I Şah Abbas tərəfindən də Şəkiyə hakim təyin olunmuş və Səfəvilərin tərəfində Osmanlılara qarşı vuruşmuşdur.

Sultan Məhəmməd Xudabəndə öz hakimiyyətinin son illərində istər daxili, istərsə də xarici siyasət sahələrində bir sıra ciddi çətinliklərlə üz-üzə gəlmişdi. Bir tərəfdən ölkə daxilində silahlı qüvvələrə rəhbərlik edən bəzi tayfa başçıları şahın iradəsizliyi və zəifliyindən açıqcasına narazılıq edir, digər tərəfdən isə Osmanlılar sülh müqaviləsinin şərtləri ilə razılaşmayaraq Qarabağ vilayətinin də onlara verilməsini tələb edirdilər. Nəhayət, ustaclu və şamlu tayfalarının başçıları 1588-ci ilin sentyabr ayında Xudabəndənin 16 yaşlı oğlu Abbası böyük ordunun müşayiəti ilə Xorasandan ölkənin paytaxtı Qəzvinə gətirdilər. Beləliklə, Sultan Məhəmməd öz oğlunun xeyrinə hakimiyyətdən əl çəkmək məcburiyyətində qaldı.

I Şah Abbas hakimiyyət başına keçdikdən sonra Osmanlılarla müvəqqəti sazişə gəlmək və ordunu qaydaya salmaq üçün vaxt əldə etmək istəyirdi. Lakin onun cəhdləri müvəffəqiyyətlə nəticələnmədi. 1590-cı ildə Fərhad paşanın başçılıq etdiyi Osmanlı orduları Bağdad yaxınlığında I Şah Abbasın ordusunu əzdi. Həmin məğlubiyyətdən sonra Osmanlı sultanı daha ağır şərtlər əsasında I Şah Abbasla sülh müqaviləsi imzaladı. İranın İraqi-Əcəm, Xuzistan və Loristan vilayətlərindən başqa, Şəki, Şamaxı və Tiflisin də Osmanlılara verilməsi xüsusilə qeyd edildi. Beləliklə, Ərdəbil və Talışdan başqa, Azərbaycanın bütün vilayətlərində Osmanlıların inzibati idarə sistemi olan paşalıqlar və sancaqlıqlar meydana gəldi. Şəki vilayətinin hökmdarlığı Məhəmməd Əmin paşaya tapşırıldı. Osmanlı istilası uzun illər boyu davam etdi.

Səfəvi ordusunun qaydaya salınması tədbirləri on üç il vaxt apardı. I Şah Abbas yalnız 1603-cü ilin sentyabr ayında Azərbaycanı fəth etmək əzmində olduğunu bildirərək 15 min nəfərlik ordunun müşayiəti ilə İsfahandan Təbrizə gəldi. Fasilələrlə 1606-ci ilədək davam edən bir sıra döyüşlər nəticə-

sində Səfəvi orduları Arazı keçib Naxçıvanı, Culfanı, Ordubadı Osmanlılardan geri aldı və özünü İrəvana çatdırdı. Nəhayət, 1606-cı ilin qış fəslində I Şah Abbas Şirvan və Şəkini də Osmanlılardan geri almaq qərarına gəldi. O, Səfəvi dövlətinə pənah gətirmiş Kaxetiya çarı Aleksandrın oğlu Konstantini Şirvanın hökmdarlığı vəzifəsinə, Şəki hakimləri nəslindən olan Şahmir xanı isə Şəki vilayətinin hökmdarlığı vəzifəsinə namizəd təyin etdi. Bu təyinatdan sonra onların Gürcüstana getmələri, orada isə lazımi qüvvə topladıqdan sonra Şəki və Şirvan istiqamətində Osmanlılara qarşı yürüşə başlamaları məsləhət görüldü. Beləliklə, hər iki sərkərdə təxminən üç min nəfərlik ordu ilə Gürcüstana getdi. Lakin burada istər Konstantinin atası Aleksandr, istərsə də, onun qardaşı Georgi hərbi əməliyyatın başlanması işinə maneçilik törədir və cürbəcür bəhanələrə əl atırdılar. Nəhayət, Konstantin Şahmir xanın yardımı ilə öz atası və qardaşını öldürərək Kaxetiyada müstəqil hökmdar oldu. Beləliklə, siyasi maneələr aradan qaldırıldıqdan sonra Şəki və Şirvan uğrunda geniş əməliyyat başlandı. Şahmir xanın rəhbərliyi altında olan hərbi hissələr birinci olaraq Şəki vilayəti ərazisinə qədəm qoydu. Şəkinin Osmanlı hökmdarı Məhəmməd Əmin paşanın orduları həmin hissələrlə ilk döyüşdə dərhal məğlubiyyətə uğrayıb Qəbələ ətrafına geri çəkildi. Şəki ordusu burada Osmanlılara ikinci zərbə endirdi.

Döyüş zamanı düşmən çoxlu canlı qüvvə itirdi. Məhəmməd Əmin paşa döyüş meydanında həlak oldu. Öz canlarını birtəhər xilas edə bilən Osmanlılar isə qaçıb Qəbələ qalasına sığındılar. Şahmir xanın hərbi dəstələri qalanı dərhal mühasirəyə aldılar. Belə bir şəraitdə Şirvan hökmdarı Mahmud paşa Şamaxıdakı qüvvələrini Qəbələyə çatdırmaq və şəkililərin mühasirə xəttini yarmaq qərarına gəldi. O, Şəkiyə gələn

zaman Ağsu çayının yaxınlığında Konstantinin başçılıq etdiyi qızılbaş və gürcü hissələri ilə rastlaşdı.

Bu məcburi döyüşdə Osmanlılar məğlub olub Şamaxı qalasına geri çəkildilər. Nəticədə, Şahmir xanın rəhbərliyi altında olan Şəki ordusu asanlıqla Qəbələ qalasını ələ keçirdi. Bu qələbə Şəki vilayətində Osmanlı paşalarının illər boyu davam etmiş dəhşətli zülmünə və hüdudsuz talançılığına son qoydu.

Şəkililər öz həmyerliləri Şahmir xana və onun silahlı dəstələrinə hərtərəfli yardım etdilər. Məhz həmin yardım sayəsində çox qısa müddət ərzində Şəki hökmdarının siyasi nüfuzu və vilayət ordusunun döyüş qüdrəti xeyli artdı. Bunu həmin dövrün bir sıra hadisələri təsdiq etmişdir. Məsələn, Konstantin Şamaxıda olarkən Gürcüstanda yerli feodalların ona qarşı qiyam qaldırmasını eşitdikdə dərhal Şahmir xandan Şəki ordusunun yardım göstərməsini xahiş etdi. Həmin xahişlə əlaqədar olaraq Şəki ordusu Şahmir xanın şəxsi rəhbərliyi altında Kaxetiyaya yürüş etdi. Burada Şahmir xan, Konstantinə qarşı qiyamın məhz I Şah Abbasın rəyi əsasında təşkil olunmasını duyduqdan sonra Şəki ordusunu dərhal Şəkiyə geri qaytardı. Məlumdur ki I Şah Abbas Şəki vilayətinin hərbi və siyasi qüdrətləndiyi bir şəraitdə daha Kaxetiyada öz ata və qardaşını öldürməklə kütlənin nifrətini qazanan Konstantinə arxalanmaq istəmirdi.

Dövrün tarixi hadisələri göstərir ki, Konstantin öldürüldükdən sonra I Şah Abbas istər Şirvan, istərsə də, Gürcüstanın müqəddəratı haqqında məhz Şəki hökmdarı ilə məsləhətləşmişdir. Bu zaman vilayətin sərhədləri genişlənmiş,

Qax, Meşəbaşı, Beşpara, Danqı[16] və başqa mahallar Şəkinin tabeliyində olmuşdur.

"Tarixi-Vəhid" adlı əsərindən və II Şah Abbasın 1651-ci il tarixli fərmanlarından məlum olur ki, Danqı mahalı XVII əsrin ortalarınadək Şəki vilayətinin tabeliyində qalmışdır. I Şah Abbasın hakimiyyəti dövründə ilk vaxtlarda danqılı Məlik Müzəffər, sonralarda isə Məlik Yusif həmin mahalda hökmranlıq etmişlər. I Şah Abbas öldükdən sonra onun oğlu I Şah Səfi Danqı mahalını Şəki vilayətindən ayırmış və özünün yaxın adamlarından Şahverdi sultanı həmin mahalın hökmdarı təyin etmişdir. Şəki vilayətinə tabe olan Qax və Beşpara mahallarında isə həmin dövrdə Məlik Qaraca adlı bir şəxs hökmdar olmuşdur. Ehtimal ki "Şəki xanlarının ixtisar üzrə tarixi" adlı əsərin əvvəlində Nuxu və Kiş hökmdarları haqqında uydurulmuş Qara Keşiş əfsanəsi də əslində həmin Məlik Qaracanın adı ilə əlaqədar meydana gəlmişdir.

Şəki vilayəti və onun tabeliyindəki mahallardan Osmanlıların qovulması bütün Qafqazda Səfəvilər üçün əlverişli şərait yaratdı. Qızılbaş ordular ilk növbədə Gəncə şəhərini, daha sonra Bakı, Şamaxı və Dərbəndi Osmanlı işğalçılarından təmizlədilər. Şəki və Şirvanın tükənməz sərvətləri Səfəvilərin sərəncamına keçdi. I Şah Abbas həmin vilayətlərin ən dəyərli məhsulu sayılan barama məhsulu üzərində dövlət inhisarı qoydu.

I Şah Səfinin hakimiyyəti dövrünədək davam edən həmin inhisar qaydasına görə, istər Şəki, istərsə də Şirvanda yetişdirilən barama məhsulu və ya hazırlanan ipək yalnız dövlətə satılmalı idi. Tacir və alverçilər barama və ya ipəyi ayrı-ayrı

---

[16]*Danqı* – hal-hazırda Qax rayonu ərazisində yerləşən Tanqıt kəndi olmasını ehtimal edirik.

adamlardan deyil, məhz müvafiq hökumət orqanından satın ala bilərdilər.

I Şah Abbasın həmin tədbiri Osmanlıları Şəki və Şirvan ipəyindən bütünlüklə məhrum etdi. Buna görə də onlar 1609 – 1610-cu illərdə, daha sonra isə 1611 – 1612-ci illərdə Şəki və Şirvanı ələ keçirmək üçün yeni cəhdlər etdilər. Lakin bu cəhdlərin müsbət nəticəsi olmadı. 1612-ci ildə Səfəvilərlə Osmanlılar arasında yeni sülh müqaviləsi bağlandı. Bununla, Osmanlılar ildə yüz dəvə yükü Şəki və Şirvan ipəyi almaq şərti ilə öz ordularını Azərbaycanın qədim sərhədləri arxasına geri çəkməyə razılıq verdilər. Lakin Osmanlılar qarşısındakı bu öhdəlik ödənilmədi. Uzun mübahisələr və çəkişmələrdən sonra Osmanlılar 1617-ci ildə həmin öhdəliyin yarıbayarı azaldılmasına – ildə 50 dəvə yükü ipək olmasına razılaşdılar. Beləliklə, yeni müqavilə bağlandı[17]. Lakin bu dəfə də şəkililər və şirvanlılar Osmanlılara ipək vermədilər. Bütün bu tarixi faktlar I Şah Abbasın dövründə Şəki vilayətinin iqtisadi və siyasi qüdrətini sübut edir.

“Tarix-i aləmara-yi Abbasi” əsərində verilən məlumatdan görünür ki, I Şah Abbas Osmanlılarla üçüncü dəfə sülh müqaviləsi bağladıqdan sonra 1617-ci ilin payızında Şəki vilayətinə tabe olan Danqı qışlağına gəlmişdir. Burda onun üçün xüsusi yaşayış binaları tikilmişdir. O, 1618-ci ilin yazına qədər bir neçə ay müddətində həmin qışlaqda qalmışdır. Bu dövrdə Şəki vilayətinin hakimliyi vəzifəsi cəyirli tayfasına mənsub olan Məhəmməd sultana tapşırılmışdır. Bu adam I Şah Abbas hakimiyyətinin sonunadək (1629-cu ilədək) Şəki vilayətində hökmdar olmuşdur.

[17] Burada Mərənd müqaviləsindən söhbət gedir. “Tarixi-Aləmarayi-Abbasi” əsərində bu müqavilənin 1617-ci ildə bağlanması göstərilsə də, müasir dövr tarixşünaslığında arxiv materiallarına əsasən Mərənd müqaviləsinin 1618-ci ildə bağlanması təsdiqlənmişdir.

I Şah Abbasdan sonra onun oğlu I Şah Səfi (1629–1642) Şəki vilayətinin hakimliyi vəzifəsini Aslan sultan adlı şəxsə tapşırmışdır. Azərbaycan SSR Elmlər Akademiyasının Respublika Əlyazmaları fondunda I Şah Səfinin Şəki haqqında verdiyi iki fərman mühafizə olunur. 1633-cü ildə yazılmış bu fərmanlar vilayətin həmin dövrü haqqında müəyyən təsəvvür yaradır. Yeri gəlmişkən qeyd etməliyik ki, həmin fərmanların biri 1965-ci ildə çapdan çıxmış "Orta əsr Azərbaycan tarixinə dair fars dillində sənədlər" adlı məcmuəyə daxil edilmişdir. Bu fərmanların məzmunu Şəki hakimi Aslan sultanın qəddarlığını, vilayətdə kəndli kütlələrinin hökmdarlar tərəfindən rəhmsizcəsinə soyulmasını, əhalinin feodal əsarətinə qarşı mübarizəsini sübut edir. Birinci fərmandan görünür ki, Aslan sultan Şəkinin qışlaqlarını öz sərəncamına keçirərək vilayət maldarlarının həmin qışlaqlardan istifadə etmələrinə imkan vermirmiş. O, qışlaq yerlərini vilayət sərhədlərindən kənardakı köçərilərin ixtiyarına verir və bu yol ilə özü üçün "qışlaqbaşı" vergisi toplayırmış.

İkinci fərmanın məzmunundan isə belə bir nəticə çıxır ki, Aslan sultan vilayət kəndlilərinin sərəncamına verdiyi torpaq sahələrinin yarısını kəndlilərin əli ilə özü üçün əkdirirmiş. Eyni zamanda o, həmin istismar növü ilə qənaətlənməyərək özü üçün əkdirdiyi sahələr hesabına da kəndlilərdən "malucəhat" vergisi alırmış. Belə dözülməz vəziyyət qarşısında, nəhayət, 1633-cü ilin oktyabr ayında Şəki vilayətinin əkinçiləri və maldarları I Şah Səfinin yanına ayrı-ayrı nümayəndə heyətləri göndərmiş və Aslan sultanın qəddarlığı haqqında ona şikayət etmişlər. Həmin şikayətlər nəticəsində I Şah Səfi Şəki vilayəti ilə qonşu olan Şirvanın bəylərbəyisi Fərrux xanın adına iki fərman göndərmişdir. Birinci fərmanda Şirvan bəylərbəyisinə göstəriş verilmişdir ki, o, öz vəkillərinin köməyi ilə Şəki qışlaqlarını yoxlasın, həmin qışlaqlarda

kənar adamların qışlaması sübut olunduğu təqdirdə Şəki hakimi ilə bu haqda danışığa girsin. Beləliklə, qışlaqların vilayət maldarlarına aid olduğunu onun nəzərinə çatdırsın. İkinci fərmanda yenə də ilk növbədə məsələnin Şirvan bəylərbəyisi vəkilləri tərəfindən yoxlanılmasına göstəriş verilmişdir. Sonra fərmanda qeyd olunmuşdur ki, Şəki əkinçilərinin şikayəti düzgün olduğu təqdirdə Şirvan bəylərbəyisi Şəki hakimi ilə danışıqlar aparsın. Torpaq sahələri əkinçilərin sərəncamına verilsin və Aslan sultan həmin sahələr hesabına "malucəhat" vergisi almaqla kifayətlənsin.

Bu fərmanlar ilk növbədə Şəkidə feodal əsarətinin dözülməzliyini və vilayət kəndlilərinin zülmkarlara qarşı mütəşəkkil tədbirlərə əl atmaq təşəbbüsünü göstərir. Digər tərəfdən həmin fərmanlardan məlum olur ki, Səfəvilər Şirvanı Osmanlıların işğalından azad etdikdən sonra öz yazılarında Şəkini ölkə adlandırsalar da, əslində, vilayəti Şirvan hökmdarlarına tabe vəziyyətə salmaq siyasəti yeritmişlər.

Qeyd etməliyik ki bu siyasət mərkəzi dövlət aparatında şəkililərin nüfuzunu heç də zəiflətməmişdir. I Şah Səfinin hakimiyyəti dövründə böyük nüfuz qazanmış şəkililər sırasında Davud bəy və onun qardaşları haqqında qısa məlumat vermək lazım gəlir.

Məhəmməd Yusifin "Zeyl-i tarix-i aləm ara-yi Abbasi" əsərindən görünür ki, şəkili Davud bəy hələ I Şah Abbasın hakimiyyəti dövründə Səfəvilərin mərkəzi dövlət aparatında böyük nüfuz qazanmış və "Mötəmədül-xəvass" (xüsusi adamların ən etibarlısı) ləqəbini almışdır.

I Şah Abbas öləndən sonra o, I Şah Səfinin hakimiyyət başına keçməsində böyük rol oynamışdır. 1639-cu ilin yanvar ayında I Şah Səfi Mazandarana səfər edən zaman Davud bəyi şah rikabxanasının ən yüksək vəzifəli xidmətkarı təyin et-

mişdir. Qeyd etməliyik ki o dövrdə rikabxana işçiləri şahın ən yaxın və məhrəm adamları hesab olunurdular. Bu işçilər daim şahın yanında keşik çəkir, gecələr və gündüzlər onu qoruyur, şahın xüsusi əşyalarını, o cümlədən libaslarını və yatağını mühafizə edir, şahın bütün şəxsi həyatı üçün məsuliyyət daşıyırdılar. Məhəmməd Məsumun "Tarixi-Vəhid" adlı əsərindən görünür ki, Davud bəy I Şah Səfinin oğlu II Şah Abbasın hakimiyyəti dövründə də həmin vəzifədə çalışmış və həmin vəzifədə çalışarkən – 1661-ci ildə, İsfahan şəhərində vəfat etmişdir. II Şah Abbasın göstərişi ilə onun nəşi Məşhəd şəhərinə aparılmış və şiələrin imamı Rzanın məzarı nəzdindəki xüsusi türbədə dəfn edilmişdir.

Davud bəyin qardaşlarından biri – Əvəz bəy, I Şah Səfinin hakimiyyəti dövründə vəzir təyin edilərək Rəşt şəhərinə göndərilmişdir. II Şah Abbasın hakimiyyəti dövründə isə o, Lar şəhərində vəzir vəzifəsində işləmişdir. Əvəz bəy qocaldıqda onun oğlu Allahverdi bəy Lar şəhərinə vəzir təyin olunmuşdur. Qeyd etməliyik ki Allahverdi bəy həmin vəzifəyə təyin olunmazdan əvvəl Kəskərin hakimi idi. O, Kəskərdən Lara köçürüldükdən sonra II Şah Abbas Davud bəyin bacısı oğlu Allahqulu bəyi Kəskərə hakim təyin etmişdir.

Nəhayət, Davud bəyin digər qardaşı Səfiqulu uzun illər boyu Şəki vilayətinin məlikliyi vəzifəsində çalışmışdır. O, öldükdən sonra isə övladları uzun illər boyu həmin vəzifədə işləmişlər.

Beləliklə, bir ailə misalında şəklilərin Səfəvi dövlət aparatında nə qədər möhkəm mövqe tutmalarını aydın görmək olur.

1642-ci ilin may ayında I Şah Səfi ölür və sarayın yüksək rütbəli qulluqçuları onun 12 yaşlı oğlunu II Abbas adı ilə tax-

ta çıxarırılar. "Tarixi-Vəhid" əsərində həmin dövrün hadisələri haqqında verilən məlumatdan görünür ki, o vaxt hökumət işlərini əsas etibarilə şahın müəllimi Haqnəzər bəy, rikabxana başçısı Davud bəy və etimadüddövlə Mirzə Tağı idarə edirmişlər. 1645-ci ilin oktyabr ayında Mirzə Tağını öldürürlər. Davud bəy və Haqnəzər bəy isə həmin hadisədən istifadə edərək əsas etibarilə saray xadimlərindən ibarət olan sui-qəsd iştirakçılarına divan tuturlar və beləliklə, öz siyasi mövqelərini daha da möhkəmləndirirlər. Nəticədə, şəkili Davud bəy Səfəvi dövlət aparatında ikinci mühüm siyasi şəxsiyyətə çevrilir. Lakin bu hadisə heç də Şəkidə kəndli kütlələrini zülm və əsarətdən xilas etmir. Həmin dövrün yazılı sənədlərində Şəkini ölkə adlandırırlar. Lakin ayrı-ayrı hadisələr həmin dövrdə Şəkinin, əslində Şirvan və Qarabağa tabe bir vilayət olduğunu göstərir.

II Şah Abbasın hakimiyyəti dövründə Şəki vilayəti haqqında verilmiş fərmanların yeddisi bizə qədər gəlib çatmışdır. Bu fərmanlar vilayətə aid bir sıra ictimai, iqtisadi və siyasi məsələləri aydınlaşdırmağa yardım edir. 1648-ci ilin fevral ayında yazılmış iki fərmandan məlum olur ki, Aslan sultandan sonra Abbasqulu sultan adlı bir şəxs Şəki vilayətinə hakim təyin olunmuşdur. Keçmiş hökmdar kimi o da vilayət əhalisini soyub-talamış, münbit sahələri özü üçün əkdirmiş və qışlaqları öz sərəncamına keçirmişdir. Abbasqulu sultanın qəddarlığı, nəhayət, elə bir həddə çatmışdır ki, vilayətin həm kəndliləri, həm də kəndxudaları şaha şikayət etmək məcburiyyətində qalmışlar. Onlar şahın yanına ayrı-ayrı nümayəndə heyətləri göndərmişlər. Kəndlilərin nümayəndə heyəti dövlət vergiləri haqqında ümumi qaydaların vilayət hakimləri tərəfindən yenə də pozulmasını və cürbəcür bəhanələr altında əhalinin var-yoxdan çıxarılmasını bildirmişdir. Kəndxudaların nümayəndə heyəti isə qeyd etmişdir ki, Aslan sul-

tan və Abbasqulu sultan ayrı-ayrı qaydadankənar vergilər adı ilə son illər ərzində vilayət kəndxudalarından beş min tümənə qədər əlavə pul almışlar. Məlumdur ki kəndxudaların əli ilə hakimlərə ödənilmiş həmin pullar da məhz Şəki kəndlilərindən toplanmışdır. Bu həmin dövrdə müxtəlif vergilərdən başqa Şəki kəndlilərindən 330 tümən əlavə pul toplanmasını sübut edir.

Tümən deyilən pul vahidinin o dövrdəki alıcılıq qabiliyyəti haqqında hörmətli oxucularımızda kiçik təsəvvür yaratmaq məqsədilə əlavə etmək istəyirdik ki, həmin dövrdə Nuxu, Kiş və ya digər kəndin məliyinə ildə cəmi bir tümən maaş verilirdi.

Öz atası kimi II Şah Abbas da həmin şikayətlər qarşısında həm Şəki vilayətinin hakimi Abbasqulu sultanın adına, həm də Şirvanın bəylərbəyisi Xosrov xanın adına fərmanlar göndərmişdir. Abbasqulu sultana göstəriş vermişdir ki, o, bir daha kəndlilərdən əlavə pullar toplamasın. Xosrov xan isə Şəki kəndxudalarının şikayətini yoxlamağa və bu haqda ədalətli qərar çıxartmağa məcbur edilmişdir.

Lakin I Şah Səfinin müvafiq fərmanları kimi bu göstərişlər də formal xarakter daşımışdır. Ona görə ki əslində, şahın özü ilə əlbir olan və ona pay göndərən Abbasqulu sultan vilayətdə əhalini yenə də qəddarcasına soyub talamışdır. Həmin hadisədən sonrakı dövrlərin sənədləri bu müddəanı kamilən təsdiq edir. Məsələn, 1650-ci ilin dekabr ayında Şəki maldarları vilayət qışlaqlarının Abbasqulu sultan tərəfindən kənar adamlara icarəyə verilməsi haqqında II Şah Abbasa şikayət etmişlər. Həmin tarixdə yazılmış ayrı bir fərmandan məlum olur ki, Danqı, Qax və Meşəbaşı mahallarının kəndliləri isə Şəki hakiminə əlavə pul ödəməkdən boyun qaçırmışlar.

Görünür, mərkəzi hökumət, əslində, Şəki vilayəti kəndlilərindən təkcə ayrı-ayrı vergilər toplamaq deyil, həm də ümu-

mi məbləği qabaqcadan müəyyən edilən nağd pullar da alırmış. "İxracat" və "mədədxərc" adları altında yığılan həmin pulların ümumi həcmi haqqında vilayətin hakiminə qabaqcadan xəbərdarlıq olunurmuş. Hakim isə həmin hesaba hər bir kənd əhalisinin nə qədər pul verməli olduğunu müəyyənləşdirir, kəndlərin məlikləri və ya ağsaqqallarını həmin pulu vaxtlı-vaxtında əhalidən toplayıb ödəməyə vəzifədar edirmiş.

Şəki ağsaqqallarının şikayəti əsasında Şirvan bəylərbəyisi Xosrov xanın adına göndərilən dekabr 1650-ci il tarixli fərmandan aydın olur ki, Danqı, Qax və Meşəbaşı mahallarının kəndlilərindən əlavə pul toplaya bilməyən Şəki hakimi həmin mahalların payına düşən hissəni də əlavə mükəlləfiyyət şəklində Şəki əhalisindən toplamışdır. Soyğunçuluğun belə qəddar növləri, əlavə vergilər və onların üzərinə artırılan yeni əlavələr kəndliləri tam acınacaqlı və yoxsul bir vəziyyətə salırdı. Onların bir çoxu hətta öz doğma yurdundan əl çəkir və vilayətdən baş götürüb qaçmağa məcbur olurdu. Həmin dövrə aid digər üç fərmanda ilk dəfə olaraq Nuxu, Kiş və Kəşərənd (Şəkərənd, ya Şəki) kəndlərinin adı çəkilmişdir. Bu fərmanlardan məlum olur ki, qeyd olunan kəndlərin məlikliyi vəzifəsi hələ I Şah Abbasın hakimiyyəti dövründə Davud bəyə, sonra isə onun qardaşı Səfiquluya və əmisi oğlu Baydar bəyə tapşırılmışdır.

Şübhəsiz ki Şəki vilayətindəki həmin kəndlərin tarixinə bir çoxları maraq göstərə bilərlər. Nuxunun tarixi isə xüsusilə maraqlıdır. Ona görə ki bu yerin adı XI əsr şairi Qətran Təbrizinin əsərində çəkilmişdir[18]. Qeyd etməliyik ki keçmiş-

[18] Əslində, Qətran Təbrizidə yalnız cəmi bir dəfə "Nuxa ətrafında görüşək" ifadəsi içində "nuxa" sözü işlədilmişdir və bunun hansısa yaşayış yerinin adı olub-olmaması, yaxud başqa məna kəsb etməsi təsdiqini tapmır.

də bəziləri bu haqda ətraflı tədqiqat aparmadan Nuxu adının meydana gəlməsini Cəfərqulu xanın Şəkiyə köçməsi ilə əlaqələndirməyə və Nuxu sözünün Novxoy (yeni Xoy) olduğunu əsaslandırmağa çalışmışlar. Buna görə də həmin məsələlər haqqında qısa izahat verilməsi lazım gəlir. "Tarixi rövzətüs-səfaye nasiri" və "Tarix və coğrafiye darüssəltəneyi Təbriz" əsərində verilən məlumatlardan görünür ki, Cəfərqulu xan Dünbülü əslində təbrizli olmuşdur. Qacarlar sülaləsinə mənsub Ağaməhəmməd şahın hakimiyyətinin sonu və Fətəli şahın hakimiyyətinin ilk dövrlərində o, Azərbaycanın bəylərbəyi vəzifəsində çalışmışdır. Məhz həmin vəzifədən götürüldükdən sonra Cəfərqulu xan İran hökumətinə qarşı mübarizəyə başlayır, öz qardaşı Hüseyn xanın orduları ilə bir neçə dəfə döyüşür və nəhayət məğlubiyyətə uğrayaraq Bəyazidə geri çəkilir. Hüseyn xan öldükdən sonra o, Azərbaycana qayıdaraq Xoy, Salmas və Mərənd şəhərlərini yenidən ələ keçirir.

Lakin qısa müddətdən sonra o, Fətəli şahın oğlu Abbas mirzənin qoşunları ilə üz-üzə gəlir. Bir sıra şiddətli döyüşlər nəticəsində nəhayət, Cəfərqulu xan məğlub olur, özünün neçə min nəfərdən ibarət tərəfdarı ilə birlikdə Şəki vilayətinə köçür, Nuxada daimi məskən salır və 1814-cü ildə burada ölür. Beləliklə, aydın olur ki, Nuxu adı heç də həmin hadisə nəticəsində meydana gəlməmişdir. Əslində, həmin hadisə Nuxuda təsərrüfatın inkişafına, şəhər həyatının canlanması və genişlənməsinə xeyli yardım etmişdir. Şübhəsiz ki Şəki dialekti ilə Təbriz dialekti arasındakı yaxınlıq, hər iki şəhərdə bir sıra qaydalar, adət və ənənələrin, hətta bişirilən xörəklər və şirniyyatların belə bir-birinə oxşarlığı qeyd olunan hadisənin məhsuludur.

Abbasqulu sultanın Şəkidə neçə il hökmdarlıq etdiyi dəqiq surətdə məlum deyil. Dövrün tarixi sənədlərindən görünür ki, Abbasqulu sultana qarşı kütləvi narazılıqların artdığı

1650-ci illərdə Davud bəyin qardaşı Səfiqulu bütün Şəki vilayətinə məlik təyin edilmişdir. Həmin təyinatdan sonra ona Şəkərənd (Şəkrənd ya Şəkri) kəndinin vergiləri hesabına ildə 14 tümən məbləğində maaş təyin olunmuşdur. Səfiqulu təxminən, 15 il müddətdə qeyd olunan vəzifədə qalmışdır. Lakin Davud bəyin ölümündən bir neçə il sonra Şirvan bəylərbəyisi müxtəlif bəhanələrlə Səfiqulunu vəzifədən kənar etməyə çalışmışdır. Nəhayət, II Şah Abbasın hakimiyyətinin son dövrlərində Səfiqulu Şəki vilayətinin məlikliyi vəzifəsindən götürülmüş, onun bütün sərvət və əmlakı isə Şirvan bəylərbəyisi tərəfindən müsadirə olunmuşdur. Şah Sultan Hüseynin 1702-ci il noyabr tarixli fərmanında həmin məsələ haqqında verilən izahatdan aydın olur ki, o dövrdə Şəkərənd (Şəkrənd ya Şəkri) kənd əhalisindən dövlət vergiləri hesabına həm pul, həm də əkinçilik məhsulları, həm də barama, ya ipək toplanırmış. Barama, ya ipəyin miqdarı isə "koma" adlanan vahidlə ölçülürdü. Şübhəsiz ki həmin qaydalar vilayətin digər kəndlərində də tətbiq olunurmuş. Səfiqulu vəzifədən götürüldükdən sonra Şirvan bəylərbəyisi ilə əlbir olan Həsən adlı bir şəxsi Şəki vilayətinə məlik təyin edirlər. Bu zaman II Şah Abbas ölür və onun oğlu II Şah Səfi (1667–1694) hakimiyyət başına keçir. Qeyd etməliyik ki bu adam özünü sonralar Şah Süleyman adlandırmışdır.

II Şah Səfi (Şah Süleyman) Şəki vilayətində kütlələrin həyəcanını yatırmaq məqsədilə bir sıra tədbirlərə əl atır. O, Məlik Səfiqulunun təqsirsiz olduğunu bildirir. Həmin şəxsin sərvət və əmlakının geri qaytarılması haqqında göstəriş verir. Məlik Səfiqulunun böyük oğlu Məhəmməd Bağırı isə İsfahana aparır və sonralar sarayda rikabdarlıq vəzifəsini ona tapşırır. Daha sonra Şəkinin hakimini dəyişərək Allahqulu sultanı vilayətə hökmdar təyin edir.

Şəki vilayətinin vəziri Mirzə Kamranın şikayəti əsasında II Şah Səfinin verdiyi 1668-ci il aprel tarixli fərman tarix elmi üçün xüsusilə diqqətəlayiqdir. Həmin fərmandan görünür ki, Şəki əhalisi 14 il müddətində Mirzə Kamrana vəzirlik haqqı ödəməkdən boyun qaçırmışdır. Mirzə Kamran həmin məsələ ilə bağlı dəfələrlə Şirvan bəylərbəyisinə şikayət etmişdir. Nəhayət, II Şah Səfi hakimiyyət başına keçdikdən sonra Mirzə Kamran bir daha bu barədə məsələ qaldırmışdır. II Şah Səfi şəkililəri razı salmaq məqsədilə ümumiyyətlə, vilayətdə vəzirlik haqqının ləğv olunması barədə sərəncam vermişdir. Fərmandan məlum olur ki, 14 il müddətində vəzirlik haqqı adı ilə Şəki əhalisindən 980 tümən pul toplanılmalı imiş. Bu o deməkdir ki, Şəki əhalisi ildə 70 tümən vəzirlik haqqı ödəyirmiş.

Məlik Həsənin vəziyyəti məsələsinə gəldikdə qeyd etməliyik ki, Şirvan bəylərbəyiləri tərəfindən himayə olunan bu şəxs uzun illər boyu Şəki vilayətinin məliyi olmuş və əhalini soyub talamışdır. II Şah Səfinin hakimiyyətinin son dövrlərində Şəkinin keçmiş məliyi Səfiqulunun kiçik oğlu Səfərqulu həm şəkililərin, həm də saray rikabxanasında qulluq edən qardaşı Məhəmməd Bağır bəyin yardımı ilə vilayətdə məlikik vəzifəsini ələ keçirməyə çalışır. Nəticədə, 1691-ci ilin aprel ayında məlik Həsən vəzifədən kənar edilir və Səfərqulu Şəki vilayətinə məlik təyin olunur. Lakin həmin hadisədən 7–8 il sonra Səfərqulu ölür və Həsən saray işçilərinə rüşvət vermək yolu ilə vilayətin məlikliyi vəzifəsini yenidən ələ keçirir.

II Şah Səfidən sonra hakimiyyət başına keçmiş Şah Sultan Hüseynin (1694–1722) 1701-ci il avqust tarixli fərmanından görünür ki, Həsən ikinci dəfə məliklik vəzifəsinə təyin olunduqdan sonra Şəki əhalisinə qəddarcasına divan tutmuş və bir il ərzində vilayət kəndlilərindən üç min tümən pul topla-

mışdır. Bu qəddarlıq və soyğunçuluq qarşısında davam gətirə bilməyən kəndli ailələrinin bir çoxu öz doğma yurdlarından didərgin düşmüş, Gürcüstan və Qarabağ vilayətlərinə qaçmışdır. Nəhayət, vilayətin ağsaqqalları Şah Sultan Hüseynin yanına öz nümayəndələrini göndərərək Məlik Həsənin vəzifədən götürülməsini, Şəkinin məlikliyi vəzifəsinin Səfərqulunun oğlu Məhəmmədxan bəyə tapşırılmasını xahiş etmişlər. Şah Sultan Hüseyn isə Şəki əhalisindən 500 ədəd əşrəfi (qızıl sikkə) peşkəş və yüz tümən iltizam pulu alınması şərti ilə həmin xahişi qəbul etmişdir. O, eyni zamanda Məlik Həsənin soyğunçuluğunu yoxlamaq haqqında, daha dəqiq desək, Məlik Həsənin topladığı pulları geri almaq və onları xəzinəyə göndərmək haqqında Qarabağın bəylərbəyisinə sərəncam vermişdir.

Dövrümüzədək gəlib çatmış tarixi sənədlərdən görünür ki, 1700-cü ilin aprel ayında Səfəvi dövlətinin yüksək divan işçilərindən Mirzə Əliyar adlı bir şəxs xüsusi tapşırıqla Şəkiyə göndərilmişdir. Şəkidə kütləvi narazılığın qarşısını almağa vəzifədar olan bu şəxs vilayətin keçmiş məliyi Həsəni həbsə alaraq mühafizə dəstəsinin müşayiəti ilə onu Qarabağ bəylərbəyisinin sərəncamına göndərmişdir. Bununla Şəkidə Məhəmmədxan bəyin hökmranlığı üçün əlverişli şərait yaranmışdır. Bu hadisədən sonra Məhəmmədxan bəy uzun illər boyu Şəki vilayətinin məliyi olmuşdur. O, öldükdən sonra böyük oğlu Əlimərdan bəy II Şah Təhmasibin hakimiyyəti dövrünədək həmin vəzifədə qalmışdır.

İran Səfəvi dövlətinin istər siyasi, istərsə də iqtisadi sahələrdə tənəzzülə uğradığı bu dövrdə Şəki vilayəti əhalisi çox ağır vəziyyətə düşmüşdür. Mərkəzi hökumət məmurları, Şirvan və Qarabağ bəylərbəyiləri, Osmanlılar tərəfindən himayə olunan Şirvan və Dağıstan feodalları Şəki vilayəti əhalisini soyur, talayır və var-yoxdan çıxarırdılar. Həmin dövrün mü-

əllifi İsa Həsən Kəlaliyan yazır ki, Osmanlılar tərəfindən himayə olunan ərəşli Əli Sultan 1712-ci ildə Şəkiyə hücum etdi. Bu hücum nəticəsində şəkililərin bir çoxu əsir alındı, vilayət qarət edildi, xeyli mal-qara aparıldı. Bu hadisədən sonra Əli Sultanın silahlı dəstələri yenə də hər il Kür çayının hər iki sahilində yerləşən mahallara, o cümlədən Şəki və Qəbələyə hücum edir, kənd və yaşayış məntəqələrini dağıdırdılar. Yerli əhali öz həyatını qorumaq üçün yaşayış məskənlərindən baş götürüb qaçır, dağlarda və meşələrdə gizlənirdilər.

Azərbaycan SSR Elmlər Akademiyası Respublika Əlyazmalar fondunda mühafizə olunan tarixi sənədlərdən biri 1733-cü ilin əvvəllərində Şəki vilayətinin dağıstanlı Surxab xana (Surxay xan? – *Tərtibç.*) tabe olduğunu sübut edir. Bu sənəddən görünür ki, 1733-cü ilin fevral ayında Surxab xan Şəkidə olmuşdur. Bu zaman Əlimərdan bəy və Məlik Səfiqulunun digər övladları Şəkiyə gələrək onunla görüşmüşlər. Surxab xan həmin görüşdən sonra Səfiqulunun bütün övladlarını bağışlamış və vergilərdən azad etmişdir. Həmin faktlardan belə nəticəyə gəlmək olur ki, Surxab xan Şəkini hərbi əməliyyat yolu ilə fəth etmişdir. Bu hadisə nəticəsində Əlimərdan bəy öz adamları ilə birlikdə geri çəkilmiş və yalnız Surxabla sazişə gəldikdən sonra yenidən Şəkiyə qayıtmışdır. Həmin hadisədən təxminən iki il sonra – İran qoşunları Şəkini işğal edən zaman, Nadir şahın fərmanı əsasında Əlimərdan bəy yenidən Şəkinin məliyi təyin edilmişdir.

1737-ci ilin aprel ayında Əlimərdan bəy ölür. Bu zaman Nadir şah Qəndəhar şəhərini fəth etməyə çalışırdı. Şirvanın bəylərbəyisi Sərdar xan ona məktub göndərir və xahiş edir ki, Şəki vilayətinin məlikliyi vəzifəsi Əlimərdan bəyin qardaşı Nəcəfquluya tapşırılsın. Nadir şah bu xahişi qəbul edir. Beləliklə, Nəcəfqulunun Şəkiyə məlik təyin olunması haqqında fərman verilir.

Bu dövrdə Azərbaycanın şimal vilayətlərində, o cümlədən Şəkidə İran əsarətinə qarşı kütləvi çıxışlar genişlənirdi. Şəki üsyançılarına Hacı Çələbi başçılıq edirdi. Nadir şahın orduları isə bu çıxışlar qarşısında aciz qalmışdı. 1738-ci ilin yay fəslində üsyançılar Nadir şahın cəza dəstələrini darmadağın etdilər və onun qardaşı İbrahim xanı öldürdülər. Bu hadisədən sonra Şəki üsyançıları Məlik Nəcəfqulunun əleyhinə daha fəal mübarizəyə başladılar. Onlar ilk növbədə, Nadir şahın yanına nümayəndə göndərərək Məlik Nəcəfqulunun acgözlüyü, qəddarlığı və talançılığından şikayət etdilər. Şəkidə vəziyyəti sakitləşdirməyə çalışan Nadir şah həmin şikayətlərlə əlaqədar olaraq üsyançıların başçısı Hacı Çələbini vilayətə vəkil təyin etdi və Məlik Nəcəfqulu ilə işləməyi ona tapşırdı. Lakin zahiri sakitliyə səbəb olan bu tədbir əslində heç də mübarizənin qarşısını ala bilmədi. Nəhayət, 1743-cü ildə[19] Hacı Çələbinin tərəfdarları Məlik Nəcəfqulunu öldürdülər. Nadir şahın 3 mart 1746-cı[20] il tarixli fərmanından görünür

[19] T. Musəvi 1739-cu il yazmışdı, amma bu yanlış tarixdir. Hacı Çələbi xan Məlik Nəcəfqulunu hicri 1156-cı ildə (miladi 1743-cü ildə) öldürmüşdür (Bax: *Kərim ağa Fateh.* Şəki xanlarının müxtəsər tarixi // Şəki xanlığının tarixindən /. — Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1958. — Səh.: 68).

[20] T. Musəvi fərmanın tarixini 7 il səhv – 1739-cu ilin may ayı kimi, göstərmişdi. Amma vaxtilə Salman Mümtaz həmin fərmanın tarixini hicri 9 səfər 1159-cu il olaraq qeyd edib (Bax: Əlavə // Şəki xanlığının tarixindən /. — Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1958. — Səh.: 68.). Bu miladi 3 mart 1746-cı il tarixinə müvafiqdir. S. Mümtazın fərmanın tarixini düz oxuması, T. Musəvinin isə səhv oxuması fərmanın mətnindəki "bu bars ili" ifadəsindən aydınlaşır. Belə ki, həqiqətən də 1746-cı il bars ili, yəni pələng ilidir. Yeri gəlmişkən əlavə edək ki, T. Musəvi fərmanın yalnız fotoşəklindən istifadə etmişdir, amma S. Mümtaz çox güman ki, fərmanın orijinal nüsxəsi ilə tanış olubmuş. Tarixdən başqa, mətndə də tərəfimizdən lazım olan düzəlişlər edildi, – *Tərtibç.*

ki, həmin hadisədən sonra Şəkidə Məlik Nəcəfqulunun adamları ilə Hacı Çələbinin tərəfdarları arasında şiddətli münaqişə baş vermişdir. Münaqişə nəticəsində vilayətdə əkinçilik işləri pozulmuş və kəndlilərin bir çoxu didərgin düşmüşdü.

Nəticədə, Nadir şah 3 mart 1746-cı il tarixdə[21] Nəcəfqulunun qardaşı oğlu Cəfəri Şəki vilayətinə məlik təyin etmişdir. O, eyni zamanda Hacı Çələbinin təqsirindən keçmiş və göstəriş vermişdir ki, həmin şəxs vilayətin vəkili kimi Məlik Cəfərlə birlikdə Şirvana gedərək didərgin düşmüş şəkililəri topalamaq işinə, onları təsərrüfata sövq etmək işinə yardım göstərsin. Lakin Hacı Çələbi bu göstərişə tabe olmamışdır. Dövrün tarixi mənbələrindən belə bir nəticə əldə olunur ki, Məlik Nəcəfqulu öldürüldükdən sonra Çələbi öz tərəfdarları ilə birlikdə dağlara çəkilmiş və 1743-cü ildən etibarən yenə də Nadir şaha qarşı açıq silahlı mübarizəyə başlamışdır. Hacı Çələbinin dəstələri bir müddət "Gələsən, görəsən" qalasında Nadir şahın qoşunlarına müqavimət göstərmişdir.

1746-cı ilin ortalarında Şəki vilayətinin əhalisinin nümayəndələri kollektiv ərizə ilə Nadir şaha müraciət edərək Məlik Cəfərin bacarıqsızlığından şikayətlənmiş, Hacı Çələbinin böyük oğlu Həsənin həmin vəzifəyə keçməsini xahiş etmişlər. Lakin Nadir şah qeyd olunan xahişi qəbul etməmişdir. Bu hadisədən doqquz ay sonra Nadir şah öldürülmüş və beləliklə, Şəki vilayətində Hacı Çələbinin sərbəst hökmranlığı dövrü başlanmışdır. "Şəki xanlarının ixtisar üzrə tarixi" adlı əsərdə qeyd olunur ki, bu dövrdə şəkililər Hacı Çələbinin rəhbərliyi altında üç il müddətində İran ordularına qarşı böyük cəsarətlə vuruşmuşlar. Nəticədə, Şəki xanlığı yaranmışdır. Bu xanlıq öz hökmranlığını Təbrizin yaxınlığınadək uzanan ge-

[21] Bax: Yuxarıdakı qeydə, – *Tərtibç.*

niş bir əraziyə yaymışdır. 1845-ci ildə yazılmış "Qarabağnamə" əsərində qeyd olunan dövrdə Şəki ordularının Qarabağa hücum etməsi barədə məlumat verilmişdir. Həmin məlumat Mirzə Camal Cavanşirin "Tarixi-Qarabağ" adlı əsərində də qeyd olunmuşdur. A.A.Bakıxanovun "Gülüstani-İrəm" əsərində isə Şəki xanlığının Şamaxını ələ keçirmək səyləri şərh olunmuşdur.

Qeyd olunan tarixi faktlar Şəki xanlığının çox böyük hərbi qüdrətə və siyasi nüfuza malik olduğunu sübut edir.

Bunu da nəzərdən qaçırmaq olmaz ki, həmin yeni dövr öz xüsusiyyətlərinə görə ötən dövrlərdən fərqlənir. Deməli, Şəki xanlığının yaranması ilə əlaqədar olaraq vilayətin tarixinin orta əsrlər dövrü də başa çatmış olur.

# ŞƏKİ ÖLKƏSİNƏ AİD ORTA ƏSR SƏNƏDLƏRİ*

Şəki ölkəsinin orta əsrlər tarixi haqqında ilk tədqiqat cərəyanında müəllif Azərbaycan SSR EA Respublika Əlyazmaları fondunda səkkiz fərman aşkar etmişdir[22]. Həmin tarixdən sonrakı axtarışlar nəticəsində Şəkiyə aid daha bir sıra dəyərli orta əsr sənədləri əldə olunmuşdur.

1966-cı ildə RƏF-dəki sənədlər bir daha nəzərdən keçirilərkən bilavasitə Şəkiyə aid səkkiz yeni fərman tapılmışdır. Qeyd etmək lazımdır ki, həmin sənədlərdən ikisinin həm orijinalı, həm də tarixi baxımdan maraqlı olan surətləri fondda saxlanılır. Keçmiş axtarışlar zamanı onlardan birinin – hicri 1113-cu il tarixli fərmanın yalnız surəti əldə olunmuşdu. Lakin son axtarış nəticəsində məlum oldu ki, 1845-ci ildə yazılmış həmin surət heç də yeganə nüsxə deyildir, fərmanın orijinalı da bizə qədər gəlib çatmışdır. Bu orijinal nüsxə həm öz yazılı səpkisi, həm üz və arxa tərəfindəki möhür izləri və qeydləri, həm də naxışları ilə surət nüsxədən fərqlənir.

Şəkinin Səfəvilər dövrü tarixi haqqında geniş təsəvvür yaradan bu sənədlər, 1548-ci ilin sonundan 1746-cı ilin sentyabrınadək, təxminən 198 illik dövrü əhatə edir. Həmin döv-

---

* Burada bölümün girişi T. Musəvinin 1977-ci ildə çap olunmuş "Orta əsr Azərbaycan tarixinə dair fars dilli sənədlər" kitabındakı eyniadlı hissənin girişi ilə eyni olsa da, alt bölmələri bir qədər fərqlənir. Alt bölmələrdə biz T. Musəvinin 1965-ci ildə çap olunmuş "Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər" kitabındakı Şəkiyə dair 8 fərmandan 7-sini də xronoloji ardıcıllıqla əlavə etmişik.
Burada nömrəli qeydlər müəllifin, ulduzlu (*) qeydlər isə biz tərtibçilərindir, – *Tərtibç.*

[22] *T. M. Musəvi.* Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər. Azərbaycan SSR EA Nəşriyyatı, 1965, səh. 86 – 115.

rün yazılı mənbələrindən məlum olur ki, Azərbaycanda mərkəzləşmiş dövlət yaratmağa səy göstərən ilk Səfəvi şahları Şirvanı ələ keçirmək məqsədilə bu ölkəyə bir neçə yürüş təşkil etmişlər. I Şah İsmayılın Şirvana üçüncü yürüşündən sonra Şirvanşahlıq titulu ləğv olunmasa da, nəhayət, Şirvanşahların xələfi olan Şeyxşah (1502–1524) Səfəvilərdən asılı vəziyyətə salınmışdır. Belə vəziyyət Şirvanşah II Xəlilullahın hakimiyyəti dövründə də (1524–1536) davam etmişdir. II Xəlilullah vəfat etdikdən sonra Şirvan əmirləri onun qardaşı oğlunu, kiçik yaşlı Şahruxu (1536–1538)[23] hakimiyyət başına keçirərək Səfəvilərə qarşı bir daha mübarizəyə başlamışlar. Həmin mübarizədə Şəki hakimi Dərvişməhəmməd xan da Şəki ordusu ilə birlikdə fəal iştirak etmişdir. 1538-ci ildə I Təhmasib Şirvana Səfəvi ordusunun dördüncü yürüşünü təşkil etdiyi zaman Səfəvi ordusu Şahruxun gizləndiyi Buğurd qalasını mühasirəyə almışdı. Vəziyyəti belə görən Dərvişməhəmməd xan Şəki ordusu ilə birlikdə şirvanlıların köməyinə gəlmiş və qəflətən hücum ilə Səfəvi ordularına ciddi zərbə endirdikdən sonra yenidən Şəkiyə qayıtmışdır[24].

I Təhmasibin bu haqdakı fəthnaməsindən görünür ki, Şəki ölkəsi 1549-cu ilin yanvar ayında Səfəvilərdən asılı olmamış və Dərvişməhəmməd xan tərəfindən müstəqil surətdə idarə edilmişdir.

"Əhsənüt-təvarix" və "Tarixi-aləmaraye Abbasi" əsərlərində verilən məlumatdan görünür ki, Dərvişməhəmməd xan Şirvanşahlar nəslinə mənsub Həsən bəyin oğlu olmuşdur[25].

---

[23] *İsgəndərbəy Türkman.* Tarixi-aləmaraye Abbasi, Tehran, 1334, səh. 80 (bundan sonra İsgəndərbəy Türkman. Göstərilən əsəri, səh...).

[24] Yenə orada, səh. 80, 81.

[25] *Həsən bəy Rumlu.* Kitabi əhsən-ət-təvarix (bundan sonra: Həsən bəy Rumlu. Göstərilən əsəri, səh...) və Ç. Narmenin çapa hazırladığı kitab,

Öz sələfləri kimi Həsən bəy də Şəkidə uzun müddət hökmranlıq etmiş və nəhayət, Kaxetiya çarı Levonla müharibədə gürcü qoşunları tərəfindən öldürülmüşdür. Burada qeyd edilməlidir ki, B. Dorn tərəfindən müəllifi Qazı Əbdüllətif Əfəndi hesab olunmuş, S. Mümtaz tərəfindən isə müəllifinin Kərim ağa Fateh olduğu sübut edilmiş Şəki xanlarının ixtisar üzrə tarixi" adlı əsərdə[26], habelə Hacı Seyid Əbdülhəmidin "Şəki xanları və onların nəsilləri" adlı əsərində Həsən bəyin babası Qutul xanın İran şahlarından biri tərəfindən Şəkiyə hakim təyin olunması barədəki müddəa əsla düzgün sayıla bilməz[27]. Belə ki, Həsən bəy və onun sələflərinin Şirvanşahlar nəslinə mənsub olması dövrün tarixi mənbələrində aydın şəkildə qeyd edilmişdir[28]. Digər tərəfdən, Səfəvilər sülaləsindən əvvəlki dövrlərdə Şirvanın bütün hakimləri, o cümlədən Şəki hakimləri İran şahları tərəfindən deyil, məhz Şirvanşahlar tərəfindən təyin olunmuşdur*. Bundan əlavə, I Təhmasibin qardaşı Əlqas mirzənin Şirvanda hökmranlıq etdiyi dövrdə də Şəki vilayəti Səfəvilərin tabeliyində olmamış və Dərvişməhəmməd xan tərəfindən müstəqil şəkildə idarə edilmişdir. Şahruxun məğlubiyyətindən sonra Əlqas mirzə şəkililərlə Səfəvilər arasındakı münasibəti dinc yolla qaydaya salmağa çalışmışdır. O, hətta 1540-cı ildə Dərvişməhəmməd xanı özü ilə Təbrizə aparmış və Səhənd yaylağında I Təhmasiblə

---

Kəlkuttə, 1931, səh. 180–181. *İsgəndər bəy Türkman*.. Göstərilən əsəri, səh. 82–83.

[26] "Maarif işçisi", 1929, № 2–3 (43–44), səh. 85–90.

[27] *B. Dorn.* Əl-intixabat-əl-bəhiyyə, Стб., 1858, səh. 515–516.

[28] *İsgəndər bəy Türkman.* Göstərilən əsəri, səh. 32.

* Müəllif Səfəvilər sülaləsindən əvvəlki dövrlərdə Şəki hakimlərinin Şirvanşahlar tərəfindən təyin olunması barədə Orta əsr mənbələrinə istinad etmədiyindən irəli sürülən fikrin doğru və ya yanlış olduğu naməlum qalır, – *Tərtibç.*

görüşdürmüşdür[29]. Lakin bütün bu tədbirlərə baxmayaraq, Şəki yenə də müstəqil vilayət kimi qalmışdır. Əlqas mirzənin öz qardaşının əleyhinə çıxaraq Şirvanda qiyam qaldırdığı dövrün hadisələri, xüsusilə Şəki ordusunun həmin dövrdə ona yardım göstərməsi bunu bir daha sübut edir[30]. Məhz buna görə də I Təhmasib 1548-ci ilin sonunda Osmanlı ordularını məğlubiyyətə uğradaraq Bərdəyə gələrkən Şəkiyə hücuma keçmiş və ölkəni talamışdır. I Təhmasibin 1550-ci il sentyabr tarixli fərmanında Dərvişməhəmməd xanın Şəki hakimi adlandırılması göstərir ki, 1548-ci il yürüşündən sonra o, Səfəvilərin vassallığını qəbul etmişdir. Bu vassallıq formal xarakter daşıdığına görə I Təhmasib 1551-ci ildə Şəkini müharibə yolu ilə Səfəvilərə tabe etmək qərarına gəlir. İlk mənbələrdən məlum olur ki, qızılbaşlar Şəkiyə üç istiqamətdə hücum etmişlər. Onlar Kiş qalasını dağıtdıqdan və "Gələsən, görəsən" qalasını uzun müddət mühasirə vəziyyətində saxladıqdan sonra Dərvişməhəmməd xanı öldürərək Şəkini tutmuşlar. Beləliklə, Şəki ölkəsi Səfəvilər dövlətinə birləşdirilmiş və I Təhmasib özünün adlı-sanlı sərkərdələrindən birini – Toygün bəy Qacarı Şəkiyə hakim təyin etmişdir. Bu hadisədən təxminən 4 il sonra Şəki ölkəsinin hökmdarlığı I Təhmasibin qaynı Şamxal Sultan Çərkəzə tapşırılmışdır. Faktlardan göründüyü kimi, qeyd olunan dövrdə I Təhmasibin Hüseyncan adlı bir şəxsi Şəkiyə hakim təyin etməsi haqqında istər "Şəki xanlarının ixtisar üzrə tarixi", istərsə də "Şəki xanları və onların nəsilləri" adlı əsərlərdə irəli sürülmüş müddəalar əsassız və uydurmadır[31]. Səfəvilər dövrünün görkəmli siyasi şəxsiyyətlərindən biri olmuş və uzun müddət Şəki vilayətin-

[29] *Həsən bəy Rumlu*. Göstərilən əsəri, səh. 299–300.
[30] Yenə orada, səh. 318–321.
[31] "Şəki xanlarının tarixindən", Bakı, 1958, səh. 14, 26; "Azərbaycan tarixi", I cild, Bakı, 1961, səh. 254.

də hökmdarlıq etmiş Şamxal Sultan Çərkəzin adına həmin dövrün bir sıra tarixi hadisələrində təsadüf olunur. Məsələn, 1558-ci ildə I Təhmasibin Gürcüstan yürüşündə Şamxal Sultan Çərkəz də Şəki ordusu ilə birlikdə fəal iştirak etmişdir[32]. Bu yürüşdən sonra o, yenə də Şəkiyə qayıtmış və I Təhmasibin hakimiyyəti dövründə uzun illər Şəkinin hakimi olmuşdur. I Təhmasibin vəfatından sonra Şamxal Sultan Çərkəz Heydər mirzəni öldürmək yolu ilə II Şah İsmayılın hakimiyyət başına keçməsinə yardım göstərmişdir[33]. II Şah İsmayılın vəfat etdiyi dövrdə isə Şamxal Sultan Çərkəz öz ordusu ilə Qəzvin şəhərində olmuş və hakimiyyəti müvəqqəti idarə edən bacısı qızı Pərixan xanımla əməkdaşlıq etmişdir[34]. Nəhayət, o, Sultan Məhəmməd Xudabəndənin sui-qəsdi nəticəsində Qəzvin şəhəri yaxınlığındakı Şenten adlı yerdə öldürülmüşdür[35].

Sultan Məhəmməd Xudabəndə hakimiyyət başına keçdikdən sonra 1574-cu ildə I Şah İsmayılın qardaşı Sam Mirzənin kürəkənini — kaxetiyalı Levonun oğlu gürcü İsa xanı, Şəkiyə hakim təyin etmişdir[36].

İsa xanın Şəkidəki hökmranlıq müddəti məlum deyildir. Lakin Lələ paşanın Şirvana hücumu zamanı İsa xanın qardaşı gürcü Əli xan öz ordusu ilə birlikdə Şəki vilayətində olmuş və Osmanlı orduları qarşısında müqavimət göstərə bilmədiyindən geri çəkilmişdir[37]. "Tarixi-aləmaraye Abbasi" əsərində verilən məlumatdan görünür ki, İsa xan 1580-cı ildə Gür-

---

[32] *İsgəndərbəy Türkman.* Göstərilən əsəri, səh. 90.
[33] Yenə orada, səh. 192.
[34] Yenə orada, səh. 223.
[35] Yenə orada, səh. 225.
[36] Yenə orada, səh. 227.
[37] *İsgəndər bəy Türkman.* Göstərilən əsəri, səh. 234.

cüstanda Osmanlılara rəğbət bəsləyən qardaşı Aleksandr tərəfindən öldürülmüşdür[38].

Yuxarıda deyilənlərdən belə nəticə çıxır ki, Sultan Məhəmməd Xudabəndənin şahlığı dövründə, Şirvanın Osmanlı qoşunları tərəfindən işğalından əvvəl, Şəkidə əsas etibarilə islam dinini qəbul etmiş gürcü sərkərdələri hakim olmuşlar. İlk mənbələrdən göründüyü kimi, sonralar bütün Şirvan və Şəki Osmanlılar tərəfindən zəbt olunmuş və bu vəziyyət I Şah Abbas hakimiyyətinin 20-ci ilinədək davam etmişdir. I Şah Abbas yalnız 1603-cu ilin sentyabr ayında 15 minlik ordu ilə Azərbaycanı fəth etmək məqsədilə İsfahandan Təbrizə yola düşmüşdür[39]. Bu hadisədən sonra o, gürcü Qustəntil xanı (Konstantin) Şirvan hakimliyinə namizəd irəli sürmüşdür. Qustəntil xan bu işdə ona maneçilik törədən atası və qardaşını aradan qaldırdıqdan sonra 1605-ci ildə Şirvana yürüş təşkil edərək Osmanlı qoşunları ilə müharibəyə başlamışdır. Dövrün yeganə mötəbər mənbəyi sayılan "Tarixi-aləmaraye Abbasi" əsərində həmin hadisələrin şərh edilməsi ilə əlaqədar olaraq Şəki hakimi Şahmir xanın adı çəkilir. Şahmir xan Aleksandr xan və Georgi mirzənin öldürülməsində Qustəntil xana bilavasitə yardım göstərir, onun Şirvan yürüşündə Şəki ordusu ilə birlikdə iştirak edir[40]. Şəki ordusu Məhəmməd Əmin paşanın başçılığı ilə Qəbələdə mövqeyini möhkəmlətmiş Osmanlı ordularına hücum edərək düşməni məğlubiyyətə uğratmışdır. Gürcülərin Qustəntil xana qarşı üsyanından sonra Qustəntil xan I Şah Abbasdan icazəsiz Gürcüstana hücum edərkən Şahmir xan Şəki ordusu ilə birlikdə ona yardım göstərmişdir. Qustəntil xan öldükdən sonra isə Şahmir xan

---

[38] *İsgəndərbəy Türkman.* Göstərilən əsəri, səh. 271.

[39] *А. П. Папазян.* Персидские документы Матенадарана, II buraxılış, Yerevan, 1959, səh. 463–465, 1 №-li fərman.

[40] *İsgəndərbəy Türkman.* Göstərilən əsəri, səh. 679-681.

öz ordusu ilə birlikdə Şəkiyə qayıtmış və Şirvandakı vəziyyət haqqında I Şah Abbasa məlumat vermişdir[41].

Yuxarıda deyilənlərdən belə nəticə çıxır ki, Şirvanda Osmanlıların işğalına qarşı silahlı mübarizə başlandığı dövrdə Şəki vilayəti Səfəvilərin tabeliyində olmuşdur. Belə bir vəziyyət Səfəvilər hakimiyyətinin bütün dövrlərində davam etmişdir. Şahmir xandan sonra Şəkidə kimin hakim olması məlum deyildir. Lakin "Tarixi-aləmaraye Abbasi" əsərində verilən məlumatdan görünür ki, I Şah Abbasın hakimiyyətinin son illərində (1627) Şəkidə cəyirli tayfasına mənsub Məhəmməd sultan adlı bir şəxs hakim olmuşdur[42]. Yeri gəlmişkən qeyd etməliyik ki, "Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər" adlı kitabda Şahmir xandan sonra Aslan sultanın Şəkiyə hakim təyin edilməsi ehtimalı düzgün sayıla bilməz[43]. İlk Səfəvi hökmdarları dövründə Şəkinin siyasi tarixi haqqında istər "Şəki xanlarının ixtisar üzrə tarixi", istərsə də "Şəki xanları və onların nəsilləri" adlı əsərlərdə verilən məlumat da yuxarıdakı həqiqətlərə əsla uyğun gəlmir. Bizcə, onlar əsassız rəvayətlərdir. Səfəvilər sülaləsinin hakimiyyəti dövründə Şəkinin siyasi və iqtisadi tarixini öyrənmək məsələsinə gəlincə, qeyd etmək lazımdır ki, indi əlimizdə etibarlı mənbələr vardır.

---

41 *İsgəndərbəy Türkman.* Göstərilən əsəri, səh. 679–681.

42 *İsgəndərbəy Türkman.* Göstərilən əsəri, səh. 679–681.

43 *T. M. Musəvi.* Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər, Azərbaycan SSR EA Nəşriyyatı, 1965, səh. 13.

# SƏNƏDLƏRİN İZAHLARI VƏ AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏ OLUNMUŞ MƏTNLƏRİ

## 1. Şəki ölkəsinin sədrliyi vəzifəsi haqqında I Şah Təhmasibin fərmanı*

*Fərman 1550-ci ilin sentyabr/oktyabr ayında verilmişdir.*
*Orijinal.*
*Ölçüsü: 32 sm x 58 sm.*
*Gürcüstan SSR EA Əlyazmaları İnstitutu, fond R., iş № 1.*

Şəki ölkəsinin sədrliyi vəzifəsini Əbdürrəzzağa tapşırmaq haqqında I Təhmasib hicri 957-ci ilin ramazan ayında (sentyabr/oktyabr, 1550) fərman vermişdir. Fərmanın məzmunundan məlum olur ki, göstərilən dövrdə Mirsultan ləqəbi daşıyan Əbdürrəzzaq Şirvanın sədri vəzifəsində işləyirmiş. I Təhmasib isə Şəki ölkəsinin Şirvana yaxın olduğunu nəzərə alaraq həmin tarixdə bu ölkənin sədrliyini də ona tapşırır. Fərmanda Dərvişməhəmməd xana Şəki ölkəsinin hakimi kimi müraciət olunması və həmin məsələyə dair Abdulla xan Ustacluya Şirvan hakimi kimi göstəriş verilməsi sübut edir ki, o dövrdə Şəki ölkəsi Səfəvilərin tabeliyində imiş. Digər tərəfdən, istər 956-cı ilin məhərrəm ayı (yanvar/fevral, 1549) tarixli fəthnamədən, istərsə də "Tarixi-aləmaraye Abbasi" əsərindən görünür ki, 1549-cu ilədək Şəki ölkəsi Səfəvilərin tabeliyində olmamışdır. Məhz buna görə də I Təhmasib Osmanlı xandigəri Sultan Süleymanın üçüncü yürüşünü dəf edən zaman 1548-ci ilin payızında qışlamaq məqsədilə Bərdəyə gəlmiş, qoruçubaşı Cəlaləddin Sunduk bəyi 10.000 nə-

---

* T. Musəvinin 1977-ci ildə çap olunmuş "Orta əsr Azərbaycan tarixinə dair fars dilli sənədlər" kitabında da "**1 №-li sənəd**" olaraq nömrələnib, – *Tərtibç.*

fərlik ordu ilə Şəkiyə göndərmiş və onlar həmin ölkəni talamışlar[44]. Görünür, Əlqas mirzə macərası başa çatdıqdan sonra 1549-cu ildə Abdulla xan Ustaclunun Şirvana hökmdar təyin edilməsi ilə əlaqədar Dərvişməhəmməd xan da Şəki ölkəsinin Səfəvilərə tabe olduğunu bildirmişdir[45]. 1550-ci ilin sentyabr/oktyabr ayında Şəki ölkəsinə sədr təyin edilməsi hadisəsi də ehtimal ki, məhz bununla əlaqədar olmuşdur. Lakin mərkəzi hökumətə bu formal tabeçilik heç də uzun sürməmişdir. İlk mənbələrdən məlum olduğu kimi, 1551-ci ildə, yəni həmin təyinatdan təxminən bir il sonra I Təhmasib Şəki ölkəsinə hərbi yürüş təşkil etmiş, Kiş və "Gələsən, görəsən" qalalarını tutmuşdur. Döyüş meydanından qaçmaq istəyən Dərvişməhəmməd xan isə Çərəndab sultan Şamlunun mülazimlərindən olan Kosa Pirqulunun əli ilə öldürülmüşdür[46]. Bu hadisədən sonra Şəki vilayəti bütünlüklə Səfəvi dövlətinə tabe edilmişdir.

Fərmanın tarix elmi üçün digər dəyərli cəhəti budur ki, həmin dövrdə mərkəzi hökumətə tabe olan ölkə və vilayətlərdəki sədrlik vəzifəsi haqqında aydın təsəvvür yaradır. Qeyd etməliyik ki, XV – XVIII əsrlərdə mərkəzi hökumət aparatlarına daxil olan sədrlik vəzifəsi haqqında əsas etibarilə dövrün iki tarixi mənbəyində məlumat verilmişdir. Bunlardan biri 1475 – 1535-ci illərdə yaşamış[47] məşhur tarixçi Qiyasəddin bin Hüməməddin Xondəmirin "Nameyi-nami"

---

[44] Bax: *İsgəndərbəy Türkman.* Göstərilən əsəri, səh. 75; *Əbülqasım Evoğlu Heydər.* "Məcmuətul-murasilat", I Təhmasibin Məlik Kəyumərsə göndərdiyi fəthnamə.

[45]Yenə orada, səh. 81.

[46] *İsgəndərbəy Türkman.* Göstərilən əsəri, səh. 82 – 83.

[47] *Qiyasəddin bin Humaməddin Xondəmir.* Tarixi həbib-üs-siyər, I cild, səh. 8, Tehran, 1333.

əsəri[48], digəri isə 1724 – 1729-cu illərdə naməlum müəllif tərəfindən yazılmış “Təzkirətül-müluk” əsəridir[49]. Həm “Nameyi-nami”nin 42 – 46 və 166 – 172-ci səhifələrində, həm də “Təzkirətül-müluk”un II fəslində verilən məlumatdan belə nəticə çıxır ki, mərkəzi hökumət aparatında işləyən sədrlər ölkədə bütün seyidlərin, şeyxlərin, qazıların, elm və din xadimlərinin başçısı sayılmışlar. Onlar məscid, mədrəsə, təkiyə, məqbərə, pir və digər dini təsisatların abadlaşdırılması və rövnəqləndirilməsi işinə qayğı göstərir, ölkənin bütün vəqf əmlakına nəzarət edir, həmin əmlak hesabına olan gəlirə sərəncam verirdilər. Yuxarıda adları çəkilən ilk mənbələrdə biz mərkəzi dövlətə daxil olan ölkə və vilayətlərə ayrıca sədrlər təyin edilməsi haqqında heç bir məlumata rast gəlmirik. I Təhmasibin həmin fərmanı isə ölkə və vilayətlərdə də belə vəzifə olduğunu sübut edir. Fərmandan aydın olur ki, ölkə və vilayət sədrlərinin əsas vəzifəsi əhalini İslam dininin şiə təriqətinə sövq etmək, bu təriqətin müddəalarını təbliğ etmək imiş. Hər hansı ölkə və ya vilayətdəki qazılar, möhtəsiblər və şəriət işlərinə baxanlar həmin sədrlər tərəfindən vəzifəyə təyin edilir, yaxud vəzifədən götürülürdü. Bu sədrlər hər il xüms və zəkat adı ilə əhalidən vəsait toplayırdılar. Fərmanın yuxarı hissəsinə I Təhmasibin möhürü vurulmuş, arxasında isə üç möhür izi və dörd qeyd vardır. Şah möhürünün haşiyəsinə həkk edilmiş iki beytlik şeir sünni təriqətinə qarşı barışmaz mübarizənin rəmzi olmuşdur. Bu beytlər bir sıra Səfəvi şahlarının, xüsusilə Şah Sultan Hüseynin möhürlərində də həkk edilmişdir. Yeri gəlmişkən bunu da nəzərə çatdırmalıyıq ki, həmin şerin ikinci beytinin birinci misrası

[48] *Qiyasəddin bin Humaməddin Xondəmir*. Nameyi-nami, RƏF, inv. № M., 209 – 3583.
[49] “Təzkirətül-müluk”. M. Dəbirsəyaqinin çapa hazırladığı nüsxə, Tehran, 1332.

heç də S. Əliyev və M. P. Pənahiyanın iddia etdikləri şəkildə deyildir[50]. Onun çox aydın surətdə «هر که چون خاك نيست بردرا» oxunması həmin müəlliflərin bu barədə iddialarını təkzib edir. Fərmanın arxasındakı qeydlər və möhürlər o dövrdə şah dəftərxanasının nisbətən sadə olduğunu sübut edir. Görünür, həmin dövrdə bir nəfər fərmanın mətnini yazır və sənədin arxasına "qələmə alındı" sözünü qeyd etməklə qol çəkirmiş. Sonra ayrı bir şəxs həmin mətni oxuyur, onun imla cəhətdən düzgün yazılmasını yoxlayır və sənədin arxasında "oxunub nəzərdən keçirildi" qeydi ilə qol çəkirmiş. Bu hazırlıq işlərindən sonra şahın ən yaxın adamlarından ikisi onun düzgün tərtib olunmasını bir daha yoxlayaraq sənədin arxasına öz möhürlərini basırmışlar. Qeyd olunan bütün yoxlama işləri başa çatdıqdan sonra fərmanın yuxarı hissəsinə şahın möhürü basılır və bununla ona icra qüvvəsi verilirmiş. Həmin fərmanın arxasındakı möhür izləri onun Nəbi, Əmir Sam və Məsum adlı şəxslər tərəfindən yoxlandığını sübut edir. Nəbinin şəxsiyyəti hələlik bizə məlum deyildir. Lakin ehtimal ki, Məsum adı həkk edilmiş möhür Məsum bəy Səfəviyə, Əmir Sam adı həkk olunmuş möhür isə I Təhmasibin qardaşı Sam mirzəyə aiddir.

**_Tərcüməsi:_**

*Möhür: 1. Yuxarı hissədə: "Allah, Məhəmməd, Əli".*

*2. Ortada: "Şahi vilayətin qulu Təhmasib".*

*3. Haşiyədə: "Əli ilə əlaqəsi yaxşı olmayan hər hansı adamı, kim olursa-olsun, mən sevməyirəm. Hər kəs ki onun qapısı qarşısında torpaq kimi deyilsə, mələykə olsa belə, onun başına torpaq ələnsin".*

Mübarək fərman nüfuz şərəfinə çatdı, o haqda ki ağalıq və nəqibliyin pənahı, sədarət büsatlı, seyidlik, nəqiblik və eti-

[50] "Народы Азии и Африки" jurnalı, 1968, № 1, səh, 140.

qadda mükəmməl olan Mir Sultan adı ilə şöhrət tapmış Əbdurrəzzağın tam şiəliyi və dindarlığına biz mübarək şahın həddən artıq etibar və etimad bəslədiyinə görə, Şirvan ölkələrinin sədrliyini bütünlüklə o nəqiblik pənahına tapşırmışıq ki, aydın din qaydalarının düzgün həyata keçirilməsinə və müdafiə olunan imamların (onların hamısına Allahın salavatı olsun) düzgün təriqətinin ayin və ənənələrini yaymağa tam qeyrət və şərəf hissi ilə yanaşdığı üçün qeyd olunan ölkənin bütün adamlarını düzgün yola rəhbərlik etməyə çalışsın. Düşüncə və rəvayətə əsaslanan dəlillər və sübutlarla bu müqəddəs təriqətin həqiqətini onların nəzərinə çatdırsın, yoldan azmış günahkar təbəqənin nicat vasitəsi olaraq onları çürük əqidələr və puç təriqətlərin qaranlıq məkanından Cəfəri təriqətinin sağlam yoluna və düzgün on iki imam (onlara salavat və salam olsun) məsləyinə rəhbərlik etsin. O tərəfin bütün xəvas və avamlarının zahiri, daxili vəziyyətini qaydaya salmağa yenidən rəğbət və meyl işığı saldığımız bir vaxtda Şəki ölkəsi məmləkətinin sədrliyini də o, ölkəyə (Şirvana) yaxın qonşu olduğuna görə qeyd edilən ölkəyə əlavə edərək həmin ağalıq və nəqiblik pənahına tapşırdıq və qaytardıq ki, qayda əsasında oranın adamlarına da rəhbərlik olunmasına diqqət yetirsin.

Onları istiqamətləndirici imamların (onlara salam və səna olsun) haqq təriqətinin qayda və şərtlərinə, habelə onun (təriqətin) davranış tərzləri və ayinlərinə rəğbətləndirsin. Bu sahədə tam səylə çalışaraq vaxtlarının bir dəqiqəsini belə boş keçirməsin. Oranın hakimi idarəçilik pənahı, hökumət büsatlı, kəramətli, hakimlərin dayağı, hakimiyyət və səadətin günəşi Dərvişməhəmməd xan yazılmış qaydada qərar verildiyini bilərək o nəqiblik pənahını qüdrətləndirməyə və etibarlandırmağa çalışsın. Qeyd olunan ölkədə sakin olanlar və vətən salanların hamısı öz xüms, zəkat pullarını hər il Şirvan

ölkəsində həyata tətbiq edilən qayda üzrə həmin ağalıq pənahına çatdırsınlar ki, sədrlik rəsmini götürdükdən sonra (qalanını) müstəhəq adamlara çatdırsın.

Qeyd olunan ölkənin və Şirvan ölkələrinin qazıları, möhtəsibləri və şəriət işlərinə baxanları bütün sahələrdə itaət və tabelik qaydalarına əməl edərək o nəqiblik büsatının çıxarma və təyin etmə [tədbirləri] ilə özlərini işdən çıxarılmış və ya vəzifəyə təyin olunmuş bilsinlər. Hər il bu məsələlər haqqında yeni hökm və əmr tələb etməsinlər. İdarəçilik və hökmranlığın pənahı, hakimiyyət və səadətin arxası Şirvan yerlərinin hakimi Abdulla xan o nəqiblik pənahını qüdrətləndirmək və etibarlandırmaq üçün elə səy göstərməlidir ki, həmin ucqarlarda təriqətin qaydalarını yaya bilsin. Bu haqda göstəriş verildiyini bilərək şəriətə aid bütün işlərin irəliləyişinə qayğı bəsləsin. Əmirlər, hakimlər, darğalar, vəzirlər və vəkillərdən, habelə onların mülazimlərindən bir nəfərin belə o nəqiblik pənahına aid olan işlərə qarışmasına [imkan] verməsin və özünü vəzifədar bilsin.

*Yazıldı: 957-ci ilin ramazan ayında* (sentyabr/oktyabr, 1550, – *Tərtibç.*).

## 2. Şirvan və Şəki ölkələrinin sədrliyi haqqında I Şah Təhmasibin fərmanı*

*Fərman 1554-cu ilin avqust ayında verilmişdir**.*
*Orijinal.*
*Ölçüsü: 27,5 sm* x *18 sm.*

---

* T. Musəvinin 1977-ci ildə çap olunmuş "Orta əsr Azərbaycan tarixinə dair fars dilli sənədlər" kitabında da "**2 №-li sənəd**" olaraq nömrələnib, – *Tərtibç.*

** T. Musəvi fərmanın tarixini 1554-cü ilin iyul ayı olaraq göstərmişdi. Lakin hicri 961-ci ilin ramazan ayının yalnız 1-ci günü iyul ayına, sonrakı günləri isə avqust ayına təsadüf edir, – *Tərtibç.*

*Britaniya muzeyi fond or. № 4935.*

Yuxarıda izahını verdiyimiz 1 №-li fərmanın yazılış tarixindən təxminən dörd il sonra Şirvan və Şəki ölkələrində Əbdürrəzzağın sədrliyini təkid etmək haqqında I Təhmasib tərəfindən yeni fərman verilmişdir. Fərmanın tarixi Osmanlı xandigarı Sultan Süleymanın Azərbaycana yeni hərbi yürüşünün təşkili dövrünə təsadüf edir. Məlumdur ki, 1533 – 1554-cu illərdə Osmanlı xandigarının Azərbaycanı ələ keçirmək məqsədilə Səfəvi dövlətinə qarşı dörd hərbi yürüşü olmuşdur. Lakin o, həmin yürüşlərin heç birindən istədiyi nəticəni əldə edə bilməmiş və hər dəfə öz ölkəsinə geri qayıtmağa məcbur olmuşdur[51]. Sultan Süleyman dördüncü yürüşü zamanı, vaxtı ilə Şirvanşahlara xain çıxaraq Osmanlı torpağına qaçmış şirvanlı Qasım mirzədən də istifadə etmişdir[52]. Bu dövrdə Qasım mirzə böyük ordu ilə Dərbənddən Şirvana göndərilmiş, Şirvan ordusunun başçısı Abdulla xan Ustaclunu dəfələrlə geri oturmağa məcbur etmiş, nəhayət, Səfəvi orduları Gülüstan qalası yaxınlığında düşmənə qəti zərbə endirmiş və beləliklə, Şirvanda Qasım mirzə macərasına son qoyulmuşdur. Qətiyyətlə demək olar ki, həmin dövrdə Əbdürrəzzağın sədrliyi haqqında yenidən təkidedici fərman vermək zərurəti Osmanlı yürüşünün Şirvan və Şəki ölkələrində törətdiyi idarə hərc-mərcliyi ilə əlaqədar meydana çıxmışdır. Fərmanda Əbdürrəzzaq və onun işçilərinə hər cür fəaliyyət imkanı yaratmaq, bütün qazıları onun razılığı ilə vəzifəyə təyin etmək haqqında göstəriş verilir. 1 №-li fərmandan fərqli olaraq 2 №-li fərmanın yuxarı hissəsinə vurulmuş şah möhürünün haşiyəsində sünni təriqəti əleyhinə məlum şeirin deyil, on iki imam adının həkk olunması da diqqə-

[51] "Azərbaycan tarixi", I cild, Bakı, 1961, səh. 254–257.
[52] *İsgəndərbəy Türkman.* Yenə orada, I cild, səh. 81–82.

tәlayiqdir. Görünür, bu dəyişiklik Osmanlılarla sülh danışıqlarına başlanması ilə əlaqədar olmuşdur.

***Tərcüməsi:***

**Hakimiyyət Allaha məxsusdur**

*Möhür: 1. Ortada: "Şahi vilayətin qulu Təhmasib".*

*2. Haşiyədə: "Məhəmməd-əl-Mustafayə, Əli-əl-Murtəzayə, Həsən ər-Rzayə, Hüseyn əl-Şəhidə, Əli Zeynalabdinə, Məhəmməd-əl-Baqirə, Cəfər əl-Sadiqə, Musa-əl-Kazimə, Əli bin-Musər-rizayə, Məhəmməd ət-Təqiyə, Əli ən-Nəqiyə, Həsən əl-Əsgəriyə, Məhəmməd əl-Mehdiyə Allahın salavatı olsun".*

Mübarək fərman verildi o haqda ki, itaət edilməsi zəruri olan itaətkaredici fərmanlar mövcibincə bütün Şirvan və Şəki ölkələrinin sədrliyi, başqasının iştirakı olmadan ağalıq və başçılığın pənahı, yüksək və üstün büsatlı, ağalığı və başçılığı mükəmməl əmir Əbdürrəzzağa aid və müraciət olunduğuna), dəyişiklik edilmədiyinə görə həmin qayda ilə qərar verildiyini bilsinlər. Həmin başçılıq pənahının və onun gümaştələrinin əlini qüvvətli və sərbəst saxlayaraq onun sədrlik rəsmi pullarını qayda üzrə çatdırsınlar. Oranın baş və kiçik qazılarının vəzifədən götürülməsi və vəzifəyə təyin olunması işini həmin sədrlik pənahına aid bilsinlər. İdarəçiliyin pənahı, hökmranlıq və irəliləyiş köməkçisi Abdulla xan bu sahələrdə tam yardım və xeyirxah himayə göstərsin və hər il yeni əmr tələb etməsin.

*Yazıldı: 961-ci ilin mübarək ramazan ayında* (avqust, 1550, – *Tərtibç.*).

## 3. Şəki qışlaqları haqqında Şah Səfinin verdiyi fərman*

*Fərman 1633-cü ilin oktyabr/*noyabr *ayında verilmişdir.*
*Orijinal ölçüsü 33,5* x *15 sm.*
*Yazılma üslubu: şikəstə.*
*Azərbaycan SSR Elmlər Akademiyası Respublika Əlyazmalar fondu, inv. h – 25/8918.*

Şəki məlikliyinə aid bizə çatmış ilk fərman Şəki hakimi** Aslan sultanın Şəki qışlaqlarını kənar adamların sərəncamına verməsi və "qışlaqbaşı" toplanması nəticəsində rəiyyətlərin etdiyi şikayətlə əlaqədar olaraq Şah Səfi tərəfindən hicri 1043-cü ilin rəbiül-sani (miladi 1633-cü ilin oktyabr/noyabr) ayında verilmişdir.

Fərmanın yuxarı hissəsində "Hökmranlıq Allaha məxsusdur" (الملك لله) sözləri yazılmış, ondan bir qədər aşağıya Şah Səfinin möhürü vurulmuşdur. Dairəvi şəkildə olan bu möhürün orta hissəsində "Şah Səfi varlığı ilə quldur 1038" (هست ازجان غلام شاه صفی ۱۰۳۸) sözləri əks olunmuş, onun haşiyəsində isə 14 məsum adlanan şəxslərin adı qeyd edilmişdir.

Bu fərmanda Şirvan bəylərbəyisinin vəkillərinə göstəriş verilmişdir ki, onlar qeyd olunan qışlaqlarda kimlərin qışlamasını yoxlasınlar. İlk mənbələrdə Aslan sultanın adına təsadüf olunmur.

---

* T. Musəvinin 1965-ci ildə çap olunmuş "Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər" kitabında "**7 №-li sənəd**" olaraq nömrələnib, – *Tərtibç.*

** T. Musəvi "Şəki məliyi" yazmışdı, lakin bundan sonra Aslan sultanı "Şəki hakimi" titulu ilə təqdim edir. Fərmanda isə Aslan sultanın məlik titulu daşımasına dair heç bir qeyd yoxdur. O dövrlər üçün "məlik" və "hakim" titulları, yaxud vəzifələri ayrı-ayrı məfhumlar olublar. Şəkinin eyni vaxtda həm məliyi, həm də hakimi mövcud idi və bu vəzifələrdə ayrı-ayrı şəxslər təmsil olunmuşdular, – *Tərtibç.*

“Tarixi-Aləmaraye-Abbasi” əsərindən məlum olur ki, XVI əsrin son illərində İsa xan[54], XVII əsrin əvvəllərində isə Şahmir xan[55] Şəkidə hakim olmuşlar. Həmin fərmana əsasən ehtimal etmək olur ki, XVII əsrin II rübündə, Şahmir xandan sonra Aslan sultan Şəkiyə hakim təyin edilmişdir.

Fərmanın arxasında onun hansı əsas üzrə tərtib olunduğu qeyd edilmiş və fərmanı hazırlayan şəxsin möhürü vurulmuşdur. Qeyddə deyilir: “Ali və yüksək xaqanlığın vizarat və iqbal pənahlı, əzəmətli, cəlallı, dəsgahlı uca rütbəli etimadüldövləsinin qeydi əsasında. (Bağlandı)[56].

***Tərcüməsi:***

Hakimiyyət Allaha məxsusdur.

*Möhür izi: “Şah Səfi varlığı ilə quldur. 1038”.*

Uğurlu fərman verildi o haqda ki, Şəki rəiyyətləri və acizləri divana gələrək şikayət etmişlər ki, əmirliyin pənahı Aslan sultan onların qışlaqlarını kənardan gəlmiş adamlara verərək “qışlaqbaşı” əldə edir. Buna görə qərara aldıq ki, Şirvan bəylərbəyisinin vəkilləri bu işin həqiqətinə yetişərək, əgər qeyd olunan rəiyyətlər qədim dövrlərdən bəri orada qışlaq edirmişlərsə və həmin əmirliyin pənahı o yerləri digər camaata verərək qışlaq edirlərsə, göstəriş versin ki, qeyd olunan əmir məzkur camaatın qışlağına müdaxilə etməsin və həmin rəiyyətlər keçmişlərdə olduğu kimi qışlasınlar və bu barədə göstəriş verildiyini bilsinlər.

*Yazıldı: 1043-cü ilin rəbbiül-sani ayında* (oktyabr/noyabr 1633, – *Tərtibç.*).

---

[54] *İsgəndər bəy Münşi.* Göstərilən əsəri. səh 169.

[55] Yenə orada, səh 474.

[56] از قرار نوستهٔ وزارت و اقبال پناه عظمت و اجلال دستگاه عاليجاه اعتماداللولته العاللية العاليته الخاقانيه صمشد.

## 4. Şəki ölkəsi haqqında I Şah Səfinin fərmanı*

*Fərman 1633-cü ilin oktyabr/noyabr ayında verilmişdir.*
*Orijinal.*
*Ölçü: 14 sm x 39 sm.*
*Azərbaycan SSR EA Respublika Əlyazmaları fondu, inv. h – 7/8925.*

I Şah Abbasdan sonra hakimiyyət başına keçmiş Şah Səfi hökmranlığının beşinci ilində Şəki haqqında iki fərman vermişdir**. Bu fərmanlardan biri "Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər" adlı kitaba daxil edilmiş-

* T. Musəvinin 1977-ci ildə çap olunmuş "Orta əsr Azərbaycan tarixinə dair fars dilli sənədlər" kitabında "**3 №-li sənəd**" olaraq nömrələnib, – *Tərtibç.*

** II Şah Abbasın hicri 1053-cu ilin rəbiül-əvvəl ayı (may/iyun 1643) tarixli fərmanında (Bax: 5. Kiş, Nuxu və Şəkərənd kəndlərinin tiyul verilməsi haqqında II Şah Abbasın hökmü) və Şirvan bəylərbəyisi Xosrov xanın hicri 1056-cı ilin cümadiül-əvvəl ayı (iyun/iyul 1646) tarixli hökmündə (Bax: 6. Kiş, Nuxu, Şəkərənd kəndlərinin tiyul verilməsi haqqında Şirvan bəylərbəyisi Xosrov xanın hökmü) I Şah Səfinin Şəki ilə bağlı digər bir fərmanı – hicri 1043-cu il səfər ayı (avqust/sentyabr, 1633) tarixli fərmanı, xatırlanır və həmin fərmanın məzmunu verilir. Bundan başqa, II Şah Abbasın hicri 1058-ci ilin səfər ayı (fevral/mart 1648) tarixli fərmanında isə I Şah Səfinin Şəki ilə bağlı daha bir fərmanı – 1043-cü ilin cümadiül-sani (1633-cü ilin dekabr) ayı tarixli fərmanı da xatırlanır (Bax: 8. Şəki ölkəsi hakiminə II Şah Abbasın göndərdiyi fərman). Amma ola bilsin ki, xatırlanan həmin fərman I Şah Səfinin Şəki ilə bağlı 4-cü fərmanı deyil və həmin fərman 1043-cü ilin cümadiül-sani (1633-cü ilin dekabr) ayında yox, eyni ilin cümadiül-sani (1633-cü ilin dekabr) ayında verilmişdir. Yəni orada elə bu fərman xatırlanır, sadəcə, orada tarix səhvən rəbbiül-sani ayı əvəzinə cümadiül-sani kimi göstərilmişdir, yaxud oxunmuşdur. Yaxud əksinə, ola bilər ki, bu fərman 1043-cü ilin rəbbiül-sani (1633-cü ilin oktyabr/noyabr) ayında yox, həmin ilin cümadiül-sani (1633-cü ilin dekabr) ayında verilmişdir, amma tarixi düzgün oxunmamışdır. – *Tərtibç.*

dir[57] (Bax: bu kitabda 3 №-li sənədə, – *Tərtibç.*). İkinci fərman isə son axtarışlar zamanı aşkar olunmuşdur. Hər iki fərmanın məzmunundan belə nəticə çıxır ki, Məhəmməd sultandan sonra Aslan sultan adlı bir şəxs Şəkiyə hakim təyin edilmişdir. Çox ehtimal ki o, Məhəmməd sultanın oğlu olmuşdur. Aslan sultanın soyğunçu və talançı tədbirləri Şəki rəiyyətlərini cana gətirmiş və onlar həmin məsələ haqqında dəfələrlə şaha şikayətlənmişlər. Birinci fərmanda bu şikayət Aslan sultanın Şəki qışlaqlarını rəiyyətlərdən alaraq kənar adamların sərəncamına verməsi və bu yolla "qışlaqbaşı" vergisi toplaması haqqındadırsa[58], ikinci fərmanda söhbət onun rəiyyət mülklərini zorla qəsb etməsindən gedir. Fərmanın məzmunundan məlum olur ki, Aslan sultan qəddar bir hökmdar kimi rəiyyət torpaqlarının yarısını zorla qəsb edərək məzkur sahələri özü üçün əkdirir, eyni zamanda həmin torpaqlar hesabına rəiyyətlərdən "malucəhat" vergisi də alırmış.

Şəki rəiyyətlərinin şikayəti ilə əlaqədar olaraq Şah Səfi tərəfindən Şirvan bəylərbəyinin adına göndərilmiş bu fərmanda göstəriş verilir ki, bəylərbəyi vəkilləri həmin məsələni yoxlasınlar. Fərmanda deyilir ki, rəiyyətlərin şikayəti düzgün olduğu təqdirdə torpaqlar onlara geri qaytarılmalı və Aslan sultan həmin sahələr hesabına özü üçün "malucəhat" vergisi toplamalıdır.

Fərmanın yuxarı hissəsində, ortada Allah məfhumunu xatırladan "O" sözü yazılmış, onun altında "Hakimiyyət Allaha məxsusdur", sözləri qeyd edilmiş, aşağıda isə Şah Səfinin möhürü basılmışdır. Dairəvi şəkilli bu möhürün haşiyəsində

---

[57] *T. M. Musəvi.* Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər, Azərbaycan SSR EA Nəşriyyatı, 1965, səh. 86.

[58] Yenə orada, səh. 50.

şiə təriqəti tərəfdarları tərəfindən 14 məsum adlandırılanların adları həkk olunmuşdur. Möhürün orta hissəsində "Şah Səfi varlığı ilə quldur. 1038" cümləsi qeyd olunmuşdur. Fərmanın arxasındakı qeyddə deyilir ki, sənəd etimadüddövlənin yazısı əsasında tərtib olunmuşdur. Bu qeydin altındakı möhür izində "Əlinin ayağı altının torpağı olan Əbutalıb" sözləri oxunur. Sənədin arxasında oxunması hələlik mümkün olmayan daha iki möhür izi vardır.

***Tərcüməsi:***

O [Allah].

**Hakimiyyət Allaha məxsusdur.**

*Möhür izi: "Şah Səfi varlığı ilə quldur".*

Mübarək fərman verildi o haqda ki, Şəkinin rəiyyətləri, acizləri və yoxsulları ərzə çatdırdılar ki, əmirliyin pənahı Aslan sultan onların mülklərinin yarısını zülmkarlıq və zorakılıqla öz sərəncamına keçirmiş və əkin üçün istifadə etməkdədir. Həmin mülklərin hesabına isə yenə də "malucəhat" toplayır. Buna görə qərar buyurduq ki, Şirvan bəylərbəyisinin vəkilləri [işin] həqiqətini yoxlayaraq qeyd olunan əmirlik pənahının rəiyyətlərin mülklərini qayda-qanunun əksinə olaraq ələ keçirdiyi və həmin mülklərin hesabına yenə də "malucəhat" topladığı təqdirdə qərar versinlər ki, lazımi qayda-qanuna diqqət yetirilməsini nəzərinə çatdırdıqdan sonra həmin əmirliyin pənahı rəiyyətlərin mülklərini onların sərəncamına versin və qayda üzrə həmin mülklərin nə qədər "malucəhat"ı olursa, geri alsın. Göstərişləri hərtərəfli həyata keçirib özlərini vəzifədar bilsinlər.

*Yazıldı: 1043-cü ilin rəbiül-sani ayında* (oktyabr/noyabr 1633, – *Tərtibç.*).

## 5. Kiş, Nuxu və Şəkərənd kəndlərinin tiyul verilməsi haqqında II Şah Abbasın hökmü*

*Hökm 1643-cü ilin may/iyun ayında verilmişdir.*
*Surət.*
*Ölçü: 19,4 sm x 31,5 sm*
*Azərbaycan SSR Elmlər Akademiyası Respublika Əlyazmaları fondu, inv. № h – 23/5427.*

Şəki vilayətinə daxil olan Kiş, Nuxu və Şəkərənd kəndlərinin məliklik haqqının Davud bəyə, onun qardaşı Səfiquluya və əmisi oğlu Baydar bəyə bağışlanması haqqında II Şah Abbas tərəfindən hicri 1053-cu ilin rəbiüləvvəl ayında (may/iyun, 1643) verilmiş fərmanın surəti bizə gəlib çatmışdır. Sənədin dəyərli cəhəti onun II Şah Abbas dövründə, şahın xüsusi dəftərxanası tərəfindən tərtib edilməsindədir. Sənədin arxasında üç qeyd və iki möhür izi vardır. Fərmanın əsl nüsxəsinə aid birinci qeyddə deyilir ki, fərman yüksək şahın əmri və etimadüddövlənin yazısı əsasında, keçmiş hökmün mətni üzrə hazırlanmışdır. Bu yazının sonunda fərmanın əsl nüsxəsinə şah möhürünü saxlayan şəxsin möhürünün basılması da qeyd olunmuşdur. "Əlinin ayağı altının torpağı olan Əbutalıb" sözləri yazılmış möhürlə təsdiq edilən ikinci qeyddə deyilir: "Hökmün surəti onun əslinə mütabiqdir. Əsl nüsxə mənim yanımdadır". Üçüncü yazıda hökmün surətinin yüksək şahın əmri əsasında hazırlandığı qeyd edilmişdir. Bu sənəddə Şah Səfinin hicri 1043-cu il səfər ayı (avqust/sentyabr, 1633) tarixli fərmanının qısa məzmunu verilmişdir. Şah Səfinin həmin fərmanından məlum olur ki, şəkili Davud bəy hələ I Şah Abbas dövründən Səfəvilər sarayında şahlara

---

* T. Musəvinin 1977-ci ildə çap olunmuş "Orta əsr Azərbaycan tarixinə dair fars dilli sənədlər" kitabında "**4 №-li sənəd**" olaraq nömrələnib, – *Tərtibç.*

sədaqətlə xidmət etmiş, Şəki mahalındakı Kiş, Nuxu və Şəkərənd kəndlərinin vergiləri hesabına olan gəlir hələ qədim zamanlardan Davud bəyin mənsub olduğu ailənin sərəncamına verilmişdir. Aslan sultanın Şəkidə hakim olduğu dövrdə həmin kəndlərin vergiləri hesabına olan gəlir Şəki vilayətinin tiyuldarı, yəni Aslan sultan tərəfindən mənimsənilmiş və beləliklə, Mehtər Davud, onun qardaşı Səfiqulu və əmisi oğlu Baydar bəy bu gəlirdən istifadə etmək imkanından məhrum olmuşlar. Şəki rəiyyətləri Aslan sultandan Şah Səfiyə şikayətlə müraciət etdikdə Davud bəy də Aslan sultan tərəfindən ailəsinə zülm və təcavüz olunduğunu şahın nəzərinə çatdırmışdır. Bununla əlaqədar olaraq, Şah Səfi Kiş, Nuxu və Şəkərənd kəndlilərinin vergiləri hesabına olan gəlirin Aslan sultanın tiyulundan çıxarılması və həmin kəndlərin məlikliyi haqqının Davud bəyə, Səfiquluya və Baydar bəyə bağışlanılması haqqında fərman vermişdir. Şah Səfinin vəfatından sonra hicri 1053-cu ilin rəbiüləvvəl ayında (may/iyun, 1643) Davud bəy II Şah Abbasa müraciət etmiş və həmin kəndlərin məlikliyi haqqının onlara bağışlanılması haqqında yeni fərman almağa nail olmuşdur.

Fərmanın məzmunundan göründüyü kimi, şəkili Davud bəyin mənsub olduğu ailə Səfəvilər dövrünün adlı-sanlı ailələrindən biri sayılırdı. Şəkinin məlikliyi vəzifəsi uzun illər boyu həmin ailənin nümayəndələrinə tapşırılmış və bu, Nadir şahın hakimiyyəti dövrünədək davam etmişdir[59].

Fərmanda Davud bəyə "şah rikabxanasının qədim mehtəri"[60] kimi ad verilməsi, habelə onun adının "uca və yüksək

---

[59] *T. M. Musəvi.* Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər, Azərbaycan SSR EA Nəşriyyatı, 1965, səh. 18; "Şəki xanlığının tarixindən", Bakı, 1958, Nadir şahın üç fərmanı.

[60] Şahın libasını və şəxsi əşyalarını mühafizə edən ən etibarlı qulluqçu deməkdir.

pənahlı, şöhrətli, şaha yaxın idarəçi" kimi titullarla birlikdə qeyd edilməsi istər I Şah Abbas, istərsə də Şah Səfi dövründə Davud bəyin nüfuzlu dövlət xadimi olduğunu göstərir. Belə bir həqiqətə həmin dövrün mənbələrində də təsadüf olunur. Məsələn, "Zeyli tarixi-aləmaraye Abbasi" əsərində Şah Səfinin Mazandaran səfərindən bəhs olunan yerdə deyilir: "Şahın ən yaxın adamı mehtər Şahnəzər vəfat etdikdən sonra xüsusi adamların ən inanılmışı sayılan Davud bəy rikabxananın mehtəri təyin edildi"[61]. Burada Davud bəyin qardaşı Əvəz bəyin Rəşt şəhərinə vəzir təyin olunması haqqında da məlumat verilir[62].

Şah Səfidən sonra hakimiyyət başına keçmiş II Şah Abbasın dövründə Davud bəy və qardaşları daha mühüm dövlət vəzifələrinə irəli çəkilmişlər. Məsələn, sipəhsalar Rüstəm xan II Şah Abbasın göstərişi əsasında Xorasanda öldürüldükdən sonra Davud bəy Sistan ölkəsinə hakim təyin olunmuşdur[63]. Onun qardaşı Əvəz bəy həmin dövrdə Lar vilayətinin vəziri vəzifəsində işləmişdir. Əvəz bəyin oğlu Allahverdi bəy isə Kəskərin hakimi təyin edilmişdir[64].

II Şah Abbasın hicri 1061-ci ilin səfər ayı tarixli (yanvar/fevral, 1651) fərmanından aydınlaşır ki, Davud bəyin Səfiqulu adlı üçüncü bir qardaşı uzun illər boyu Şəki vilayətinin məliyi olmuşdur[65]. "Abbasnamə" əsərində verilən məlumatdan görünür ki, hicri 1072-ci ildə (1661/1662, – *Tərtibç.*)

---

61 "Zeyli tarixi-aləmaraye Abbasi", Leninqrad, Saltıkov-Şedrin adına Dövlət Kitabxanası, Dornun fondu, № 303, səh. 100 – 109.

62 Yenə orada.

63 *Məhəmməd Tahir Vəhid.* Abbasnamə, Leninqrad, Saltıkov-Şedrin adına Dövlət Kitabxanası, Dornun fondu, № 303, səh. 150.

64 Yenə orada, səh. 225.

65 *T. M. Musəvi.* Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər, Azərbaycan SSR EA Nəşriyyatı, 1965, səh. 95 – 96.

Davud bəy vəfat etmiş və II Şah Abbasın əmri ilə Xorasanda dəfn olunmuşdur. II Şah Abbas Davud bəyin xatirəsini əzizləmək və onun məqbərəsini qorumaq məqsədilə oraya müəyyən vəqflər ayırmışdır[66].

***Tərcüməsi:***

Ən xeyirxah şahın möhürünün yeri.

Dünya itaət etməli hökm verildi o haqda ki, 1043-cu ilin səfər ayında (avqust/sentyabr, 1633, – *Tərtibç.*) behişt məkanlı, uzun illər hökmranlıq etmiş şahın fərmanı verilmişdir. Onun məzmununun xülasəsi belədir: uca və yüksək pənahlı, şöhrətli və daha ali dəstgaha malik, şaha yaxın idarəçi, rikabxananın qədim mehtəri Davud bəyin yaxşı çalışqanlığı, fədakarlığı və xoşxidmətliyi müqəddəs xatirə güzgüsündə parladığına görə, istər behişt məkanlı və Firdövs yurdlu şahın dövründə, istərsə də zavalsız dövlətin zamanında bir sıra bəyəniləsi xidmətlər göstərdiyi üçün [şahın] böyük səs salmış hümməti onun [Davud bəyin] və qohumlarının vəziyyətini gözləməyi və qorumağı ilzam etmişdir. [Davud bəy] ərz etdi ki, Şəki ölkəsinə daxil olan mahalın adları aşağıda qeyd edilən kəndləri:

Kiş kəndi, Nuxu kəndi, Şəkərənd kəndi.

**Bağlandı.**

İrs yolu ilə onun, qardaşı Səfiqulunun və əmisi oğlu Baydar bəyin adlarına köçürülmüşdür. Oranın tiyuldarı və b. [hökumət məmurları] isə onlara zülm etmiş və qaydadan kənar cürbəcür artıq (vergilər) almışlar. [Davud bəy] yalvardı ki, öz, qardaşı və əmisi oğluna aid mahalın məlikliyinin cəmi 3 tüməndən ibarət təxmin edilmiş hissəsi ona və qeyd edilən camaata bağışlansın və güzəşt olunsun. Cavab verməyə vəzi-

[66] *Məhəmməd Tahir Vəhid* Abbasnamə, səh, 270.

fədar olduğumdan onun xahişini qəbul edib qeyd olunan camaatın arzu və istəklərinə şaha layiq lütfkarlıq və hökmrana layiq mehribanlıqla yanaşaraq txaquy ilin (toyuq ili, – *Tərtibç.*) səkkizinci ayının başlanğıcından (21 oktyabr 1633, – *Tərtibç.*) etibarən qeyd olunan mahalın üç tüməndən ibarət cəminin, istər çox, istərsə də azlığından asılı olmadan onların məlikliyinə bağışlanılmış hissəsini oranın tiyuldarının tiyulundan dəyişib, nəsildən-nəsilə, törəmədən-törəməyə keçilməsi şəklində mehribanlıq göstərib mərhəmət buyuraraq onlara bağışladıq, güzəşt etdik və vergilərdən azad etdik. Ali divanın əzəmətli və kəramətli mustofiləri həmin ətiyyəyə aid fərmanı öz daimi dəftərlərində qeydə alaraq onu dəyişdirmə və əvəzolunma şübhələrindən qorusunlar və gözləsinlər. "İxracat" və "əvarizat" ünvanı ilə heç bir vergi almasınlar. Hər hansı ad və rəsmlərlə olursa-olsun, heç bir həvalə etməsinlər. Onların hesabına heç bir şey keçirməsinlər. Yazılı göstərişlər verməkdən və məmurlar göndərməkdən imtina etsinlər. Hökumətin kəramətli hakimləri, tiyuldarları, kələntərləri, məlikləri, amilləri və mübaşirləri tərəfdarlıq və himayəçilik etməyi lazım bilərək onlara, habelə onların məlikliyi sayılan mahala zülmkarlıq və təcavüz etməməlidirlər. Onların minnətdar və ya şikayətçi olmalarının böyük təsir buraxacağını bilməlidirlər. Onlara qayğıkeşlik göstərilməsini, onların qorunmasını, əziz və hörmətli hesab olunmasını, onlara mərhəmət və əzizlik edilməsini lazım bilərək göstərişdən kənara çıxmasınlar. Bu zaman biz şahın mübarək qolunun çəkilməsini xahiş etdilər. Qeyd olunan camaata şaha layiq hüdudsuz mehribanlıq göstərdiyimiz üçün yenə də onların azad olunub bağışlanılmalarını qərara aldıq. Yüksək divanın əzəmətli və kəramətli mustofiləri behişt məkanlı Xaqan şahın fərmanının əvvəldən axıradək bizim tərəfimizdən bütünlüklə təsdiq olunduğunu bilərək buyruqdan kənara çıxmasınlar və hər il

yeni hökm tələb etməsinlər. Fərman ən xeyirxah və ən müqəddəs yüksək rütbəlinin [şahın] günəş əsərli möhürü ilə zinətləndirildikdə ona etimad etsinlər.

*Yazıldı: 1053-cu ilin rəbiül-əvvəl ayında* (may/iyun 1643, – *Tərtibç.*).

### 6. Kiş, Nuxu, Şəkərənd kəndlərinin tiyul verilməsi haqqında Şirvan bəylərbəyisi Xosrov xanın hökmü*

*Hökm 1646-cı ilin* iyun/iyul *ayında verilmişdir.*

*Orijinal.*

*Ölçü: 15 sm* x *32 sm.*

*Azərbaycan SSR Elmlər Akademiyası Respublika Əlyazmaları fondu, inv. № h – 29/5428.*

Kiş, Nuxu və Şəkərənd kəndlərinin vergiləri hesabına olan gəlirin Məlik Səfiquluya və Baydar bəyə aid olması haqqında Şirvan bəylərbəyi Xosrov xanın bu hökmü hicri 1056-cı ilin cəmadiüləvvəl ayında (iyun/iyul, 1646) yazılmışdır. II Şah Abbasın hicri 1058-ci ilin səfər ayı (fevral/mart 1648) tarixli fərmanından (Bax: 7 №-li sənədə) məlum olduğu kimi, qeyd edilən dövrdə Xosrov xan Şirvanın bəylərbəyi idi.

Hökmün məzmunundan məlum olur ki, Şah Səfi və II Şah Abbasın göstərişlərinə baxmayaraq, Şəki vilayətinin hakim və tiyuldarları Kiş, Nuxu və Şəkərənd vergiləri hesabına olan gəliri özləri mənimsəyərək Davud bəyin qohumlarına ondan istifadə etmək imkanı verməmişlər. Buna görə də 1646-cı ilin iyun/iyul ayında Məlik Səfiqulu Şirvan bəylərbəyinin divanına gedərək Şah Səfinin hicri 1043-cu ilin səfər ayı (avqust/sentyabr, 1633) tarixli fərmanını Xosrov xanın nəzəri-

* T. Musəvinin 1977-ci ildə çap olunmuş "Orta əsr Azərbaycan tarixinə dair fars dilli sənədlər" kitabında "**5 №-li sənəd**" olaraq nömrələnib, – *Tərtibç.*

nə çatdırmış və bəylərbəyinin də bu məsələyə dair hökm verməsini xahiş etmişdir. Xosrov xanın hökmündə Kiş, Nuxu və Şəkərənd kəndlərinin gəlirinin Şəki mahalı tiyuldarının sərəncamından çıxarılması və həmin gəlir hesabına olan vəsaitin divan məmurları tərəfindən tiyuldara ödəniləcəyi göstərilmişdir. Bu hökmdə daha Davud bəyin adı çəkilmir və hər üç kəndin vergiləri hesabına gəlirin yalnız Səfiquluya və Baydar bəyə bağışlanması qeyd olunur. Fərmanın sonuna Xosrov xanın möhürü vurulmuşdur. Altıbucaq şəklində olan bu möhürün tarixindən görünür ki, onu hicri 1055-ci ildə (1645/1646) hazırlamışlar.

***Tərcüməsi:***

Yüksək hökm verildi o haqda ki, günəş qədər yüksək olan [şahın] 1043-cu ilin səfər ayı (avqust/sentyabr, 1633, – *Tərtibç.*) tarixli dünya itaət etməli hökmünə əsasən ötən txaquy ilin (toyuq ili, – *Tərtibç.*) 8-ci ayının başlanğıcından (21 oktyabr 1633, – *Tərtibç.*) etibarən aşağıda adları qeyd olunan mahalın:

Kiş kəndi, Nuxu kəndi, Şəkərənd kəndi.

3 tümən Təbriz pulu məbləğindən ibarət vergilər məcmusu, istər çox və istərsə də azlığına bağlı olmadan nəsildən-nəsilə və arxadan-arxaya keçmək şərti ilə Şəki mahalı tiyuldarlarının tiyulundan dəyişdirilərək azad edilmiş, uca və yüksək rütbəli Məlik Səfiquluya və onun əmisi oğlu Baydar bəyə tapşırılmış və mehribanlıqla mərhəmət olunmuşdur. İndi isə qeyd olunan mahalın məliyi uca və yüksək rütbəli Məlik Səfiqulu ali divana gələrək yüksək qol çəkilməsini xahiş etmişdir. Buna əsasən qərar verdik ki, oranın hakim və tiyuldarı günəş qədər yüksək [şahın] dünya itaət etməli hökmündə göstərildiyi qərar üzrə tədbirlər görüb qeyd olunan mahala qarışmasınlar. Yuxarıda yazılmış məbləğin əvəzini günəş

şüalı [şahın] dünya itaət etməli hökmünə uyğun olaraq əzəmətli divan işçilərindən tələb etsinlər. Bu haqda göstəriş verildiyini bilsinlər.

*Yazıldı: 1056-cı ilin cümadiül-əvvəl ayında* (iyun/iyul 1646, – *Tərtibç.*).

*Möhür izi: "Allahın lütfü səninlə olarsa, Xosrov dərgahın bəyənilmişlərindən olar. 1055".*

## 7. Şəki ölkəsi kəndxudalarının şikayəti ilə əlaqədar olaraq II Şah Abbasın fərmanı*

*Fərman 1648-ci ilin fevral/mart ayında verilmişdir.*

*Orijinal, ölçüsü 45* x *21,5 sm*

*Yazılma üslubu: şikəstə*

*Azərbaycan SSR EA Respublika Əlyazmalar fondu, inv. h – 3/8920.*

Şəkiyə aid bu fərman, həmin ölkənin kəndxudaları tərəfindən olunan şikayətlər əsasında hicri 1058-ci ilin səfər (1648-ci ilin fevral/mart) ayında II Abbas tərəfindən Şirvan bəylərbəyisinin adına verilmişdir. Bu fərmandan məlum olur ki, Şəki ölkəsi vaxtilə Aslan sultanın, sonra isə Abbasqulu sultanın tiyuluna verilmişdir. Fərmanda həmin şəxslərin qaydadan kənar olaraq 5 min tümən əlavə vergi toplamaları nəzərə çatdırılmış və Şirvan bəylərbəyisi Xosrov xana göstəriş verilmişdir ki, o din xadimləri və mülkədar nümayəndələri ilə birlikdə qeyd olunan məsələni yoxlasın.

3 №-li sənəddə olduğu kimi, bu sənədin də yuxarı hissəsində "Hökmranlıq Allaha məxsusdur" (الملك لله) sözləri yazıl-

* T. Musəvinin 1965-ci ildə çap olunmuş "Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər" kitabında "**8 №-li sənəd**" olaraq nömrələnib, – *Tərtibç.*

mış və onun altında II Şah Abbasın dairəvi möhürü vurulmuşdur.

Möhürün ortasında "Şahi vilayətin qulu II Abbas 1051" (بندۀ شاه ولایت عباس ثانی ۱۰۵۱) sözləri, onun haşiyəsində isə 14 məsum adlanan şəxslərin adı həkk olunmuşdur.

Sənədin mətnində əlavə vergilərin adlarına, o cümlədən "qışlaqbaşı" (قیشلاق باشی), "malikaneyi əmlak" (مالکانه املاك) və "şıltaqate bihesab" (شلتاقات بیحساب) istilahlarına təsadüf olunur. Eyni zamanda fərmanda yazılmış (دستورالعمل دیوان اعلی) sözlərdən məlum olur ki, həmin dövrün vergiləri haqqında ali divanın xüsusi təlimatı olmuşdur.

Sənədin arxasında Allah sözünü xatırlayan "O" (هو) sözü yazılmış və onun altında fərmanın etimadüldövlənin yazısı əsasında hazırlanması qeyd edilmişdir: از قرار نوشته سیادت و وزارت و اقبال پناه عالیجاه سلطان العلماء اعتماد الدولته العالیته العلیته الخاقانیه، صح شد. Həmin qeydin altındakı möhür izində[67] خلیفه سلطان الحسینی sözləri qeyd edilmişdir.

### *Tərcüməsi:*

Hakimiyyət Allaha məxsusdur.

*Möhür izi: "Şahi vilayətin qulu Abbas. 1051".*

Uğurlu fərman verildi o haqda ki, bu zaman Şəki ölkəsinin kəndxudaları yüksək şahın sarayına gələrək [ona] çatdırdılar ki, vəkillərdən əmirlik və hökumətin pənahı Şəki ölkəsinin hakimi Abbasqulu sultan və qeyd olunan ölkənin keçmiş hakimi Aslan sultan həmin mahalın onların tiyuluna verildiyi tarixdən indiyədək, pul təminatı və rüsumat ünvanı ilə onlardan ali divanın müəyyən etdiyi qaydadan beş min tümən artıq pul almışlar. "Qışlaqbaşı", onların mülklərinin malika-

[67] Bax: *Məhəmməd Tahir Nəsrəbadı.* (Təzkireyi Nəsrəbadi) Tehran, 1317, səh. 15, 16.

nəliyi və digər hesabdan kənar ədalətsizliklər yolu ilə həmin şəxslərin malına zorla sahib çıxmışlar. Buna görə qərara aldıq ki, hökmranlıq və qüdrətin pənahı, dəbdəbə və cəlallı dəstgaha malik, yüksək vəzifəli, əmirlərin əmiri, hökmranlıq bacarığına malik, cəlallı və iqballı Şirvan bəylərbəyisi Xosrov xan, nurani şəriət adamları və həmin vilayətin əhalisinin yüksək [nümayəndələri] ilə birlikdə [işin] həqiqətinə ətraflı surətdə yetişərək ədalət, haqq və hesabın tələb etdiyi qayda əsasında tədbirlər görsün. Elə etsinlər ki, nəzərdə tutulmuş hesabla uyğun gəlməyən heç bir tədbir görülməsin. Bunu vacib sayaraq özlərini vəzifədar bilsinlər.

*Yazıldı: 1058-ci ilin səfər ayında* (fevral/mart 1648, – *Tərtibç.*).

## 8. Şəki ölkəsi hakiminə II Şah Abbasın göndərdiyi fərman*

*Fərman 1648-ci ilin* fevral/mart *ayında verilmişdir.*

*Orijinal ölçüsü 33,5* x *15 sm.*

*Yazılma üslubu: şikəstə.*

*Azərbaycan SSR EA Respublika Əlyazmalar fondu, inv. 8919.*

Bu fərmanı II Şah Abbas Şəki hakiminə göndərmişdir. Fərmandan məlum olur ki, hicri 1058-ci ilin səfər (1648-ci ilin fevral/mart) ayında Şəki ölkəsi rəiyyətlərinin nümayəndələri ali divana getmiş və vergilərin dözülməz dərəcədə ağır olması haqqında şikayət etmişlər. Bu sənədin mətni daxilində hicri 1043-cü ilin cümadiül-sani (1633-cü ilin dekabr

---

* T. Musəvinin 1965-ci ildə çap olunmuş "Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər" kitabında "**9 №-li sənəd**" olaraq nömrələnib, – *Tərtibç.*

ayı)* ayında Şah Səfi tərəfindən verilmiş ayrı bir fərmanın məzmunu da qeyd olunmuşdur. Fərmanda Şəki ölkəsi rəiyyətlərinin şikayət etmələrindən, qoyulmuş qayda və səviyyədən daha artıq orada vergilər toplanmasından danışılır və hakimlərin vergi toplanması işində, rəiyyətlərə aid divan (ديوان اعلى رعايت) tərəfindən verilmiş təlimatdan kənara çıxmaması haqqında göstəriş verilmişdir.

Fərmanın yuxarısında "Hökmranlıq Allaha məxsusdur" sözləri yazılmış, onun altında 5 №-li sənəddəki möhür izinə oxşar möhür yeri vardır. Bu möhürləri fərqləndirən cəhət yalnız onların tarixləridir. Birinci möhürün tarixi hicri 1051-ci il (miladi 1641/1642, – *Tərtibç.*) olduğu halda bu möhürdə hicri 1052-ci il tarixi (miladi 1642/1643, – *Tərtibç.*) əks edilmişdir.

Möhürün sağ tərəfində, oxunması fərmanın 2-ci sətrində lazım gələn "Şah babam Allah onun sübutunu daha da parlaq etsin" (شاه بابام انارالله برهانه) sözləri qeyd edilmişdir. Sənədin arxasında Allah məfhumu mənasında işlədilən "O" (هو) sözü yazılmış, altında isə fərmanın hansı əsas üzrə verilməsi qeyd olunmuşdur. Bu qeyddə deyilir: "Seyyidlik, vizarət və iqbal pənahlı, uca rütbəli, alimlərin sultanı, ali və yüksək etimadüldövlənin qeydi əsasında, rəiyyətlərin keçmiş hökmlə əlaqədar olaraq. (Bağlandı)"[68].

---

* Ola bilsin ki xatırlanan fərman 1043-cü ilin cümadiül-sani (1633-cü ilin dekabr) ayında yox, həmin ilin rəbbiül-sani (1633-cü ilin oktyabr/noyabr) ayında verilmişdir (Bax: 4. Şəki ölkəsi haqqında I Şah Səfinin fərmanı). Yaxud əksinə, bu kitabdakı 4 №-li fərmanın tarixi 1043-cü ilin rəbbiül-sani (1633-cü ilin oktyabr/noyabr) ayı yox, həmin ilin cümadiül-sani (1633-cü ilin dekabr) ayıdır, – *Tərtibç.*

68 از قرار نوشسته سيادت و وزارت و اقبال پناه عاليجاه سلطان العلما اعتماد الدوله العاليته العليته در ضمن پرو انچه سابق كه در نرد رعاياست صم شد.

Həmin qeydin altında yenə də خليفه سلطان الحسينى sözləri həkk olunmuş möhür vurulmuşdur.

Şəki məlikliyinə aid bu fərman hər şeydən əvvəl qeyd olunan dövrdə feodal hakimlərin zülm və talançılıqlarına qarşı Şəki rəiyyətlərinin narazılıq və etiraz hərəkatının müdavim xarakter daşıdığını sübut edir.

***Tərcüməsi:***

Hakimiyyət Allaha məxsusdur.

*Möhür izi: "Şahi vilayətin qulu Abbas. 1052"*

Uğurlu fərman verildi o haqda ki, Şəki ölkəsinin rəiyyətləri və acizləri divana gələrək hökmdarların hökmdarı, behişt məkanlı şah babamın (Allah onun sübutunu daha da parlaq etsin) 1043-cü ilin cümadiül-sani ayında (dekabr 1633, – *Tərtibç.*) verilmiş şərif hökmünü göstərdilər. [Hökmün] məzmunu belədir ki, məzkur rəiyyətlər və acizlər şikayət edib dedilər ki, [onlar] ali divanın müəyyən etdiyi qaydaya uyğun olaraq "malucəhat" və digər divan vergilərinin öhdəsindən gəlirlər. Adı yuxarıda qeyd olunan ölkənin hakimləri müəyyən olunmuş qaydadan artıq pul toplayır və qoyulmuş qaydanı nəzərə almırlar. Buna görə də qərara alındı ki, qeyd olunan ölkənin hakimləri hər hansı məsələ barədə rəiyyətlərə aid ali divandan aldıqları göstərişlərə əməl edərək, ondan bir dinar belə artıq tələb etməsinlər və istəməsinlər. Şahdan xahiş etdilər ki, bu barədə fərman versin. Buna görə qərara aldıq ki, qeyd olunan ölkənin hakimi fərmanın məzmun və dəlillərindən kənara çıxmasın və yayınmasın. Şikayət olunduğu təqdirdə istintaq ediləcəyi barədə fikirləşsin. Divanın müəyyən etdiyi qaydaya uyğun tədbir görsün. Bu barədə göstəriş versin və hər il yeni hökm tələb etməsin.

*Yazıldı: 1058-ci ilin səfər ayında* (fevral/mart 1648, – *Tərtibç.*).

## 9. Şəki rəiyyətlərinin ərizəsi və II Şah Abbasın hökmü*

*Hökm 1650-ci ilin dekabr/1651-ci ilin yanvar ayında verilmişdir.*

*Orijinal.*

*Ölçü: 16,7 sm x 293 sm.*

*Azərbaycan SSR Elmlər Akademiyası Respublika Əlyazmaları fondu, inv. № h – 21/8927.*

Bu fərman Şəki hakimi Abbasqulu sultanın qəddarlığı və zülmkarlığı haqqında Şəki rəiyyətlərinin növbəti kollektiv şikayəti ilə əlaqədar olaraq hicri 1061-ci ilin məhərrəm ayında (dekabr, 1650/yanvar 1651) II Şah Abbas tərəfindən verilmişdir. Şəki hakiminə bilavasitə xitab və Şirvan bəylərbəyisinin vəkillərinə isə göstəriş şəklində yazılmış bu fərmanın yalnız dövrün yüksək divanı tərəfindən hazırlanmış ikinci nüsxəsi – "müsəvəddəsi" bizə gəlib çatmışdır. Belə ehtimal etmək olar ki, fərmanın əsli Şirvan bəylərbəyinə, müsəvəddəsi isə Şəki hakiminə göndərilmişdir.

Fərman ilk növbədə Şəki hakimlərinin talançılığının mütəmadi xarakter daşıdığını və bu barədə olan şikayətlərə dövrün şahları tərəfindən uzun illər boyu etinasızlıq göstərildiyini sübut edir. Digər tərəfdən isə o, həm şikayətçi rəiyyətə bəslənilən münasibət, həm də dövrün dəftərxana işləri haqqında müəyyən təsəvvür yaradır.

Sənədin fotosurətindən göründüyü kimi, burada həm rəiyyətin şikayət məktubunun mətni, həm şahın şifahi göstərişinin məzmunu, həm də həmin göstəriş əsasında ali divan tərəfindən hazırlanmış fərmanın mətni vahid səhifədə veril-

* T. Musəvinin 1977-ci ildə çap olunmuş "Orta əsr Azərbaycan tarixinə dair fars dilli sənədlər" kitabında "**6 №-li sənəd**" olaraq nömrələnib, – *Tərtibç.*

mişdir. Səhifənin alt hissəsində mətni verilmiş kollektiv məktubda Şəki rəiyyətləri bildirir ki, onların sərəncamında olan qışlağı Şəki hakimi Abbasqulu sultan zəbt etmişdir. O, həmin qışlağı özgələrə icarəyə verir və bu yolla "qışlaqbaşı" vergisi toplayır. Məktubun sonunda xahiş edilir ki, şah həmin hakimin qeyd olunan qışlağın işinə qarışmaması haqqında ayrıca fərman versin. Burada qışlaq yeri Şəki rəiyyətlərinin xüsusi mülkü adlandırılır, onun icarəyə verilməsi və ya istifadə hesabına oradan "qışlaqbaşı" vergisi toplanılması işinin isə yalnız mülk sahiblərinə aid olduğu iddia edilir. Məktubun sağ tərəfindəki haşiyə boşluğunda Allah məfhumunu xatırladan "O" (هو) sözünün altında, dərkənar şəklində olan yazıda, şahın müvafiq şifahi qeydləri əsasında Şəkinin hakimi adına fərman hazırlanması haqqında göstəriş verilmişdir. Bu göstərişlə əlaqədar həmin səhifənin yuxarı hissəsində, şikayət məktubunun mətni qarşısında II Abbasın fərmanı yazılmışdır. Fərmanın yuxarısında Allah məfhumunu xatırladan "O" (هو) sözü yazılmış, həmin söz ilə mətn arasında olan boş yerə dairəvi möhür basılmışdır. Bu möhür izində iki cümlə diqqəti cəlb edir. Möhürun ortasında həkk olunmuş birinci cümlədə "Şahi vilayətin qulu II Abbas", onun alt hissəsində isə "yüksək divanın müsvəddə möhürü" sözləri oxunur.

Buradan məlum olur ki, həmin dövrdə fərmanların əsil nüsxəsi şahın əz möhürü, müsvəddə nüsxələri isə Şahın adı ilə yüksək divan üçün hazırlanmış müsvəddə möhürü ilə təsdiq edilirdi. Fərmanda Abbasqulu sultana göstəriş verilmişdir ki, o, rəiyyət mülkü olan qışlağa şəxsən qarışmasın və heç kəsin qaydadankənar şəkildə həmin qışlaqda qışlamasına, mənzil və ya məskən salmasına imkan verməsin. Fərmanın sonunda Şirvan bəylərbəyinin vəkilləri həmin işdə Şəki rəiy-

yətlərinə yardım göstərməyə, Şəki hakimi isə həmin hökmdə nəzərə çatdırılan qaydanı qorumağa vəzifədar edilmişdir. Bu sənədin arxasına üç nəfərin möhürü basılmışdır. Birinci möhür izində "Xəlifə Sultan əl-Hüseyni", ikinci möhür izində "Şaha ümid bağlayan rəiyyət Məhəmməd Mehdi", üçüncü möhür izində isə "Onun (Şahın) qulu olan Məhəmməd övladı Əziz" sözləri oxunur. "Təzkireyi-Nəsrabadi" əsərində verilən məlumatdan görünür ki, "Xəlifə əl-Hüseyni" sözləri həkk edilmiş möhürün sahibinin əsil adı Seyid Əlaəddin Hüseyn olmuşdur. Bu şəxs I Şah Abbas dövründə vəzir vəzifəsində işləmiş, Şah Səfi hakimiyyət başına keçdikdən sonra onu həmin vəzifədən kənar etmişdir. Lakin II Şah Abbas Xəlifə Sultan əl-Hüseynini yenidən hökumət işlərinə cəlb edərək özünün ən böyük vəziri – "vəzire əzəm" qoymuşdur[69]. Xəlifə Sultan əl-Hüseyni həyatının son dövrünədək həmin vəzifədə çalışmış və hicri 1054-cu ildə (1644/1645*) Mazandaranda vəfat etmişdir. "Şaha ümid bağlayan rəiyyət Məhəmməd Mehdi" sözləri həkk olunmuş möhürün sahibi o dövrdə sədarət divanına başçılıq edən qorunmuş məmləkətlərin sədri Həbibullah oğlu Məhəmməd Mehdidir[70]. Sənədin arxasındakı üçüncü möhürün sahibi Əzizin şəxsiyyətini müəyyənləşdirmək hələlik mümkün olmasa da, həmin iki möhür vasitəsilə belə bir həqiqət aşkara çıxır ki, o dövrdə şahın adına gələn şikayət məktublarına ən böyük vəzir ‘(وزير اعظم) qorunmuş məmləkətlərin sədri (صدر ممالك محروسه) və digər yüksək rütbəli şəxsdən ibarət müəyyən üçlük baxmış və şahın göstərişi əsasında şikayətlərə cavab hazırlamışlar.

---

[69] *Məhəmməd Tahir Nəsrabadi.* Təzkireyi-Nəsrabadi, Tehran, 1317, səh. 15–16.

* T. Musəvinin əsərində 1654-cü il verilib. Amma hicri 1054-cü il miladi 1644/1645-ci illərə uyğun gəlir, – *Tərtibç.*

[70] Yenə orada, səh. 16.

***Tərcüməsi:***

O [Allah].

Ən kiçik duaçılar olan Şəki ölkəsi rəiyyətlərinin ərizəsi.

Ərizə yetişən ən yüksək məqama çatdırılır ki, Şəki hakimi, əmirliyin pənahı Abbasqulu sultan bu yoxsulların mülkü olan qışlağı ətraf camaata icarəyə verərək onun "qışlaqbaşı"-sını özü mənimsəyir. Xahiş olunur o haqda ki, ən xeyirxah padşahın başına təsəddüq olaraq ürəyi yumuşaqlılıqla ədalət hökmü versinlər, ta ki qeyd edilən əmirlik pənahı bu yoxsulların mülkü olan həmin qışlağa qarışmayaraq imkan versin ki, özümüz istənilən adama icarəyə verib onun "qışlaqbaşı"-sını da özümüz əldə edək. İşarə edilmiş [şəxs] bu yoxsulların mülkü olan qışlağa qarışmasın ki, Allahın və peyğəmbərin yanında o, düzgün iş sayılmır. Yüksək şahın göstərişi əsas göstərişdir.

***

O [Allah].

Nəzərə çatdırılmış qeydlər əsasında oranın hakimi adına mübarək hökm yazsınlar. **Bağlandı.**

***

*Möhür izi: "Şahi vilayətin qulu İkinci Abbas. Yüksək divanın müsvəddə möhürü."*

Dünya itaət etməli hökm verildi o haqda ki, əmirliyin pənahı, zinətli əmirlik olan Şəkinin hakimi Abbasqulu sultan rəiyyətlərin qışlaq mülkü ətrafına dolanmayaraq qaydadan kənar heç bir adamın onların qışlağında mənzil və məskən salıb qışlamasına imkan verməsin. Rəiyyətlərin sorğu-suala səbəb olan şikayətindən çəkinsin. Oradakı bəylərbəyi vəkillərinin öhdəsinə düşür ki, rəiyyətlərə göstərərək qeyd olunan əmirlik pənahına hökmə tabe olmamaq və ondan yayınmaq imkanı verməsinlər.

*Yazıldı: 1061-ci ilin məhərrəmül-həram ayında* (dekabr 1650/yanvar 1651, – *Tərtibç.*).

## 10. Şəki ölkəsinin vergi məsələləri haqqında II Şah Abbasın fərmanı*

*Fərman 1650-ci ilin dekabr/1651-ci ilin yanvar ayında verilmişdir.*

*Orijinal.*

*Ölçü: 37 sm* x *14,5 sm.*

*Azərbaycan SSR Elmlər Akademiyası Respublika Əlyazmaları fondu, inv. № h – 28/8924.*

Şəki ölkəsi məlikləri və ağsaqqallarının şikayəti əsasında hicri 1061-ci ilin məhərrəm ayında (dekabr, 1650/yanvar 1651) II Şah Abbas tərəfindən verilmiş digər fərmanın orijinalı da bizə gəlib çatmışdır. Fərmanın məzmunundan görünür ki, həmin dövrdə mərkəzi hökumət Şəki ölkəsi əhalisindən təkcə ayrı-ayrı vergilər deyil, ümumi məbləği qabaqcadan müəyyən edilmiş nağd pul vəsaiti də toplayırdı. Dövlət xərcləri və ya dövlət xərclərinə yardım ("ixracat", "mədədxərc") adı ilə tələb edilən həmin pul vəsaitinin ümumi məbləği ölkənin hakiminə qabaqcadan bildirilirdi. Hakim isə tələb olunan vəsait hesabına ölkənin hər hansı kəndi və yaşayış məntəqəsi əhalisindən nə qədər pul toplanılmasını müəyyənləşdirir, yerlərdəki məlikləri və ya ağsaqqalları həmin pulları toplayıb ödəməyə vəzifədar edirdi. Hər hansı kənd əhalisi tələb olunan vəsaiti təbii fəlakət, yoxsulluq, yaxud məhsulsuzluq üzündən ödəməyə qadir olmadıqda hakim onların payına düşən hissəni də digər rəiyyətlərdən əlavə mü-

* T. Musəvinin 1977-ci ildə çap olunmuş "Orta əsr Azərbaycan tarixinə dair fars dilli sənədlər" kitabında "**7 №-li sənəd**" olaraq nömrələnib, – *Tərtibç.*

kəlləfiyyət şəklində toplayır və mərkəzi hökumətin tələbini qüsursuz şəkildə ödəyirdi. Fərman Danqı, Meşəbaşı və Qax bölüklərinin keçmişdə Şəki ölkəsinə tabe olduğunu, həmin yerlərdə yaşayan əhalinin ağır vəziyyətini, onların vergiləri ödəmək iqtidarına malik olmadıqlarını sübut edir. Fərmanın məzmunundan görünür ki, II Şah Abbas belə vəziyyət qarşısında əsla güzəştə getməmiş, Danqı, Qax və Meşəbaşı rəiyyətlərinin payına düşən "ixracat" və "mədədxərc" vəsaitinin toplanılması lüzumunu bir daha təkid etmişdir. Bununla yanaşı, o, Şirvan bəylərbəyi Xosrov xana göstəriş vermişdir ki, vəsaiti toplamaq işində Şəki hakiminə yardım göstərsin. Fərmanın yuxarı hissəsində Allah məfhumunu xatırladan "O" (هو) sözü, ondan bir qədər aşağıda "Hakimiyyət Allaha məxsusdur" cümləsi yazılmışdır. Bu cümlə ilə mətn arasındakı boş yerə şahın möhürü basılmışdır. Dairəvi şəkilli bu möhürün haşiyəsində islam dininin şiə təriqətinə mənsub olanlar tərəfindən 14 məsum adlandırılan şəxslərin adları qeyd edilmişdir. Möhürun orta hissəsində "Şahi vilayətin qulu II Abbas, 1059" sözləri həkk olunmuşdur. Fərmanın arxasında bir böyük qeyd, bir tuğra, 4 kiçik qeyd və 6 möhür izi vardır. Böyük qeyddə deyilir ki, fərman etimadüd-dövlənin yazısı üzrə, Azərbaycanın uvaricəsində[71] zəbt olunan izahatın cavabında tərtib edilmişdir. Bu qeydin aşağısındakı tuğrada "Əlinin iti, şeyxlərin sultanı" sözləri, tuğranın altındakı möhür izində "Xəlifə Sultan əl-Hüseyni" adı oxunur.

Fərmanın arxasında ayrı-ayrı möhürlərlə təsdiq olunmuş kiçik qeydlər onun düzgün yazılmasını, fərmanın məzmunu-

---

[71] Uvaricə – vergilərin toplanılması və hansı məqsədlərə sərf olunmasına nəzarət edən dəftərxana deməkdir. İstilahın geniş izahı üçün bax: *T. M. Musəvi.* Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər, Azərbaycan SSR EA Nəşriyyatı, 1965, səh. 37.

nun, tovcih və sərxət dəftərlərində qeydə alınmasını göstərir.

*Tərcüməsi:*

O [Allah].

**Hakimiyyət Allaha məxsusdur.**

*Möhür izi: "Şahi vilayətin qulu İkinci Abbas, 1059".*

Uğurlu fərman verildi o haqda ki, bu zaman Şəki ölkəsinin məliyi və ağsaqqalları ərzə çatdırdılar ki, Şəki ölkəsindən hər hansı "ixracat" toplanılması lazım gəldikdə Danqı, Meşəbaşı və Qax bölükləri öz həqiqi hissəsinin öhdəsindən gəlmir. Onların hissəsi Şəki rəiyyətləri üzərinə qoyulub bölüşdürülərək həmin rəiyyətlərdən toplanılır.

Buna görə qərar buyurduq ki, Danqı, Qax və Meşəbaşı rəiyyətləri qeyd olunan ölkədən toplanılması lazım gələn hər hansı "məxaric" köməyi və "ixracat" pullarının hesab üzrə onların payına düşən hissəsinin öhdəsindən gəlib, onu dayandırılası hesab etməsinlər. Hökmranlıq və şövkətin pənahı, dəbdəbə və cəlallı hakimiyyətə malik, yüksək rütbəli, iqballı və hökmran idarəçi Şirvan bəylərbəyisi Xosrov xan vəzifədar olunur ki, lazımi yardım göstərsin və elə etsin ki, bir adama belə ağırlıq düşməsin və zülm olunmasın. Bütün göstərişləri həyata keçirib hər il yeni hökm tələb etməsinlər və özlərini vəzifədar bilsinlər.

*Yazıldı: 1061-ci ilin məhərrəm ayında* (dekabr 1650/yanvar 1651, – *Tərtibç.*).

## 11. Şəki məliyi Səfiqulunun şikayəti ilə əlaqədar olaraq II Şah Abbasın fərmanı*

*Fərman 1651-ci ilin yanvar/*fevral *ayında verilmişdir.*

*Orijinal, ölçüsü 59,6* x *24 sm.*

*Yazılma üslubu: şikəstə.*

*Azərbaycan SSR EA Respublika Əlyazmalar fondu, inv. h – 6/8931.*

Şəki ölkəsinə aid bu fərman hicri 1061-ci ilin səfər (1651-ci ilin yanvar/fevral) ayında Şah II Abbas tərəfindən verilmişdir. Fərmanın məzmunundan məlum olur ki, həmin dövrdə Şəki ölkəsinin məliyi olmuş Səfiqulu, Şəkiyə daxil olan Danqı, Qax və Meşəbaşı məntəqələri rəiyyətlərinin ona vergi verməkdən boyun qaçırmaları haqqında şaha şikayət etmişdir. Həmin məsələ ilə əlaqədar olaraq fərmanda Səfiqulunun Şəki ölkəsinə məlik təyin olunması bir daha təkid edilmiş, Danqı, Qax, Meşəbaşının Şəki ölkəsi tərkibinə daxil olması bir daha təsdiq olunmuşdur. Fərmanda Şirvan bəylərbəyisi Xosrov xana və Qarabağ bəylərbəyisi Murtuzaqulu xana göstəriş verilmişdir ki, vergilərin toplanması işində Səfiquluya yardım etsinlər. Sənəddə həmin bəyləribəyilərə tapşırılmışdır ki, onlar Şəkiyə aid olan tədbirlərini yalnız Səfiqulunu məsləhəti əsasında həyata keçirsinlər. Buradan belə bir nəticə çıxır ki, o dövrdə Şəki ölkəsi nisbətən müstəqil məliklik hesab olunurmuş. Fərmanda Azərbaycan tarixi üçün maraqlı olan ayrı hadisələr də xatırlanmışdır. Məsələn dəftərxana məlumatlarına istinadən verilmiş izahatdan aydın olur ki, hicri 1025-ci ilin cümadiül əvvəl (1616-cı ilin may/iyun) ayında Danqı məlikliyi Danqılı Müzəffərə verilmiş, sonra

* T. Musəvinin 1965-ci ildə çap olunmuş "Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər" kitabında "**10 №-li sənəd**" olaraq nömrələnib, – *Tərtibç.*

onun yerinə Məlik Yusif təyin olunmuşdur. İndi Qax rayonu tərkibində sayılan Meşəbaşı kəndinin keçmişdə Fərasad mahalına daxil olması və Beşpara adlandırılması etimal edilmişdir. Hicri 998 ci ildə (1589/1590) Məlik Qaraca adlı bir şəxsin Qax və Beşparaya hökmdar təyin olunması fərmanda təsdiq edilmişdir.

Fərmanın yazılma üsulu 7 və 8 №-li sənədlərdən o qədər də fərqlənmir. Onun yuxarısında II Abbasın möhürü vurulmuşdur. Fərmanın arxasında bir qeyd və toğra, habelə bir neçə möhür izi vardır. Qeyddə deyilir: "Seyyidlik, vizarət və iqbal pənahlı, uca rütbəli, alimlər sultanı, ali və yüksək xaqanlığın etimadüldövləsinin qeydi əsasında (Bağlandı)"[72].

Həmin qeydin altındakı toğrada "Əlinin iti, şeyxlərin sultanı Şeyxəli" (الکلب علی سلطان مشایخ شیخعلی) sözləri yazılmış və onun alt tərəfinə 7 və 8 №-li sənədlərin arxasında olan (خلیفه سلطان الحسینی) məzmunlu möhür vurulmuşdur.

Sənədin arxasında orta hissədə daha beş kiçik qeyd vardır. Ayrı-ayrı möhürlərlə təsdiq olunmuş bu qeydlərdə "dəftərdə qeyd olunsun" (ثبت دفتر گردد), "yazıldı" (ثبت شد), "qeydə alındı" (نوشته شد) və s. sözlər yazılmışdır.

Möhürlərin daxilində محمد، و مقدم الاسلطان...
یارب نظر از علی گدابازمدار sözlərini oxumaq mümkün olur.

***Tərcüməsi:***

O [Allah]

Hakimiyyət Allaha məxsusdur.

*Möhür izi: "Şahi vilayətin qulu II Abbas.*

Uğurlu fərman verildi ondan ötrü ki, Şəki ölkəsinin məliyi ali və yüksək rütbəli Məlik Səfiqulu ərz etdiyinə görə, Şəki və

72 از قرار نوشته سیادت و وزارت و اقبال پناه عالیجاه سلطان العلمائی اعتمادالدولته العالیته العلیته الخاقانیه، صم شد.

onun tabeliyində olan Danqı, Qax və Meşəbaşının məlikliyi alicənab hökm mövcibincə ona verilmişdir. Danqı və sair [yerlərin] rəiyyətləri [həmin vəzifənin] ona rücu olunduğu tarixdən bəri qeyd olunan şəxsə vergilər [rüsum] ödəməmişlər. Dəftərxana tərəfindən təsdiq olunmuşdur ki, Şəki ölkəsinin və ona tabe olan yerlərin məlikliyi və ağsaqqallığı hökm əsasında məzkur ali və yüksək rütbəli [şəxsə] verilmişdir. Sonra elə olmuşdur ki, o vilayətdə məmul olan qayda mövcibincə keçmiş məliklərə ödənilən vergilərin [rüsumun] qeyd olunan şəxsə ödənilməsini müəyyən səbəblər üzündən rəva bilməmişlər. Danqı və Qax ayrı-ayrılıqda qeyd olunan ölkənin bölükləri hesab olunur. Meşəbaşı kəndi isə həmin ölkənin bölüklərindən olan Fərasadın tərkibinə daxildir və [oradan] müəyyən məbləğ pul toplanması məlumdur. Qeydə alınmış cümadiül-əvvəl 1025-ci il tarixli (may/iyun 1616, – *Tərtibç.*) hökm mövcibincə Danqı məlikliyi danqılı Məlik Müzəffərə verilmişdir. Sonra belə olmuşdur ki, [şahın] Gürcüstan səfərində [Səfiqulu] səma qədər yüksək olan dərgaha gəlib astananı opmək şərəfinə nail olmuş, onun səmimiliyi və dostluğu zahirə çıxdığına görə yenidən [həmin məliklik] ona mərhəmət edilmişdir. Sonra isə Məlik Yusifə verilmişdir.

Qeydə alınmış doqquz yüz doxsan səkkizinci il (miladi 1589/1590, – *Tərtibç.*) tarixli hökmə əsasən Qax və Beşpara məlikliyi Məlik Qaracıya verilmişdir. Doğrusu budur ki, Beşparanın həmin Meşəbaşı olmasını və məliklərin həyatda olub olmamalarını [hökumət] dəftərindən müəyyənləşdirmək mümkün olmur. [Beləliklə] qərara alındı ki, dünya itaət etməli hökmə əsasən qeyd olunan mahallardan hər hansı biri yuxarıda adı çəkilmiş şəxsin (Məlik Səfiqulunun) məlikliyi altında olarsa, həmin işin rüsumunu dünya itaət etməli hökmdə nəzərə alındığı kimi və oradakı adi qayda üzrə məzkur ali və yüksək rütbəli [şəxsə] ödəsinlər. Ötən illərin vergiləri he-

sabına həmin yerdə ödənilməmiş bir şey qalmış olsa, qayda üzrə toplansınlar.

[Məlik Səfiqulu] bir daha xahiş etdi ki, Şirvan və Qarabağ bəylərbəylərinin sərəncamına fərman göndərilsin. Qeyd olunan mahalın rəiyyətləri inad göstərdikləri, özbaşınalıq etdikləri təqdirdə onlar lazımınca yardım etsinlər və göstəriş versinlər ki, müvafiq rüsumu ödəyərək məzkur şəxsin sözündən və düzgün məsləhətlərindən kənara çıxmasınlar, öz tapşırıq və təsahüb işlərini qeyd olunan şəxsin hüzurunda həyata keçirsinlər. Buna görə qərara aldıq ki, hökmranlıq və qüdrətin pənahı, dəbdəbəli və cəlallı dəsgaha malik, yüksək vəzifəli, cəlallı və iqballı idarəçi Şirvan bəylərbəyisi Xosrov xan habelə hökmranlıq və qüdrətin pənahı, dəbdəbəli və cəlallı dəstgaha malik, yüksək vəzifəli cəlallı və iqballı idarəçi, məsahətqacar Qarabağ bəylərbəyisi Murtuzaqulu xan həmin mahalın əzəmətli mustofilər tərəfindən təsdiq olunmuş məlikliyi müəyyən vahid təyin etdiyi təqdirdə və [həmin vahid] qeyd olunan ali yüksək rütbəli [şəxsə] ödənməli olduğu halda, göstəriş versinlər ki, məzkur mahalın məliklik rüsumunu həmin vilayətdəki qayda üzrə qeyd edilən ali və yüksək rütbəliyə aid etsinlər. Öz tövcih və təxsislərini qeyd olunan şəxsin məlumatı və yazılı göstərişi ilə həyata keçirsinlər, lazımi yardım göstərərək elə etsinlər ki, onların tərəfindən heç kəsə zülm olmasın və heç kəs haqqında qaydadan kənar rəftar edilməsin. Bu göstərişi həyatda keçirib hər il yeni hökm tələb etməsinlər.

*Yazıldı: 1061-ci ilin səfər ayında* (yanvar/fevral 1651, – *Tərtibç.*).

## 12. Şəki vəzirinin rüsumu haqqında II Şah Səfinin (Şah Süleyman) hökmü*

*Hökm 1667-ci ilin aprel/may ayında verilmişdir.*
*Orijinal.*
*Ölçü: 17,8 sm x 40 sm.*
*Azərbaycan SSR Elmlər Akademiyası Respublika Əlyazmaları fondu, inv. № h – 25/8922.*

Bu fərman sonralar özünü Şah Süleyman adlandırmış II Şah Səfi tərəfindən 1077-ci ilin zilqədə ayında (aprel/may, 1667) verilmişdir. Fərman Şəki hakiminin vəziri Mirzə Kamranın vəzirlik rüsumunun Şəki kəndxudaları və rəiyyətləri tərəfindən 14 il müddətində ödənilməməsi məsələsinin necə həll olunduğuna dair Şirvan bəylərbəyi Nəcəfqulu xanın müvafiq izahatı əsasında tərtib edilmişdir. Onun məzmunu Şəkidə kütlələrin on illər davam etmiş etiraz hərəkatını oxucunun nəzərində canlandırır.

"Abbasnamə" əsərində verilən məlumatdan görünür ki, hicri 1072-ci ildə (1661/1662) şirvanlıların böyük bir dəstəsi II Şah Abbasın sarayına getmiş və o vaxt Şirvan bəylərbəyi olan Məhəmmədi xanın zülmkarlığı haqqında şaha şikayət etmişdir[73]. II Şah Abbas bu işin yoxlanılmasını Fətəli bəyə tapşırmışdır. Fətəli bəy şikayətçilərlə birlikdə Şirvana gəldikdə Şirvan bəylərbəyi etinasızlıq göstərmiş, şikayətçilərin bir neçəsini onun gözü qarşısında zəncirlədərək zindana atmışdır. Fətəli bəy paytaxta qayıtdıqdan sonra Məhəmmədi xanın bu hərəkəti haqqında II Şah Abbasa məlumat vermiş-

---

* T. Musəvinin 1977-ci ildə çap olunmuş "Orta əsr Azərbaycan tarixinə dair fars dilli sənədlər" kitabında "**8 №-li sənəd**" olaraq nömrələnib, – *Tərtibç.*

[73] İstilahın izahı ucun bax: *T. M. Musəvi.* Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər. Azərbaycan SSR EA Nəşriyyatı, 1965, səh. 36.

dir. Nəticədə II Şah Abbas Məhəmmədi xanı vəzifədən götürərək, onun əmlakını hökumət xeyrinə müsadirə etdirmiş, İrəvan bəylərbəyi Nəcəfqulu xanı Şirvana bəylərbəyi qoymuşdur[74]. Bu hadisədən beş il sonra verilmiş bəhs etdiyimiz fərmanın məzmunundan görünür ki, Nəcəfqulu xan Şirvanda bəylərbəyi vəzifəsində çalışdığı dövrdə kütlələrin narazılığının qarşısını almağa səy göstərmiş, bu məqsədlə Şəki vilayətində müəyyən tədbirlərə əl atmışdır. II Şah Səfi hakimiyyət başına keçdikdən sonra ehtimal ki, öz tədbirləri haqqında şaha müəyyən məlumat vermişdir. Həmin məlumatın bəhs etdiyimiz fərmanda əksini tapmış hissəsindən görünür ki, II Şah Abbasın və Şirvan bəylərbəyinin keçmişdə dəfələrlə verdikləri göstərişlərə baxmayaraq, Şəki rəiyyətləri vəzirlik rüsumunu ödəməkdən illər boyu boyun qaçırmışlar. Bununla əlaqədar II Şah Abbas qeyd olunan əlavə verginin zorla toplanılması məqsədilə Şəkiyə xüsusi divan məmuru (mühəssil)[75] göndərmişdir. Vəzirlik rüsumunun zorla toplanıldığı təqdirdə rəiyyətlərin ölkədən qaçıb dağılacağını yəqin edən həmin mühəssil isə yerli din xadimlərinin yardımı ilə müəyyən sazişnamə tərtib edərək 980 tüməndən ibarət vəzirlik rüsumunun yalnız 450 tüməninin rəiyyətlərdən toplanılması haqqında qərar çıxarmışdır. Bununla əlaqədar olaraq II Şah Səfi göstəriş vermişdir ki, Şəki hakiminin istər keçmiş vəziri Mirzə Kamran, istərsə də gələcəkdə təyin olunacaq vəzirləri qeyd olunan rüsum adı ilə rəiyyətlərdən heç bir vəsait tələb etməsinlər. Fərmanın arxasında iki qeyd və iki möhür izi vardır. Birinci qeyddə Allah məfhumunu xatırladan "O" (هو) sözünün altında fərmanın şahın şifahi göstərşi

---

[74] Yenə orada, səh. 270.

[75] İstilahın izahı ucun bax: *T. M. Musəvi.* Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər. Azərbaycan SSR EA Nəşriyyatı, 1965, səh. 36.

əsasında tərtib edilməsi nəzərə çatdırılmışdır. Bu qeyd "Məhəmməd Mehdi bin Həbibullah əl-Huseyni, 1061" sözləri həkk edilən möhürlə təsdiq olunmuşdur. Məhəmməd Mehdi Həbibullah oğlunun şəxsiyyəti haqqında 9 №-li fərmanın izahı ilə əlaqədar olaraq qısa məlumat verilmişdir. Bu adam II Şah Abbas dövründə sədarət divanında, qorunmuş məmləkətlərin sədrliyi vəzifəsində işləmişdir. Fərmanın arxasındakı birinci qeyd və möhür izi göstərir ki, II Şah Səfi hakimiyyət başına keçdiyi vaxt Məhəmməd Mehdini ən böyük vəzir (وزیراعظم) vəzifəsinə təyin etmişdir. "Təzkireyi-Nəsrabadi" əsərində bu barədə qısa məlumat verilmişdir. Əsərdə deyilir: "Məhəmmədi xan vəzifədən kənar olunduqdan sonra Mirzə Mehdi Mirzə Həbibullah oğlu ən böyük vəzir təyin edildi. Bir müddətdən sonra, 1081-ci (miladi 1670/1671, – *Tərtibç.*) ildə o vəfat etdi"[76]. İkinci qeyddə fərmanın hansı məsələlərə aid olması xülasə şəklində verilmişdir. Burada deyilir: "Şəki vəzirinin altıillik rüsumuna dair rəiyyətlərlə əldə olunmuş sazişi təsbit etmək və bundan sonra hansı qayda üzrə əməl etmək haqqında mübarək fərman". Qeydin altındakı möhür izində: "Ey Allah, nəzərini dilənçi Əlidən kəsmə" sözləri oxunur.

### *Tərcüməsi:*

*Möhür izi: "Şahi vilayətin qulu Səfi".*

Dünya itaət etməli hökm verildi o haqda ki, bu zaman Şirvan bəylərbəyisi hökmranlıq və qüdrətin pənahı, dəbdəbə və cəlallı hakimiyyətə malik, yüksək rütbəli, əzəmətli əmirlərin əmiri, qüdrətli və iqballı hökmran və idarəçi, canfəşan və səmimiyyət nişanlı Nəcəfqulu xan ərzə çatdırdı ki, hökm möv-

[76] *Məhəmməd Tahir Nəsrabadi.* Təzkireyi-Nəsrabadi, Tehran,1371, səh. 16.

cibincə 14 ildir ki, Şəki hakiminin vəzirliyi vəzifəsi Mirzə Kamran adlı bir şəxsə tapşırılmışdır. Qeyd olunan müddətdə isə Şəki rəiyyətləri vəzirlik rüsumunun məmul olmadığını və ardıcıl surətdə yığılmadığını iddia edərək onu ödəməmişdilər. O haqda əllərində hökmləri də var ki, vəzirlik rüsumu keçmiş illərdə onlardan alınmamış olduğu təqdirdə, həmin qayda üzrə tələb olunmasın. Qeyd olunan vəzir isə dünya pənahlı dərgaha dəfələrlə ərz etmiş və Şirvanın keçmiş bəylərbəyisi adına itaət olunmalı hökmlər almışdır ki, onlar işin həqiqətini yoxlayıb nəticəni bizim nəzərimizə çatdırdıqdan sonra vəzirin qaydaya uyğun rüsumlarını [rəiyyətlərdən] geri alsınlar. Onlardan heç birinin hökmranlığı dövründə bu iş ayırd edilməmişdir. Qeyd olunan yüksək rütbəlinin adına xüsusi fərman da əldə edərək divan mühəssili ilə birlikdə aparmışdır ki, [həmin mühəssil] işin həqiqətini yoxlasın və onun hesab üzrə olan rüsumlarını zorla rəiyyətlərdən alıb ödəsin. Lakin qeyd edilən rüsumlar külli-məbləğ olurdu. Həmin ölkənin kəndxudaları və rəiyyətləri isə onu ödəməyə razı deyildirlər. Onlardan zorla toplandığı təqdirdə isə bu iş qeyd olunan ölkənin rəiyyətlərinin təfriqəyə düşüb dağılmasına səbəb ola bilərdi. Buna görə də həmin yüksək rütbəli qeyd olunan ölkənin kəndxudaları və rəiyyətlərinin maddi vəziyyətini yaxşılaşdırmaq məqsədini əsas götürərək şəriət adamları və divan mühəssilinin hüzurunda, vəzirlə qeyd olunan camaat arasında, tərəflərin razılığı ilə bir barışıq sənədi tərtib edib ki, qeyd olunan kəndxudalar və rəiyyətlər yuxarıda adı çəkilmiş vəzirin 980 tüməndən ibarət rüsumlarının 450 tüməninini həmin vəzirə ödəsinlər. Qeyd olunan vəzir isə bundan sonra daha ötmüş illərin rüsumları ünvanı ilə rəiyyətlərdən heç bir pul tələb etməsin. Qeyd olunan rəiyyətlər yuxarıda yazılmış məbləği vəzirə ödəmişlər. Digər tərəfdən [onlar] şəriət qaydalarına uyğun surətdə tərtib edilmiş barışıqna-

məni əldə ediblər. Əzəmətli mustofilər isə qeyd olunan ölkənin keçmiş vəzirlərinə ödənilmiş vəzirlik rüsumlarının doğruluğunu müxtəlif adlar altında yazmışlar. Buna əsasən qərar buyurduq ki, həmin tərəflər şəriət məcəlləsi mövcibincə həmin vilayətin şəriət adamları və əyanlarının hüzurunda tərtib edilən barışıqnaməyə əməl edərək keçmiş vəzir Mirzə Kamran, habelə bundan sonra Şəki hakimi üçün müəyyən edilən vəzirlər qeyd olunan rüsumlar babətindən heç bir pul tələb etməsinlər, ta ki, həmin ölkənin kəndxudaları və rəiyyətləri rifah şəraitində ürək sakitliyi ilə zavalsız və ədəbiyyata qovuşan dövlətin davamı üçün dua etməklə məşğul olsunlar, özlərini vəzifədar bilsinlər.

*Yazıldı: 1077-ci ilin ziqədətül-həram ayında* (aprel/may 1667, – *Tərtibç.*).

### 13. Şəki ölkəsinin məlikliyi vəzifəsi haqqında II Şah Səfinin (Şah Süleyman) fərmanı*

*Fərman 1691-ci ilin may ayında** verilmişidir.*

*Orijinal.*

*Ölçü: 65 sm x 25,5 sm.*

*Azərbaycan SSR Elmlər Akademiyası Respublika Əlyazmaları fondu, inv. № h – 33/5389.*

Hicri 1102-ci ilin şaban ayında (may, 1691) Şah Süleyman (II Şah Səfi) tərəfindən verilmiş fərmanın həm orijinalı, həm də 1845-ci ilin mart ayında müəyyən şahidlərin hüzuru ilə

* T. Musəvinin 1977-ci ildə çap olunmuş "Orta əsr Azərbaycan tarixinə dair fars dilli sənədlər" kitabında "**9 №-li sənəd**" olaraq nömrələnib, – *Tərtibç.*

** T. Musəvi fərmanın tarixini 1691-ci ilin aprel ayı olaraq göstərmişdi. Lakin hicri 1102-ci ilin şaban ayının yalnız 1-ci günü aprel ayına, sonrakı günləri isə may ayına təsadüf edir, – *Tərtibç.*

Şəki əyaləti* məhkəməsinin mütərcimi tərəfindən yazılıb təsdiq olunmuş surəti bizə gəlib çatmışdır. Bu fərman Şəki ölkəsindəki inzibati quruluş, dövrün siyasi vəziyyətini və bir sıra orta əsr istilahlarını aydınlaşdırmaq baxımından maraqlıdır. Fərmanın məzmunundan məlum olur ki, hələ I Şah Səfinin hakimiyyəti dövründən etibarən Şəki ölkəsi və onun tabeliyindəki Danqı, Qax və Meşəbaşı məntəqələrinin məlikliyi vəzifəsi uzun müddət Davud bəyin qardaşı Məlik Səfiquluya tapşırılmışdır. O vəfat etdikdən sonra Həsən adlı bir şəxs Şəkiyə məlik təyin olunmuşdur. Lakin 1691-ci ildə yuxarıda adı çəkilmiş Məlik Səfiqulunun oğlu Səfərqulu Şəki və onun tabeliyində olan yerlərin məlikliyi vəzifəsini öz ixtiyarına keçirməyə çalışmış, nəhayət bu barədə Şah Süleymanın fərmanını əldə etmişdir. Fərmandan görünür ki, Səfərqulu Şəki ölkəsi məlikliyinə özünün layiq olması, Məlik Həsənin də bu işə razılıq verərək Şəki məlikliyi vəzifəsindən əl çəkməsi haqqında Şəki ölkəsinin bonicə sahibləri və rəiyyətləri adından müəyyən akt düzəltmiş, həmin kollektiv sənədi Şəki ölkəsi hakimi və kələntərinin, habelə Şirvan bəylərbəyi, şəriət icraçısı və şeyxülislamının təsdiqindən keçirmişdir. Sonra Səfərqulu həmin kollektiv sənədi Şah Süleymana təqdim etmiş və Şəkiyə məlik təyin olunduğu təqdirdə mərkəzi hökumətin "xasseyi-şərifə" adlanan idarəsinə peşkəş qaydası ilə yüz tümən pul ödəyəcəyinə söz vermişdir.

Bununla əlaqədar olaraq, Şah Süleyman fərmanında belə bir şərt qoymuşdur ki, yalnız Şəki ölkəsi rəiyyətlərinin, həm-

---

* *Şəki əyaləti* — 1819–1840-cı illər arasında Rusiya İmperiyasının Cənubi Qafqazdakı inzibati ərazisi; 1819-cu ildə Şəki xanı İsmayıl xanın ölümündən sonra Şəki xanlığının yerində yaradılmışdı. 22 aprel (10 aprel) 1840 il tarixli "Zaqafqaziyada inzibati islahat islahat qanunu"na əsasən yeni yaradılmış Kaspi vilayətinin tərkibinə daxil edildi və bundan sonra Şəki qəzası adlandı, – *Tərtibç.*

çinin bonicə sahiblərinin altıda dörd hissəsinin Məlik Həsənin məlikliyinə razı olmadığı, Səfərqulunu özlərinə məlik qəbul etdikləri təqdirdə, Məlik Həsən vəzifədən kənar edilsin və Səfərqulu Şəki ölkəsinin məliyi təyin olunsun. Şah Sultan Hüseynin hicri 1113-cu ilin rəbiüləvvəl ayı (avqust/sentyabr, 1701) tarixli fərmanındakı izahatdan məlum olur ki, Şah Süleymanın həmin fərmanı əsasında Səfərqulu Şəki ölkəsi və onun tabeliyində olan məntəqələrin məliyi təyin edilmiş, ömrünün sonunadək həmin vəzifədə qalmışdır. Məlik Səfərqulu vəfat etdikdən sonra Şəki ölkəsi və onun tabeliyində olan məntəqələrin məlikliyi vəzifəsi yenidən Məlik Həsənə tapşırılmışdır. Şah Süleymanın bəhs etdiyimiz bu fərmanından məlum olur ki, XVII əsrin 90-cı illərində Şəkidə Allahqulu sultan adlı bir şəxs hakim imiş, Mürşüdqulu bəy adlı digər şəxs isə Şəkinin kələntəri vəzifəsində işəyirmiş. Buradan belə bir nəticə çıxır ki, mərkəzi hökumət tərəfindən Şəki ölkəsinə həm hakim, həm məlik, həm də kələntər təyin olunurdu. Butun ölkənin məlikliyi vəzifəsindən əlavə, ölkəyə daxil olan ayrı-ayrı kəndlər üçün də kiçik məliklər təyin edilirmiş. Kəndlilər müxtəlif vergilərlə yanaşı, məliklik rüsumu da ödəyirdilər. Fərmanın orijinal nüsxəsinin arxasına vaxtı ilə qalın kağız yapışdırıldığından oradakı qeydləri oxumaq mümkün olmur. Fərmanın surət nüsxəsində də müəyyən qüsurlar nəzərə çarpır. Surət nüsxənin katibi orijinalın 3-cü sətrində «رسده» sözünü buraxıb, 4-cü sətirdə «نمودند» sözünü «نمود», 5-ci sətirdə «ملکی» sözünü «ملک», 7-ci sətirdə «نمايد» sözünü «نمايند», 11-ci sətirdə «نطلبند» sözünü «نطلبد», 12-ci sətirdə «محلی» sözünü «مجلی» yazmışdır.

***Tərcüməsi:***

O, pak Allahdır.

**Hakimiyyət Allaha məxsusdur.**

Məhəmməd, Əli.

*Möhür izi: "Süleyman din padşahının quludur".*

Uğurlu fərman həyata keçirilmək şərəfinə çatdı o haqda ki, bu zaman Şəkinin keçmiş məliyi, rəhmətlik Məlik Səfiqulunun oğlu, ali və yüksək rütbəli Məlik Səfərqulu, Şəki ölkəsinin bir dəstə boniçə sahibləri, rəiyyətləri, qeyd olunan ölkənin hakimi Allahqulu sultan, kələntəri Mürşüdqulu bəy, habelə Şirvanın yüksək rütbəli bəylərbəyisi, şəriət icraçısı və şeyxülislam naibi tərəfindən təsdiq olunmuş bir təvəqqenamə hüzura təqdim etdi. Orada deyilir ki, onun (Məlik Səfərqulunun) xoş rəftarından razıdırlar və [onu] məlikliyə qəbul edirlər. Keçmişdə məlik olmuş Məlik Həsən də qeyd olunan şəxsin məlikliyinə razı olduğunu bildirərək istefaya çıxmışdır. [Təvəqqenaməni] təqdim etməklə birlikdə peşkəş qaydası ilə xasseye-şərifə idarəsinə yüz tümən məbləğində pul ödəməyi öhdəyə götürərək ən şərəfli [şahın] yazılı şəkildə icazə verməsini rica etdilər. Qeyd olunan yüksək rütbəli haqqında şaha layiq mehribanlıq bəslənilməsinə əsasən, ilan ilinin başlanğıcından etibarən Şəki və onun tabeliyində olan yerlərin məlikliyini qeyd edilən Məlik Həsəni dəyişməklə, həmin yüksək (Səfərquluya) əsirgəmədən mərhəmət buyurduq və bağışladıq ki, boniçə sahibləri və rəiyyətlərin altıda dörd hissəsi Məlik Həsənin məlikliyi ilə razı olmayıb onu öz məlikləri kimi qəbul etdikləri təqdirdə, həmin vəzifədə fəaliyyətə başlasın və onun qaydalarını həyata keçirsin. Qeyd olunan ölkənin kiçik rütbəli məlikləri, ağsaqqalları və kəndxudaları həmin yüksək rütbəlini öz məlik və ağsaqqalları hesab edərək onun sözündən, rəiyyətlərin və əlaltıların rifah və asayişinə səbəb olan dəyərli məsləhətlərindən kənara çıxmayaraq, yuxarıda adı çəkilən işin rüsumunu həmin vilayətdə keçmiş məliklər haqqında məmul olmuş qayda əsasında qeyd edilən şəxs haqqında həyata keçirib boyun qaçırmasın-

lar. Qeyd olunan yüksək rütbəlinin vəzifəsi isə ondan ibarətdir ki, yüksək şanlı yaradıcının dərgahının tapşırılmış inciləri olan rəiyyətlər və günahsız adamlarla mümkün qədər yaxşı rəftar edərək elə tədbirlər görsün ki, mübarək və uğurlu vücud (şah) üçün xeyir-dua əldə olunsun. Bu göstərişi həyata keçirib hər il yeni hökm tələb etməsinlər. İcazənamə ən şərif, ən pak və mübarək yüksək [şahın] həqiqi, uca, etibarlı möhürü ilə zinətlənib, bəzədildikdən sonra onu etibarlı sayaraq etimad etsinlər və özlərini vəzifədar bilsinlər.

*Yazıldı: 1102-ci ilin şaban ayında* (may 1691, – *Tərtibç.*).

## 14. Şəki ölkəsinin məlikliyi vəzifəsi haqqında Şah Sultan Hüseynin fərmanı*

*Fərman 1701-ci ilin avqust/*sentyabr *ayında verilmişdir.*
*Orijinal.*
*Ölçü: 25,2 sm x 102,8 sm.*
*Azərbaycan SSR Elmlər Akademiyası Respublika Əlyazmaları fondu, inv. № h – 4/5416.*

Şəki ölkəsinin məlikliyi məsələsinə aid bu fərman hicri 1113-cü ilin rəbiüləvvəl ayında (avqust/sentyabr, 1701) Şah Sultan Hüseyn tərəfindən verilmişdir. Fərmanın 1845-ci ildə müəyyən şahidlərin hüzuru ilə hazırlanmış və müvafiq yerli hökumət orqanı tərəfindən təsdiq edilmiş surəti "Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər" adlı kitabda verilmişdir. Orijinal nüsxə öz möhür və qeydləri ilə fərqlənir. O, surət nüsxədəki qüsurların aşkara çıxarılması işinə də yardım edir. Orijinal nüsxənin bütün haşiyələri

* T. Musəvinin 1977-ci ildə çap olunmuş "Orta əsr Azərbaycan tarixinə dair fars dilli sənədlər" kitabında "**10 №-li sənəd**" olaraq nömrələnib, – *Tərtibç.*

nəbati naxışlarla işlənmişdir. Fərmanın yuxarısında "hakimiyyət Allaha məxsusdur" cümləsinin üstündə Allah məfhumunu xatırladan "O" (هو) sözü yazılmışdır. Qeyd olunan cümlənin altında isə iri hərflərlə islam dininin şiə təriqəti simvolu sayılan "Ya Məhəmməd, ya Əli" sözləri oxunur. Bu adlarla fərmanın mətni arasındakı boş yerə Şah Sultan Hüseynin möhürü vurulmuşdur. Bir-birindən kiçik olan 4 dairə ilə əhatə edilmiş bu möhürün ortasında "Şahi vilayətin qulu Hüseyn 1112" sözləri həkk olunmuşdur. Bu cümləni əhatə edən dairəvi haşiyədə imam Əlini mədh edən və sünnilik təriqətinə qarşı yönəldilən iki beytlik məlum şeir verilmişdir[77]. Haşiyənin yuxarısındakı kiçik medalyonda "Əvəzsiz Allah" (حسبى اللاه) sözü həkk olunmuşdur. Möhürün digər iki kənar haşiyəsi nəbati naxışlarla bəzədilmişdir. Sənədin arxasında ayrı-ayrı qeydlərin yazılması ilə əlaqədar olaraq iki tuğra çəkilmişdir. Eyni halda həmin qeydlər 6 möhürlə təsdiq olunmuşdur. Birinci qeyddə Allah məfhumunu xatırladan "O" (هو) sözü altında həmin fərmanın etimadüd-dövlənin yazısı əsasında tərtib olunduğu nəzərə çatdırılır. Bu qeydin altında həm tuğra, həm də möhür izi vardır. Ondan bir qədər aşağıda, sağ tərəfdə "Baxıldı" sözü yazılmışdır. Bu sözün altında daha bir möhür izi və bir tuğra diqqəti cəlb edir. İkinci tuğranın alt tərəfində "Yazıldı" sözü oxunur. Həmin qeyd başqa möhürlə təsdiq edilmişdir. Bundan bir qədər aşağıda "Həvalələr idarəsi dəftərində qeydə alındı" sözləri yazılmışdır. Həmin qeydin sol tərəfində bir qədər yuxarıda "Nəzapət dəftərində qeydə alındı" sözləri yazılmış, sonra bu sözlər də müəyyən möhürlə təsdiq edilmişdir. Digər qeyddə "Yüksək divanın tovcih dəf-

---

[77] جانب هر كه با علی نه نكوست
هركه كوباش من ندارم دوست
هر كه چون خاك نيست بردرار
گر فرشته است خاك بر سر او

tərində yazıldı" sözləri oxunur. Qeyd etməliyik ki, həmin fərmanın surət nüsxəsində bir sıra sözlər düzgün yazılmamışdır. Mətnlərin müqayisəsindən görünür ki, surət nüsxənin katibi orijinalın 6-cı sətirdəki «شفقت» sözünü «شعور», 7-ci sətirdə «مضمون» sözünü «بمضمون», 10-cu sətirdə «مزبوره» sözünü «مزبور», 12-ci sətirdə «قاراباغ» sözünü «قره باغ», 22-ci sətirdə «عز» sözünü «عرض» oxumuş, 21-ci sətirdə «شهر», 23-cü sətirdə «كه», 25-ci sətirdə «عدد» sözünü buraxmışdır.

***Tərcüməsi:***

O (Allah).

**Hakimiyyət Allaha məxsusdur.**

Medalyonda: "Əvəzsiz Allah".

*Möhür izi: ortada:* "Şahi vilayətin qulu Hüseyn, 1112"; *haşiyədə: "Əli ilə əlaqəsi yaxşı olmayan hər hansı adamı kim olursa-olsun, mən sevməyirəm. Hər kəs ki, onun qapısı qarşısında torpaq kimi deyilsə, məleykə olsa belə, başına torpaq ələnsin".*

Uğurlu fərman verildi o haqda ki, bu zaman Şəki ölkəsinin məliyi ali və yüksək rütbəli Məhəmmədxan bəyin vəkili qeyd olunan mahalın kəndxudaları, ağsaqqalları və rəiyyətlərinin keçmişdə, dünyanın pənahı olan şahın hüzuruna gələrək öz vəziyyətlərini ərz etdikləri kimi, keçmiş məlik Məlik Həsənin pis hərəkətlərini, qaydadan kənar tələblərini ərz etdikdən sonra, yüz tümən məbləğində iltizam və ona müvafiq olaraq peşkəş qaydası ilə beş yüz ədəd əşrəfi [ödəməyi] boynuna götürmüş və xahiş etmişdir ki, [Şəkinin] məlikliyi onu vəkil etmiş şəxsə [Məhəmmədxan bəyə] verilsin və qeyd olunan Məlik Həsənin düzgün olmayaraq mənimsədiyi şeylərin hesabını ayırd etmək üçün mühəssil təyin olunsun. Beləliklə, məzkur məliklik [Şəki məlikliyi] həmin şəxsin müvəkkilinə [Məhəmmədxan bəyə] rücu olunmuş, ali divanın yüksək rüt-

bəli vəzirinin tabini Mirzə Əliyarın mühəssilliyi haqqında şahın yazılı göstərişi, qeyd olunan məlik haqqında isə [şahın] xeyirxah-hökmü verilmişdir. [Hökm] dəftərlərdə qeyd edildikdən sonra məliklik Məhəmmədxan bəyə tapşırılmış və məzkur adamın xahişinə görə hökmün surəti çıxarılmışdır. Sonralar bu surət aradan getdiyi üçün ikinci surətin çıxarılması xahiş olunmuşdur. Azərbaycan uvarecə idarəsindən və ali tovcih divanından şəhadətnamə yazmışlar ki, 1111-ci ilin şəvval ayında (mart/aprel 1700, – *Tərtibç.*) Şəki mahalının məlikliyi haqqında itaət olunmalı hökm verilmişdir. [Hökmün məzmunu] belədir: ...Ona görə ki, bu zaman Şəki mahalının kəndxudaları, ağsaqqalları və rəiyyətlərinin vəkili ərz etdi ki, qeyd olunan mahalın məlikliyi uzun müddət rəhmətlik mehtər Davudun qardaşı Məlik Səfiqulunun, habelə onun oğlu Məlik Səfərqulunun sərəncamında olmuş və onlar bütün vaxtlarını ciddi işlərin yerinə yetirilməsinə, rəiyyətlərin rifahına və xeyir-dua əldə olunmasına sərf edirmişlər. Səfərqulu öldükdən sonra qeyd olunan mahalın alçaq adamlarından biri indiyədək ata-babası heç vaxt Şəkidə məlik olmamış Həsən adlı şəxs canfəşanlıq göstərmiş və [məliklik] ona rücu olunmuşdur. [O, isə] qaydadan kənar hərəkətlər edərək aciz və tabe adamlar haqqında çoxlu zülm, təcavüz, təhmil və tovcihlərə yol vermiş, həmin ölkənin hakimi Kürdüstan səfərinə getdiyi vaxt zorakılıq və qəddarlıq edərək oranın [Şəkinin] rəiyyətlərindən üç min tümən Təbriz pulu məbləğində pul almış, rəiyyətlərin çoxu Gürcüstan vilayətinə, habelə Qarabağa və s. vilayətlərə qaçıb dağılmışlar. [Həmin nümayəndələr] xahiş etmişlər ki, oranın [Şəkinin] məlikliyi Məlik Səfərqulunun oğlu ali və yüksək rütbəli Məhəmmədxana verilsin ki, o, öz ata-babası kimi xoşrəftarlıq və az tamahla məzkur vəzifə-

yə başlasın. Buna görə luy ilin* başlanğıcından (21 mart 1700, – *Tərtibç.*) etibarən qeyd olunan Məlik Həsəni vəzifədən kənar edərək həmin ölkənin məlikliyini və ağsaqqallığını məzkur [şəxsə] [Məhəmmədxana] lütf və mərhəmət etdik ki, rəiyyətlərin və boniçə sahiblərinin razılığı ilə qeyd olunan işə və ona aid məsələlərə yetişməyə başlasın. Məzkur ölkənin aşağı rütbəli məlikləri, ağsaqqalları və kəndxudaları göstərilən şəxsi (Məhəmmədxanı] özlərinin müstəqil məliyi hesab edərək onun sözündən, acizlər və zəiflərin asayiş və rifahına səbəb olan dəyərli məsləhətindən kənara çıxmayaraq qeyd olunan işin rüsumunu həmin vilayətdə keçmiş məliklər barədə məmul olan qayda əsasında həmin şəxs [Məhəmmədxan] haqqında da həyata keçirsinlər. Məzkur şəxsin [Məhəmmədxanın] vəzifəsi ondan ibarətdir ki, dərgahın tapşırılmış inciləri olan rəiyyətlər və günahsız adamlarla mümkün qədər yaxşı rəftar edərək elə tədbirlər görsün ki, mübarək və uğurlu şah üçün xeyir-dua əldə olunsun.

Sonra həmin vəkil ərz etmişdir ki, [hökumət aparatının] dəftərlərindən keçirdiyi məktub yox olmuşdur. 1113-cü il məhərrəm ayında (iyun/iyul 1701, – *Tərtibç.*) yazılmış məktub yenidən tərtib olunmuş və həmin idarələrdə qeyd edilmişdir. Vəche-peşkəş və vəche-iltizam haqqında şahın 1111-ci ilin ziqədətül-həram ayı (aprel/may 1700, – *Tərtibç.*) tarixli mübarək fərmanı ikinci dəfə olaraq uvarecə idarəsi tərəfindən qeydə alınmışdır. Onun məzmunu belədir:

Yüksək vəzifəli ali divan vəzirinin tabını, hökmranlıq bacarığına malik, nəcabətli Mirzə Əliyar bilsin ki, Şəki mahalının kəndxudaları, ağsaqqalları və rəiyyətləri oranın keçmiş məliyi Həsənin pis hərəkətlərindən şikayətlənərək oranın məlikliyinin Məlik Səfərqulunun oğlu Məlik Məhəmmədxana

---

* *Luy il*— əjdaha ili, – *Tərtibç.*

verilməsini xahiş etmiş və xassə idarəsinə beş yüz ədəd əşrəfi peşkəş vermişlər. Bu mübarək fərmanın məzmunundan xəbərdar olan kimi qeyd olunan pulu kəndxudalardan, ağsaqqallardan, ərbab və rəiyyətlərdən toplayaraq xəzaneye-amirənin sahibcəminə təhvil verib, keçmiş məliyi isə icraçılar vasitəsilə yüksək rütbəli Qarabağ və Kaxet bəylərbəyisinin yanına apararaq məsələlərin həqiqətinə yetişib, onun [Həsənin] təcavüzlərini ayırd edib, yüz tümən məbləğində iltizam vəchini hansı tərəfdən lazım gələrsə alıb öz əbvabcəminə daxil etsin.

Buna görə qərara aldıq ki, qeyd olunan mahalın rəiyyətləri, boniçə sahibləri, kiçik rütbəli məlikləri və kəndxudaları itaət olunmalı bu fərmanın məzmununa əməl edərək indiki fərmanın keçmiş fərmanlarla birgə əlaqədə olduğunu bilərək onun məzmunundan kənara çıxmasınlar. Hər il yeni hökm tələb etməsinlər, özlərini vəzifədar bilsinlər.

*Yazıldı: 1113-cü ilin rəbiül-əvvəl ayında* (avqust/sentyabr 1701, – *Tərtibç.*).

### 15. Şəki ölkəsi məlikliyi haqqında Şah Sultan Hüseynin fərmanı*

*Fərman 18 yanvar 1703-cü il tarixdə** verilmişdir.*
*Surət.*
*Ölçüsü: 97* x *18,5.*
*Yazılma üslubu: şikəstə.*
*Azərbaycan SSR EA Əlyazmalar fondu, inv. 8930.*

* T. Musəvinin 1965-ci ildə çap olunmuş "Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər" kitabında "**12 №-li sənəd**" olaraq nömrələnib, – *Tərtibç.*

** T. Musəvidə fərmanın tarixi 1702-ci ilin dekabr ayı kimi göstərilmişdi, – *Tərtibç.*

Bu fərman hicri 1114-cü ilin şəban ayının sonunda (18 yanvar 1703, – *Tərtibç.*) Şah Sultan Hüseyn tərəfindən verilmişdir. Fərmanın bizə çatmış nüsxəsi onun şah dəftərxanası tərəfindən çıxarılmış surətindən ibarətdir. Sənədin arxasında fərmanın etimadüldövlənin göstərişi ilə yazılması qeyd olunmuş və həmin surətin fərmanın orijinal nüsxəsi ilə eyni olduğu 5 nəfər tərəfindən təsdiq edilmişdir.

Fərmanın arxasında yuxarı hissədə qeyddə deyilir: "Yüksək göstərişə görə vizarət, şövkət və iqbal pənahlı, dəbdəbə, əzəmət və cəlal dəsgahlı, vilayət nişanlı xanədanın qədim sovfizadəsi, uca və əzəmətli şahlıq hökumətinin qolu, ali və yüksək xaqanlığın uca məqamlı etimadüldövləsinin yazısı əsasında qeydə alındı və şahn möhürü vuruldu. Möhür" (حسب الامر الاعلى از قرار نوشته وزارت و شوکت واقبال پناه، حشمت واظمت واجلال دستگاه صوفی زادهُ قدیم خاندان ولایت نشان عالیجاهی اعتضاد السلطنة العلتیه العظامیه شاهی اعتماد الدولته العلیة العالیه خاقانی ثبت مهر همایون شد مهر.)

Bu yazının altında sənədin surətinin orijinal nüsxə ilə eyni olduğunu təsdiq edən dörd qeyd vardır.

کلب امام محمد شاه həkk olunmuş möhürlə təsdiq edilən qeyddə deyilir: "Surət əslin eynidir" (سواد مطابق اصل است)

لا اله الاالله المک الحق المبین mətnli möhürlə təsdiq olunan qeyddə belə yazılmışdır. "Yazılmış bu fərmanın şahın alihəzrət dəftərxana daruğəsi möhürü ilə, habelə şahın möhürünü saxlayan möhürdarın qeydə alınma möhürü ilə möhürlənmiş orijinalı nəzərdən keçirildi. (Bağlandı)"[78].

سلام فولا من رب رحيم mətinli möhürlə təsdiq olunmuş qeyddə isə bu sözlər yazılmışdır: "Yazılmış fərmanın şaha yaxın olan

78 اصل پرو انچه مزبوره که بمهر عالیحضرت دارو غه دفترخانهٔ همایون ومهر ثبت مهر مهردار همایون رسیده ملاخطه شد.

alihəzrət mübarək dəftərxana daruğəsinin möhürü ilə möhürlənmiş orijinalına baxıldı" (Bağlandı)".[79]

Sənədin arxasında nisbətən aşağı tərəfdə şah dəftərxanası darğasının orijinal fərman arxasındakı möhürünü xatırlatmaq və təsdiq etmək mıəqsədi ilə bu sözlər yazılmışdır: "Yüksək və mübarək dəftərxananın şaha yaxın olan alihəzrət daruğəsinin möhürünün yeri. Düzgündür" (محل مهر عاليحضرت مقرب الحضره داروغه دفتر خانه همايون اعلى صحيح).

Bu fərmanın tarix elmi üçün dəyərli cəhəti bundan ibarətdir ki, onun mətnində yarım əsrdən artıq bir dövrün hadisələri xatırladılmış və həmin dövrdə Səfəvi şahları tərəfindən Şəki haqqında verilmiş bir neçə hökmün xülasəsi əks olunmuşdur. Səfiqulunun oğlu Məhəmmədbağır bəyin izahatı əsasında tərtib edilmiş bu sənəddən məlum olur ki, Şəki ölkəsinin Kiş, Nuxu və Şəkərənd kəndlərinin "malucəhat"ı hələ XVII əsrin birinci rübündə Davud bəyə, onun qardaşı Səfiquluya və əmisi oğlu Baydar bəyə bağışlanmışdır. 1043-cü ilin səfər (1633-cü ilin avqust/sentyabr) ayında bu məsələ barədə verilmiş fərmanın xülasəsindən görünür ki, həmin dövrdə qeyd olunan kəndlərin "malucəhat"ı hesabına yuxarıda adları çəkilmiş şəxslər üçün 3 tümən məbləğində məliklik haqqı müəyyən edilmişdir.

Fərmanda həmin məsələ haqqında hakimlərə, tiyuldarlara, kələntərlərə, divan məmurlarına və mübaşirlərə göstəriş verilmişdir. Hicri 1081-ci ilin şəvval (1671-ci ilin fevral/mart) ayında verilmiş hökmün xülasəsi də bu sənəddə qeyd edilmişdir. Hökmdən məlum olur ki, həmin dövrdə Şəkərənd kəndinin "malucəhat"ı hesabına Məlik Səfiquluya 14 tümən 500 dinar soyurğal müəyyən edilmişdir. Lakim bu so-

---

[79]. اصل پروانچه مزبوره كه بمهر عاليحضرت مقرب الححضره داروغه دفتر خانه همايون رسيده بود ملاخطشد صم شد

yurğal heç də daimi xarakterdə olmamışdır. Belə ki, Məlik Səfiqulunun vəzifədən kənar edilməsi ilə əlaqədar olaraq həmin soyurğal divan hesabına zəbt edilmiş, sonra isə başqa adamlara soyurğal verilmiş, nəhayət Şirvan bəylərbəyləri və kələntərlərinin sərəncamında olmuşdur. Şirvan bəylərbəyləri və kələntərlərinin həmin soyurğalı necə toplamaları haqqında fərmanda verilən izahatdan məlum olur ki, o dövrdə "malucəhat" hesabına Şəkərənd kəndi rəiyyətlərdən həm ipək, həm də müxtəlif əkinçilik malları alınırmış.

### *Tərcüməsi:*

[Uğurlu fərman verildi] ona görə ki, bu zaman rəhmətlik mehtər Davudun qardaşı, Məlik Səfiqulunun oğlu, xasseyeşərifənin qulamı*, ali və yüksək rütbəli rikabdar Məhəmmədbağır bəy ərz etdi ki, rəhmətlik mehtər Davudun göstərdiyi xidmətlər və fədakarlıqlar müqabilində tabe olmalı və itaət etməli hökmlərə əsasən Şəkinin aşağıda adları qeyd olunan mahalının [yəni] Kiş kəndi, Nuxu kəndi [və] Şəkərənd kəndinin (bağlandı) "malucəhat"ı onun [Mehtər Davudun] qardaşı Məlik Səfiqulunun və əmisi oğlu Baydar bəyin məlikliyinə bağışlanılmış, azad edilmiş və güzəşt olunmuş idi. Onun [Məmmədbağırın] rəhmətlik atası [Səfiqulu] qeyd olunan vilayətdə aydın şiəlik dinini yaymışdır. Qeyd olunan ölkənin məlikliyindən kənar edildikdən və onun mülkləri divanın xeyrinə zəbt olunduqdan sonra, Şirvan kələntəri düzgün olmayaraq mülklərin babətindən əldə olunan "malucəhat"ın ona bağışlanmış hissəsini də zəbt etmişdir. Qeyd olunan rəhmətliyin təqsirsizliyi ikinci dəfə qalibiyyətli hökumətin ali

* Qulamlar Səfəvilər dövründə əsasən islam dininin şiə təriqətini qəbul edən, yaxud artıq bu təriqətdə olan xristian mənşəli şəxslər idilər. I Abbasın hərbi islahatlarına qədər Səfəvi ordusu əsasən çəriklərdən təşkil edilirdi, – *Tərtibç.*

rütbəli nümayəndələrinə məlum olduqdan sonra, həmin mahalın "malucəhat"ı babətindən onun üçün bağışlanmış hissə keçmişdə olduğu kimi yenə də ona mərhəmət edilmişdir.

Əhvalatın ərz olunduğu və dünya itaət etməli hökm çıxarıldığı vaxt şahın mübarək başına təsəddüq olaraq bağışlanma haqqında qol çəkildi və xeyirxah qol çəkilməsini xahiş edən [adamın] atasına çatan hissə haqqında Azərbaycan uvarecə idarəsi tərəfindən təsdiq etdilər ki, rikabxananın keçmiş mehtəri Davud bəyin, onun qardaşı məlik Səfiqulunun və əmisi oğlu Baydar bəyin bağışlanmaları haqqında 1053-cü ilin rəbbiül-əvvəl ayında (may/iyun 1643, – *Tərtibç.*) cənnət məkanlı sahibqıran şahın fərmanı verilmişdir.

[Həmin fərmanda deyilir:]

Ona görə ki 1043-cü ilin səfər ayında (avqust/sentyabr 1633, – *Tərtibç.*) behişt məkanlı şahın fərmanı verilmişdir və [onun] məzmununun xülasəsi belədir: rikabxananın qədim mehtəri Davud bəyin yaxşı çalışqanlığı, fədakarlığı və xoş xidmətliliyi müqəddəs xatirə güzgüsündə parladığına görə, istər behişt məkanlı və Firdovs yurdlu şahın dövründə, istərsə də zavalsız dövlətin zamanında, onun bir sıra bəyənilməli xidmətlər göstərməsi üçün [şahın] böyük səs salmış hümməti, onun [Davud bəyin] və qohumlarının vəziyyətini gözləməyi və qorumağı lazım bilmişdir. [Davud bəy] ərz etdi ki, Şəkiyə daxil olan və adları aşağıda qeyd edilən mahalın: Kiş kəndi, Nuxu kəndi [və] Şəkərənd kəndi (bağlandı) irs yolu ilə onun, qardaşı Səfiqulunun və əmisi oğlu Baydar bəyin adlarına köçürülmüşdür. Oranın tiyuldarı və sair [hökumət məmurları] onlara zülm etmiş və artıq bir şeylər almışlar. [Davud bəy] yalvardı ki, özü qardaşı və əmisi oğluna aid olan mahalın məlikliyinin üç tüməndən ibarət təxmin olunmuş cəmi ona və qeyd olunan mahalın camaatına bağışlansın və güzəşt edilsin. Onun xahişini qəbul və qeyd olunan camaatın

arzu və istəklərinin lütfkarlıq və mehribanlıq edərək txaquy ilin (toyuq ili, – *Tərtibç.*) 8-ci ayının başlanğıcından (21 oktyabr 1633, – *Tərtibç.*) etibarən məzkur mahalın üç tüməndən ibarət cəminin istər çox, istərsə də az olduğuna baxmayaraq onların məlikliyinə bağışlanmış hissəsini oranın tiyuldarının tiyulundan dəyişərək, nəsildən-nəsilə, törəmədən-törəməyə keçəcək şəkildə onlara bağışladıq və vergilərdən azad etdik. Ali divanın əzəmətli və kəramətli mustofiləri bu ətiyyəyə aid fərmanı öz daimi dəftərlərində qeyd edərək onu dəyişdirilmə və əvəz olunma şübhələrindən qorusunlar və gözləsinlər. “İxracat” və “əvarizat" babətindən heç bir şey almasınlar. Hər hansı ad və rüsumla olursa-olsun, heç bir həvalə etməsinlər və onların hesabına heç bir şey keçirməsinlər, yazılı göstərişlər verməkdən və məmurlar göndərməkdən imtina etsinlər. Hökumətin kəramətli hakimləri, tiyuldarları, kələntərləri, vergi toplayan məmurları, mübaşerləri tərəfdarlıq və himayəçilik etməyi lazım bilərək onlara, onların məlikliyi hesab edilən mahala hökm göndərməməli və təcavüz etməməlidir. Onların minnətdar və şikayətçi olmalarının böyük təsir buraxacağını bilməlidirlər. Onlara qayğıkeşlik göstərilməsini, onların qorunmasını, onların əziz və möhtərəm sayılmasını, onlara mərhəmət və izzət göstərilməsini lazım bilərək göstərişdən kənara çıxmasınlar.

Bu zaman şahın mübarək qolunun çəkilməsini xahiş etdilər. Qeyd olunan camaata hədsiz mehribanlıq göstərdiyimiz üçün yenə də onları azad etdik. Əzəmətli müstofilər behişt məkanlı hökmran şahın fərmanını başlanğıcdan sonadək təsdiq olunmuş bilərək buyruqdan kənara çıxmasınlar.

Onun [Səfiqulunun] əmisi oğlu Baydar bəyin dünya pənahlı dərgaha gələrək qol çəkmək haqqında xahiş etdiyindən sonra xoş yurdlu və behişt məkanlı hökmran şahın 1081-ci il şəvvəl ayı (fevral/may 1671, – *Tərtibç.*) tarixli fərmanı veril-

miş və üç tümən puldan onun [Baydar bəyin] məlikliyinə aid olan hissə keçmişdə olduğu kimi yenə də ona bağışlanmış və [vergidən] azad olunmuşdu. Davud bəy və Səfiqulu bəyə bağışlanmış hissə haqqında imza ilə təsdiq olunan fərman verilməmişdir. Qeyd olunan məbləğdən başqa daha 14 tümən beş yüz on dinar da məzkur Şəkərənd kəndinin "malucəhat"ı babətindən Şəkinin keçmiş məliyi Məlik Səfiquluya soyurğal verilmiş, sonra isə divan xeyrinə zəbt olunmuşdur. Lui ildə (əjdaha ili; – *Tərtibç.*) Ziyaəddinə və Məlik Xanəlinin digər övladlarına soyurğal verilmişdir ki, səfər hadisələri üçün kifayət qədər adam hazırlasınlar. Müstəmirratdan və zabitə idarəsindən təsdiq etmişlər ki, Şəkinin keçmiş məliyi Məlik Səfiqulunun vəzifədən kənar edildiyindən sonra onun mülkləri divanın xeyrinə zəbt olunmuşdur.

1081-ci ilin rəcəb ayında (noyabr/dekabr 1670, – *Tərtibç.*) verilmiş itaət olunmalı fərman mövcibincə it ilin əvvəlindən etibarən Şirvanın keçmiş kələntərindən qabaqkı kələntərinin sərəncamına verilmişdir. Toşqan ilin (dovşan ili – *Tərtibç.*) sonunadək həmin qayda üzrə qeyd olunan kələntərin sərəncamında qalmış və ondan sonra həmin ölkənin [Şirvanın] bəylərbəylərinin sərəncamına verilmişdir.

Şirvanın sabiq kələntərindən əvvəlki kələntəri tərəfindən, habelə oranın keçmiş bəylərbəyisindən qabaqkı bəylərbəyisi, rəhmətlik Əliqulu xan tərəfindən dəftərxanaya göndərilmiş siyahılarda Şəkərənd kəndinin, habelə azad olunaraq soyurğal verilmiş digər mahalın [vergiləri] ilbəil sərvət və əmlakdan müxtəlif məbləğ və miqdarla toplanaraq zəbt və əbvabcəb edilmiş və [eyni zamanda] göstərilmişdir ki, bu Məlik Səfiqulunun soyurğalına verilmiş idi.

Göndərilmiş ipək komaları və sairə daxil olmaqla qeyd olunan mahaldan alınmış şeylər xülasə şəklində mal adı ilə qeydə alındığına görə, nə qədər əkinçilik malları hesabına

pul ödənildiyini ayırd etmək mümkün olmur. Piçi ilə (meymun ili, – *Tərtibç.*) aid siyahılarda, habelə rəhmətlik Zal xanın sərəncamında olduğu vaxtlarda dəftərxanaya göndərilmiş siyahılarda [xüsusilə] yerbəyer aydın olan piçi ilində Şəkərənd kəndini "malucəhat"dan kənar etmişlər və şahın xeyirxah fərmanı mövcibincə keçmiş bəylərbəyinin zamanında soyurğal sahibi tərəfindən zəbt olunmuşdur. Müəyyən səbəblər üzündən [qeyd olunan mülkləri] öz sərəncamına almış [şəxs] sonrakı illərdə zəbt etdiyi bütün mahalın [gəlirinin] qısa yekununu müəyyənləşdirmişdir. Lakin burada müəyyən edilməmişdir ki, azad olunan mahalın bağışlanan hissəsi hansı məbləğ və miqdara bərabərdir. Həmin dövrdən qabaqkı vaxtlarda isə siçqan ildən (siçan ili, – *Tərtibç.*) başlayaraq toşqan ilin sonunadək rəhmətlik Əliqulu xanın dövründə Şəkərənd kəndinin sərvəti və əmlakı bir qayda olaraq zəbt olunmuşdur. Toplanması nəzərə alınmış 59 tümən iki min səkkiz yüz həştad doqquz dinar pulun ödənilməsindən sonra Məlik Xanəlinin övladı üçün soyurğal verilmiş on dörd tümən beş yüz on dinar pul tixayquy ilin (toyuq ilinin, – *Tərtibç.*) əvvəlindən etibarən Fəxranın keçmiş hakimi Masal bəyin sərəncamına verilmişdir. Ondan sonra isə həmin qayda ilə Fəxranın indiki hakimi hökmranlıq və yüksək idarəedicilik qüdrətinə malik Əmirgülü bəyin illik məvacibi üçün müəyyən olunmuş bu qayda davam etməkdədir. Məlik Səfiqulunun həmin yerdə yaşayan övladına [şah] mehribanlıq göstəridiyi üçün yönüt ilin (at ilinin, – *Tətibç.*) başlanğıcından etibarən qeyd olunan mahalın "malucəhat"ı hesabına Məlik Səfiquluya bağışlanan, sonra isə divanın xeyrinə zəbt olunan [məbləği], yəni Fəxran hakiminin illik məvacibi üçün müəyyən edilmiş Şəkərənd kəndinin bağışlanmış hissəsini, həmin hakimin illik məvacibinin məbləğini dəyişdirmək yolu ilə, yüksək rütbəli Şirvan bəylərbəyisinə verilmiş digər iki ma-

halın bağışlanmış hissələrini isə azad etmək yolu ilə, onlara [Məlik Səfiqulunun övladlarına] mərhəmət etdik və bağışladıq. Əzəmətli mustofilər Şəkərənd kəndinin "malucəhat"ı babətindən həmin hökmranlıq və idarəedicilik qüdrətinə malik [Əmirgülü bəyin] illik məvacibi üçün təxsis verilmiş [məbləği] bütünlüklə Məlik Səfiqulunun mülklərinin "malucəhat"ı hesab edərək, qeyd olunan illik məvacib alanın [Əmirgülü bəyin] illik məvacibi hesabından çıxarılmış bilsinlər və bunun əvəzində ayrı münasib vücuhatdan ona əvəz versinlər. Göstərişə hərtərəfli riayət edərək hər il yeni hökm tələb etməsinlər və özlərini vəzifədar bilsinlər.

*Yazıldı: 1114-cü ilin şabanül-müəzzəm ayının axırında* (18 yanvar 1703, – *Tərtibç.*).

## 16. Məlik Səfiqulunun övladlarının vergilərdən azad edilməsi haqqında Surxabın hökmü*

*Hökm 1733-cü ilin fevral/*mart *ayında verilmişdir.*

*Orijinal ölçüsü 31,7* x *10,3 sm.*

*Yazılma üslubu: şikəstə.*

*Azərbaycan SSR EA Respublika Əlyazmalar fondu, inv. h – 27/8932.*

Şəki məlikliyinə aid bu fərman hicri 1045-ci ilin ramazan (1733-cü ilin fevral/mart) ayında Ləzgi Surxab (Surxay xan? – *Tərtibç.*) tərəfindən verilmişdir. Məhəmməd Kazımın "Nameyi-Aləmaraye-Nadiri" əsərində eyni halda Qıratxan adlanan Ləzgi Surxab haqqında nisbətən geniş məlumat vardır[80]. Həmin mənbədən məlum olur ki, XVIII əsrin 2-ci rübündə

---

* T. Musəvinin 1965-ci ildə çap olunmuş "Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər" kitabında "**13 №-li sənəd**" olaraq nömrələnib, – *Tərtibç.*

[80] *Məhəmməd Kazim.* Nameye-aləmarayı-Nadiri. Moskva, 1960, səh. 568 – 584.

Dağıstandan tutmuş Muğanadək böyük bir ərazi, o cümlədən Şəki ölkəsi, Surxabın hakimiyyəti altında olmuşdur. Nadir şahın Şirvan və Dağıstan yürüşləri ilə əlaqədar olaraq Ləzgi Surxab yerli əhalinin şah qoşunları əleyhinə yönəlmiş kəskin müqavimətinə rəhbərlik etmişdir[81].

Fərmandan görünür ki, Surxab Şəkidə olduğu zaman, Məlik Səfiqulunun övladlarını, o cümlədən Məhəmmədxan sultanın oğlu Əlimərdan bəyi "malucəhat", "ixracat", "əvarizat" və sair vergilərdən azad etmişdir. Bu sənədin yuxarısında Allah məhvumunu xatırladan "O" (هو) sözü yazılmış, sənədin axırına isə Ləzgi Surxabın möhürü vurulmuşdur. Möhürdə bu sözlər həkk olunmuşdur: "Yüksək şah həzrətlərinin bəndəsi Surxab" (بندۀ حضرات عالی شاه سرخاب) .

***Tərcüməsi:***

O [ Allah ]

Ali hökm oldu o haqda ki, bu zaman Məhəmmədxan sultanın oğlu, ali və yüksək rütbəli Əlimərdan bəy, habelə Məlik Səfiqulunun başqa övladları və bəndələri Şəkiyə gələrək ərz etdilər ki, ata-babalarının vaxtından indiyə qədər hər şeydən, xüsusilə "malucəhat", "əvarizat" və rəiyyət hüquqları verilməkdən azad edilmiş, bağışlanmış və Şəki mahalında yaşamışlar. Öz dediklərinin doğruluğunu isbat etmək üçün keçmiş şahlar, bəylərbəyilər və hakimlər tərəfindən verilmiş fərmanları göstərdilər. Ona görə yuxarıda adı qeyd olunan şəxsi və Məlik Səfiqulunun digər övladlarını və ata-babaları kimi "malucəhat"dan, "ixracat"dan, "əvarizat"dan və sair rəiyyət hüquqlarından bütünlüklə bağışlayaraq, yazılı göstərişlər verilməsindən azad etdik ki, rahat yaşayaraq dua etsinlər.

81 *Məhəmməd Kazim*. Nameyi-aləmaraye-Nadiri. Moskva, 1960, səh. 568 – 584.

Şəki mahalının məliyi, kəndxudaları, zabitləri hər hansı qayda və ad ilə olursa-olsun, onlardan "malucəhat", "ixracat", "əvarizat" və rəiyyət hüququ ünvanı ilə bir dinar pul və ya bir batman yük almamalı, əziyyət verməməli və özlərini vəzifədar bilməlidirlər.

*Yazıldı: 1145-ci ilin ramazan ayında* (fevral/mart 1733, – *Tərtibç.*).

*Möhür izi: "Yüksək şah həzrətlərinin qulu Surxab".*

## 17. Əlimərdan bəyin Şəkiyə məlik təyin olunması haqqında Nadir şahın fərmanı*

*Fərman 26 noyabr 1734-cü il tarixdə** verilmişdir.*

*Surət ölçüsü 21,5* x *25 sm.*

*Azərbaycan SSR EA Respublika Əlyazmalar fondu, inv. h – 4/10787.*

Şəki məlikliyinə aid olan bu fərman hicri 1147-ci ilin cümadiül-sani ayının sonunda (26 noyabr 1734) Nadir şah tərəfindən verilmişdir.

Bu fərmanın yalnız 13 mart 1845-ci il tarixdə 4 nəfər şəxsin şahidliyi ilə köçürülmüş və müvafiq hökumət orqanı tərəfindən təsdiq edilmiş surəti bizə gəlib çatmışdır.

Fərmanda Əlimərdan bəyin Şəki ölkəsinə məlik təyin olunmasından bəhs edilir. Sənəddə eyni zamanda "tovcihad" (توجيهات) və "vücuhat" (وجوهات) istilahlarını aydınlaşdırmağa imkan verən qeydlər vardır.

---

* T. Musəvinin 1965-ci ildə çap olunmuş "Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər" kitabında "**14 №-li sənəd**" olaraq nömrələnib, – *Tərtibç.*

** T. Musəvi fərmanın tarixini 1734-cü ilin oktyabr ayı kimi göstərmişdi, – *Tərtibç.*

***Tərcüməsi:***

Adların yaxşısı olan Allah adı ilə.

Mübarək fərman verildi o haqda ki, yüksək və ali mərtəbəli, idarəçilik qabiliyyətinə malik Məlik Əlimərdan bəyin çox sədaqətli və xidmətkar olduğu şahın nəzər-diqqətinə çatdığına görə, hazırki mübarək pars ilin dörd aylığının başlanğıcından etibarən Şəki ölkəsinin məlikliyini ona lütfkarlıqla mərhəmət etdik ki, sədaqət və bacarıqla qeyd olunan işə başlayaraq gözləsin ki, pulların tövcihatında heç kəsin üzərinə ağırlıq düşməsin və heç kimə təqsirsiz zülm olunmasın. Özünü elə aparsın ki, bütün rəiyyətlər və adamlar onun rəftarından razı qalıb şükür etsinlər, xeyir-dua versinlər. Onun sədaqət və bacarığı yüksək rütbəli vəkillərə daha çox aydın olsun. Şəki ölkəsindəki kəndxudalar, əhali, rəiyyətlər və məskən salanlar qeyd olunan şəxsi özlərinin yeganə müstəqil məliyi hesab edərək itaət etməli, onun sözündən və düzgün məsləhətindən kənara çıxmamalı, fərmana yüksək rütbəlinin [şahın] möhürü vurulduqdan sonra ona etibar edərək inanmalı və hər il yeni fərman tələb etməməlidir. Bu barədə yazılmış qaydanı hərtərəfli həyata keçirməli, tam ciddi surətdə özlərini bütünlüklə vəzifədar bilməlidirlər.

*Yazıldı: 1147-ci ilin cümadiül-sani ayının axırında* (26 noyabr 1734, – *Tərtibç.*).

## 18. Şəki ölkəsinin məlikliyi vəzifəsi haqqında Nadir şahın fərmanı*

*Fərman 1737-ci ilin may ayında verilmişdir.*

*Orijinalın fotosurətindən istifadə olunmuşdur.*

---

* T. Musəvinin 1977-ci ildə çap olunmuş "Orta əsr Azərbaycan tarixinə dair fars dilli sənədlər" kitabında "**11 №-li sənəd**" olaraq nömrələnib, – *Tərtibç.*

*Azərbaycan SSR EA Tarix İnstitutunun kitabxanası, inv. № b/3291, səh. 22.*

Hicri 1150-ci ilin məhərrəm ayında (may, 1737) Şəki mahalına məlik təyin olunması haqqında Nadir şah yeni fərman vermişdir. Fərmanın məzmunundan görünür ki, Şəki mahalının keçmiş məliyi Əlimərdan bəyin vəfatı ilə əlaqədar olaraq Şirvan bəylərbəyi Sərdar xan Nadir şaha məktub göndərmiş və həmin vəzifəni mərhumun qardaşı Nəcəfquluya tapşırılmasını xahiş etmişdir. Nadir şah isə Nəcəfqulunun həmin işə layiq olmasının bütün Şəki kəndxudaları tərəfindən təsdiq edildiyini nəzərə almaqla, Şirvan bəylərbəyinin xahişini qəbul etmiş və qeyd olunan şəxsi Şəki mahalına məlik təyin etmişdir.

İlk mənbələrin məlumatından aydın olur ki, bu dövrdə Nadir şah Qəndəhar şəhərini mühasirəyə alaraq oranı fəth etməyə çalışırmış. Fərmanın məzmunu göstərir ki, həmin şəraitdə Şəki ölkəsi Nadir şah hökumətinə tam tabe edilmişdir. Fərmanda adı çəkilmiş Əlimərdan bəyin şəxsiyyətinə gəlincə, qeyd etməliyik ki, istər Qırat xan ləqəbi ilə şöhrət tapmış Ləzgi Surxabın 1145-ci ilin ramazan ayı (fevral/mart, 1733) tarixli hökmündə (Bax: 16 №-li sənədə, – *Tərtibç.*), istərsə də Nadir şahın 1147-ci ilin cümadiəssani ayının sonu (26 noyabr 1734-cü il) tarixli fərmanında (Bax: 17 №-li sənədə, – *Tərtibç.*) bu barədə məlumat verilmişdir. Həmin məlumatdan aydınlaşır ki, Əlimərdan bəy vaxtı ilə uzun müddət Şəki ölkəsinin məliyi olmuş Səfiqulunun övladlarından Məhəmməd xan sultanın oğludur. 1732-ci ilin yanvar ayında rus ordularının Xəzər sahillərlindən geri çəkilməsi haqqında Rusiya ilə İran arasında müqavilə bağlandıqdan sonra[82] Şəkiyə gəlmiş Ləzgi Surxab Məlik Səfiqulunun digər övladları ilə

[82] "История Дагестана", I cild, M, 1967, səh. 356.

birlikdə Əlimərdan bəyi də vergi və mükəlləfiyyətlərdən azad etmişdir[83]. Bu hadisədən təxminən doqquz ay sonra Şəkini fəth etmiş Nadir şah 1734-cü ilin oktyabr ayında Şəki ölkəsinin məlikliyi vəzifəsini Əlimərdan bəyə tapşırmışdır. O, 1737-ci ilin ilk aylarınadək üç ildən artıq müddətdə həmin vəzifədə işləmiş və nəhayət, vəfat etdikdən sonra qardaşı Nəcəfqulu Şəki ölkəsinə məlik təyin olunmuşdur. Fərmanda adı çəkilən Şirvan bəylərbəyi Sərdar xanın şəxsiyyəti haqqında isə "Nameyi-aləmarayi Nadiri" əsərinin ikinci cildində məlumat verilmişdir[84]. Bu məlumatdan görünür ki, Şamaxı bəylərbəyi zənburəkçibaşı Mehdi xanın Dərbənd şəhərində öldürülməsi ilə əlaqədar olaraq[85] Nadir əfşar tayfasının qırxlı qoluna mənsub Sərdar xanı min nəfərlik ordu ilə Şirvana göndərir və onu Şirvana bəylərbəyi təyin edir. Nadir şahın özünün də məhz əfşar tayfasının həmin qoluna mənsub olduğunu[86], eyni zamanda o dövrdə Osmanlı imperiyası ilə Rusiya arasında Xəzər sahillərinə yiyələnmək uğrunda gedən rəqabətlə əlaqədar olaraq Şirvandakı siyasi gərginliyi nəzərə aldıqda demək olar ki, Sərdar xan Nadir şahın çox etibarlı, siyasi cəhətdən yetkin və sınanmış sərkərdələrindən biri olmuşdur. Sərdar xan həmin vəzifədə olduğu müddətdə Şəki ətrafında bir neçə dəfə ləzgilərlə vuruşmuşdur[87]. Nəhayət, o, Nadirin göstərişi əsasında Məhəmmədəli bəy Əfşarla birlikdə elçi sifəti ilə Rusiya imperatriçəsi Anna İvanovnanın sara-

[83] *T. M. Musəvi.* Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər. Bakı, 1965, səh. 60, 110, 111.
[84] *Məhəmməd Kazim.* Nameyi-aləmarayi Nadiri, II cild, M., 1965, səh. 315 – 317.
[85] Yenə orada, səh. 311 – 315.
[86] *Əlakbər Dehxuda.* Lüğətnamə, 80 №-li broşüra, Tehran, 1341, səh. 79.
[87] *Məhəmməd Kazim.* Nameyi-aləmarayi Nadiri, II cild, M., 1965. səh. 316.

yına göndərilmiş, lakin Xəzər dənizi ilə səfər zamanı ağır xəstələnmiş və gəmidə ölmüşdür[88].

**_Tərcüməsi:_**

*Möhür izi: "Allahın adı ilə; dövlət və din üzüyünün qaşı yerindən çıxdığına görə Allah onu İran Nadirinin adı ilə bərkitdi".*

Hakimiyyət Allaha məxsusdur. Mübarək fərman verildi o haqda ki, bu zaman Şirvan ölkəsinin bəylərbəyisi əzəmətli əmirlər əmiri, yüksək rütbəli Sərdar xan Şəki mahalının məliyi Məlik Əlimərdanın ölməsi (xəbərini) yazılı surətdə yüksək taxtın pilləsinə təqdim etmiş və qeyd olunan məlikliyi adı çəkilən Məlik Əlimərdanın qardaşı Nəcəfqulu üçün xahiş etmişdir. Qeyd olunan yüksək rütbəli, habelə oranın (Şəkinin) bütün kəndxudaları və sakinləri adı çəkilən işə onun (Nəcəfqulunun) qabil və layiq olduğunu təsdiq etmişlər. Buna əsasən, həmin yüksək rütbəlinin xahişinə görə Şəki mahalının məlikliyi, qeyd olunan Məlik Əlimərdanın öldüyü tarixdən etibarən onun qardaşı Məlik Nəcəfquluya tapşırılmış və müraciət olunmuş buyurduq ki, qardaşı kimi doğru və düzgünlüklə qeyd edilən işin tələbat və qaydalarını həyata keçirməyə başlayaraq tədbirlər görsün. Vaxtının bir dəqiqəsini belə hədər və boş keçirməsin. Şəki mahalı və onun tabeliyində olan (yerlərin) kəndxudaları, sakinləri və rəiyyətləri həmin Məlik Nəcəfqulunu qeyd olunan mahalın məliyi bilərək qeyd edilən işin tələbatının ona xas olduğunu bilsinlər, onun sözündən və dəyərli məsləhətindən kənara çıxmasınlar və özlərini vəzifədar bilsinlər.

*Yazıldı: 1150-ci ilin məhərrəmül-həram ayında* (may 1737, – *Tərtibç.*).

---

[88] Yenə orada, səh. 316–318.

## 19. Şəki ölkəsinin məlikliyi vəzifəsi haqqında Nadir şahın fərmanı*

*Fərman 3 mart 1746-cı il tarixdə verilmişdir**.*
*Orijinalın fotosurətindən istifadə olunmuşdur.*
*Azərbaycan SSR EA Tarix İnstitutunun kitabxanası, inv. № b/3291, səh. 23.*

Yuxarıda adı çəkilmiş Nəcəfqulunun Şəkiyə məlik təyin olunmasından təxminən doqquz il sonra onun qardaşı oğlu Cəfərin məlikliyi haqqında Nadir şah tərəfindən fərman verilmişdir.

Fərmanın məzmunundan görünür ki, bu dövrdə Nadir şah kütləvi üsyanlar hər tərəfi əhatə etmiş Azərbaycanda, o cümlədən Şəki ölkəsində müvəqqəti olsa da, vəziyyəti sakitləşdirməyə çalışırmış. Qeyd etmək lazımdır ki, Nəcəfqulunun Şəki ölkəsinə məlik təyin olunduğu 1737-ci ildən etibarən həmin üsyanlara qarşı görülən tədbirlər Nadir şah üçün müsbət nəticə verməmişdi. 1737-ci ilin yayından Nadir şahın qardaşı İbrahim xan tərəfindən başlanan cəza yürüşləri nəhayət, 1738-ci ildə onun öz ölümü və şah ordularının məğlu-

---

* T. Musəvinin 1977-ci ildə çap olunmuş "Orta əsr Azərbaycan tarixinə dair fars dilli sənədlər" kitabında "**12 №-li sənəd**" olaraq nömrələnib, – *Tərtibç.*

** T. Musəvi fərmanın tarixini 7 il səhv – 1739-cu ilin may ayı kimi, göstərmişdi. Amma vaxtilə Salman Mümtaz həmin fərmanın tarixini hicri 9 səfər 1159-cu il olaraq qeyd edib (Bax: Əlavə // Şəki xanlığının tarixindən /. — Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1958. — Səh.: 68.). Bu miladi 3 mart 1746-cı il tarixinə müvafiqdir. S.Mümtazın fərmanın tarixini düz oxuması, T. Musəvinin isə səhv oxuması fərmanın mətnindəki "bu bars ili" ifadəsindən aydınlaşır. Belə ki, həqiqətən də 1746-cı il bars ili, yəni pələng ilidir. Yeri gəlmişkən əlavə edək ki, T. Musəvi fərmanın yalnız fotoşəklindən istifadə etmişdir, amma S. Mümtaz çox güman ki, fərmanın orijinal nüsxəsi ilə tanış olubmuş. Tarixdən başqa, mətndə də tərəfimizdən düzəlişlər edildi, – *Tərtibç.*

biyyəti ilə nəticələnmişdi. İbrahim xanın ölümündən sonra bütün Azərbaycan ölkələrinə hökmdar təyin olunmuş əfşar tayfasının qırxlı qoluna mənsub Əmiraslan xan isə Azərbaycanda çox qısa müddət hökmranlıq edə bilmişdir. Buna səbəb vilayətin vəkili təbrizli Səməd bəy ilə onun arasında baş verən münaqişə olmuşdu. Saraya min iki yüz ədəd xəz və on iki min tümən nağd pul verməklə tamahkar şahın rəğbətini qazanmış Səməd bəy Əmiraslan xanı vəzifədən götürmüşdü[90]. Deməli, belə bir mürəkkəb şəraitdə bütün Azərbaycanda mövcud vəziyyəti saxlamaq ən yaxşı tədbir ola bilərdi.

Fərmanın məzmunu Məlik Cəfər və ya onun mənsub olduğu ailə ilə Hacı Çələbi arasında keçmişdə müəyyən münaqişənin baş verdiyini göstərir. Lakin Nadir şah Hacı Çələbi və onunla əlbir olan şəkililərin saraya müraciət etmələrini, öz əməllərindən peşman olduqlarını və üzr istədiklərini nəzərə alaraq Məlik Cəfərə həmin şəxslə birlikdə işləmək haqqında göstəriş vermişdir. Eyni zamanda, Məlik Cəfər və Hacı Çələbinin birlikdə Şirvana getmələri, qaçıb didərgin düşmüş Şəki rəiyyətlərini toplamaq və onları əkinçiliyə sövq etmək haqqında fərmanda verilən göstərişlər də keçmiş münaqişənin geniş vüsətli olduğunu və onun ölkə zəhmətkeşlərinin pərakəndəliyi ilə nəticələndiyini sübut edir.

Fərmanda bu münaqişəni törədən səbəblər haqqında heç bir məlumat yoxdur. Lakin "Şəki xanlarının ixtisar üzrə tarixi" adlı əsərdə verilən məlumatdan görünür ki, 1737 – 1743-cü illərdə Şəkidə məlik olmuş şiə təriqətinə mənsub Məlik Nəcəfqulu ilə həmin ölkədə vəkil vəzifəsi daşımış sünni təriqətinə mənsub Hacı Çələbi arasında gərgin münaqişə olmuş

[90] *Məhəmməd Kazim*. Nameyi-aləmarayi Nadiri, II cild, M., 1965, səh. 370 – 371, 493 – 494.

və nəhayət, 1743-cu ildə Hacı Çələbi öz adamlarının yardımı ilə Məlik Nəcəfqulunu öldürmüşdur[91].

Qeyd etməliyik ki, bu hadisə "Şəki xanlarının ixtisar üzrə tarixi" adlı əsərdən əlavə, "Şəki xanları və onların nəsilləri" əsərində və Azərbaycan tarixinin birinci cildində də öz inikasını tapmışdır[92]. Fərmanın məzmunundan görünür ki, Nəcəfquludan sonra onun qardaşı oğlu Cəfər Şəki ölkəsinə məlik təyin edilmişdir. Hacı Çələbi isə keçmişdə olduğu kimi Cəfərin məlikliyi dövründə də qısa müddət Şəki ölkəsinin vəkili vəzifəsində işləmişdir.

### *Tərcüməsi:*

Adların yaxşısı olan Allah adı ilə

*"Ortasında şir və günəş həkk olunmuş möhür izi".*

Hakimiyyət Allaha məxsusdur. Mübarək fərman verildi o haqda ki, Məlik Nəcəfqulunun qardaşı oğlu uca və yüksək pənahlı Məlik Cəfər şahənşah mehribanlığı ilə başıuca olaraq bilsin ki, Hacı Çələbi və Şəki camaatı keçmişdə onlardan baş vermiş təqsir və üzüqaralıq üzündən üzr istəyib yalvarmaq üçün bu bəraət nişanlı astanaya gəlmiş, etdiklərindən sərməndə və peşman olmuşlar. Buna əsasən onların təqsirlərindən keçdik və göz yumduq. Pars ilin (pələng ilinin, – *Tərtibç.*) əvvəlindən (21 mart 1746, – *Tərtibç.*) etibarən Şəkinin məlikliyini o uca və yüksək pənahlıya müraciət edib tapşırdıq ki, keçmişin digər məlikləri kimi məliklik işlərinə başlasın. Lazımdır, qeyd olunan Hacı Çələbi və Şəki rəiyyətləri ilə birlikdə işləri sahmana salmaqdan ötrü Şirvana getsin. Oranın [Şəkinin] rəiyyətlərini ziraət və əkinçiliyə toplamaq və kö-

[91] *Əbdüllətif əfəndi.* Şəki xanlarının ixtisar üzrə tarixi, Bakı, 1926, səh. 6 – 7; *H. S. Əbdülhəmid.* Şəki xanları və onların nəsilləri, Bakı, 1929, səh. 7, 15.

[92] "Azərbaycan tarixi", Bakı, 1961, səh. 354.

mək edib birləşdirmək sahələrində lazımınca səy və ciddiyyət edərək məliklik işində yaxşı xidmətləri və xoş hərəkətləri ilə özünü şahlıq qayğısına şamil etsin. Şəkinin kəndxudaları və rəiyyətləri onu özlərinin məliyi bilərək onun sözündən və məsləhətindən kənara çıxmasınlar, özlərini vəzifədar bilsinlər.

*Yazıldı: 1159-cu ilin səfərəl-müzəffər ayının 9-da* (3 mart 1746, – *Tərtibç.*).

## 20. Şəki ölkəsinin məlikliyi vəzifəsi haqqında Nadir şahın fərmanı*

*Fərman 1746-cı ilin sentyabr/oktyabr ayında verilmişdir.*
*Orijinalın fotosurətindən istifadə olunmuşdur.*
*Azərbaycan SSR EA Tarix İnstitutunun kitabxanası, inv. № b/3291, səh. 24.*

Nadir şah ölümündən 9 ay əvvəl Şəki ölkəsinin məlikliyi haqqında daha bir fərman vermişdir. Fərmanın məzmunundan görünür ki, 9 mart 1746-cı il tarixdə Cəfərin Şəki ölkəsinə məlik təyin olunmasından az sonra – həmin ilin ortalarında, ölkənin kəndxudaları və rəiyyətləri kollektiv ərizə ilə Nadir şaha müraciət edərək Məlik Cəfərin bacarıqsız olduğunu bildirmiş və Hacı Çələbinin böyük oğlu Həsənin həmin vəzifəyə təyin olunmasını xahiş etmişlər. Nadir şah onların bu xahişini qəbul etməyərək Məlik Cəfəri yenə də həmin vəzifədə saxlamış, Həsənə isə gələcəkdə ayrı vəzifə tapşırılacağını vəd etmişdir. İstər şəkililərin kollektiv ərizəsində, istərsə də Nadir şahın fərmanında Hacı Çələbinin özü haqqında danışılmaması, bizcə, həmin dövrdə onun Nadir şaha qarşı mübari-

* T. Musəvinin 1977-ci ildə çap olunmuş "Orta əsr Azərbaycan tarixinə dair fars dilli sənədlər" kitabında "**13 №-li sənəd**" olaraq nömrələnib, – *Tərtibç.*

zə aparması ilə əlaqədar olmuşdur*. Hacı Çələbinin böyük oğlu Həsənin məlik vəzifəsinə namizəd göstərilməsi faktı isə həmin ailənin əhali arasında hörmətə malik olduğunu sübut edir. "Şəki xanlarının ixtisar üzrə tarixi" adlı əsərdə həmin illərdə şəkililərin Hacı Çələbini özlərinə hakim təyin etmələrindən, üç il müddətində onların Nadir şaha qarşı vuruşmalarından, nəhayət, Hacı Çələbinin Təbrizə qədər uzanan böyük bir ərazidə öz hökmranlığını genişləndirməsindən danışılır[93].

1845-ci ildə yazılmış "Qarabağnamə" əsərində də Məhəmməd xan Qacarın yürüşündən əvvəl Hacı Çələbinin iki dəfə Qarabağa hücumu barədə məlumat verilmişdir[94]. Eyni məlumata biz Mirzə Cavanşirin "Tarixi-Qarabağ" əsərində də, rast gəlirik[95]. "Gülüstani-İrəm" əsərində Şamaxını ələ keçirmək uğrunda Quba xanlığı ilə Şəki xanlığı arasında gedən mübarizədən danışılan yerdə şəkili Hacı Çələbinin adı çəkilir[96]. Bütün bunlar Nadir şahın ölümündən sonrakı dövrlərdə də Hacı Çələbinin qüdrətli hökmdar olmasını sübut edir. Digər tərəfdən, dövrün çox etibarlı mənbələrindən sayılan "Nameyi-aləmarayi Nadiri" əsərinin ikinci cildində, Nadir şahın Hindistandan qayıdaraq, nisbətən uzun müddət Xarəzm, Buxara, Xivə, Kəlat və Məşhəddə ləngidikdən sonra öz iştirakı ilə Dağıstana növbəti hərbi yürüş təşkil etməsindən danışılan yer-

---

* Molla Məhəmməd əl-Carinin yazdığına görə 1746-cı ilin qış aylarında Nadir şah tərəfdən Hacı Çələbiyə sulh təklif olunub. Hacı Çələbi həmin təklifi qəbul edib və oğlu Həsəni Nadir şahın yanına yollayıb. Nadir şah Həsənlə Şəkinin vəkili olan atası üçün 40 tümən pul göndərib (Bax: *Molla Məhəmməd əl-Cari.* Car salnaməsi. — Bakı: Səda, 1997. — Səh.: 45.), – *Tərtibç.*

93 *Əbdüllətif əfəndi.* Şəki xanlarının ixtisar üzrə tarixi, Bakı, 1926, səh. 7.

94 *Mirzə Adıgözəlbəy.* Qarabağnamə, Bakı, 1970, səh. 53–54.

95 *Mirzə Camal Cavanişir.* Tarixi-Qarabağ, Bakı, 1959, 71–76.

96 *Abbasqulu ağa Bakıxanov.* Gülüstani-İrəm, Bakı, 1926, səh. 29.

də qaraqıtaqlı[97] (قراقتاقی) Hacı Çələbinin dəstələri ilə şah orduları arasında baş verən döyüşlər şərh olunmuşdur[98]. Həmin məlumatdan görünür ki, Təbərsəran yürüşü zamanı xalq müqaviməti dəstələri şah ordularının Samur çayı sahilində yerləşən düşərgəsinə şəbxun vurduqdan sonra Nadir şah Vətən torpaqlarını müdafiə edən dəstələr əleyhinə dörd istiqamətdə hərbi cəza əməliyyatı təşkil etmişdir. Bunlardan biri məhz qaraqaytaqlı Hacı Çələbinin dəstələrinə qarşı yönəldilmişdir. Xanəli xan Kuklan və Gəncə hakimi Həsənəli xanın başçılıq etdikləri həmin 10 min nəfərlik ordu Hacı Çələbinin hücumlarının qarşısını almağa vəzifədar olmuşdur. Qaraqaytaq düzənliyinə bitişən ərazidə bu ordu ilə Hacı Çələbinin dəstələri arasında şiddətli döyüş baş vermiş, nəticədə Hacı Çələbinin dəstələri geri oturmuşdur. Bu zaman Çələbinin köçü və bəzi sərkərdələri 500 ailə ilə birlikdə daha etibarlı sığınağa geri çəkilərkən yolda Nadir şahın ordusuna rast gəlmiş və düşmən əlində əsir olmuşlar[99]. İlk mənbələrin verdiyi məlumatdan, xüsusilə Nadir şahın Azərbaycan və Dağıstan yürüşlərində şəxsən iştirak etmiş Məhəmməd Kazımın izahatından belə bir nəticə ehtimal etmək olar ki, Hacı Çələbi Nadir şahın yürüşü ilə əlaqədar olaraq 1741-ci ildən etibarən İran işğalçılarına qarşı mübarizəyə başlamış, öz dəstələri ilə birlikdə şimala doğru geri çəkilmiş, Samur çayını keçərək Qaraqaytağa getmiş və dağıstanlılarla birlikdə Nadir şahın qoşunları əleyhinə vuruşmuşdur*.

---

97 Görünür, müəllif "Qaraqaytaq" sözünü səhvən "Qaraqıtaq" kimi qəbul etmişdir.

98 *Məhəmməd Kazim*. Nameyi-aləmarayi Nadiri, II cild, M., 1965. səh. 628–634.

99 Yenə orada, səh. 633.

* Bura qədər mətndə, xüsusilə bu cümlədə tərəfimizdən bəzi zəruri düzəlişlər edilmişdir (ətraflı məlumat üçün bax: 19. Şəki ölkəsinin

1746-cı ilin sentyabr/oktyabrında Hacı Çələbinin oğlu Həsənin Şəkiyə məlik təyin edilməsi haqqında Şəki kəndxudaları və rəiyyətlərinin xahişinin Nadir şah tərəfindən rədd olunması həqiqi vəziyyəti açıb göstərir. Deməli, mərkəzi hökumətin zəiflədiyini və ona qarşı mübarizənin gücləndiyini görən Şəki kəndxudaları Hacı Çələbinin oğlunu vəzifə başına keçirmək, Nadir şahla əməkdaşlıq etmiş Məlik Cəfəri isə rədd etmək istəyirmişlər.

***Tərcüməsi:***

*"Ortasında şir və günəş həkk olunmuş möhür izi"*

Hakimiyyət Allaha məxsusdur. Mübarək fərman verildi o haqda ki, Şəki mahalının kəndxudaları və rəiyyətləri şahlığın sonsuz qayğısına ümid bəsləyərək bilsinlər ki, qeyd olunan mahalın məlikliyi [işinin] Məlik Cəfər tərəfindən qaldırılmaması və həmin işin Hacı Çələbi oğlu Həsənə tapşırılıb müraciət edilməsi haqqında onların keçmişdə dünya pənahlı dərgaha göndərdikləri ərizə [şahın] müqəddəs zehninə çatdı. Qeyd olunan Məlik Cəfər mahalın qədim məlikzadələrindəndir və həmin işi məlumatlı və düşüncəli surətdə ona mehribanlıq edərək tapşırmışıq. Gərək onlar da onun [Məlik Cəfərin] məlikliyində daimi olsunlar və xidmət etsinlər. İstədikləri Hacı Çələbi oğluna ayrı xidmət tapşırıla bilər. Şahlıq qayğısına ümid bəsləsinlər.

*Yazıldı: 1159-cu ilin ramazanül-mubarək ayında* (sentyabr/oktyabr 1746, – *Tərtibç.*).

---

məlikliyi vəzifəsi haqqında Nadir şahın fərmanı, iki ulduzlu (**) qeydimizə, – *Tərtibç.*

# ŞƏXS VƏ YER ADLARI GÖSTƏRİCİSİ


## A

Abbas mirzə, 10, 53
Abbasqulu ağa Bakıxanov, 15, 24, 26, 60
Abbasqulu sultan, 50, 51, 53, 88, 89, 93, 94, 96
Abdulla xan Ustaclu, 32, 33, 34, 35, 37, 68, 69, 73, 74, 75
Abdullah bin Məhəmməd bin Kiya əl-Mazandarani, 23
ABŞ, 15, 18
Ağaməhəmməd şah, 53
Ağdaş, 34
Ağsu çayı, 41, 44
Aleksandr, 40, 41, 43, 66
Allahqulu bəy, 49
Allahqulu sultan, 54, 110, 111
Allahverdi bəy, 49, 83
Amasiya, 11
Ankara, 23, 41
Anna İvanovna, 130
Araz çayı, 22, 24, 43
Arran, 21, 22
Asim Abbasov, 2
Aslan sultan, 12, 47, 48, 50, 51, 67, 76, 77, 79, 80, 82, 88, 89
Aydın Məmmədov, 2, 6, 18
Aygül Xəlilova, 2
Aynur Mustafayeva, 2
Azər Musəvi, 17, 18
Azərbaycan, 1, 5, 6, 7, 9, 10, 14, 15, 16, 17, 18, 19, 20, 21, 22, 23, 24, 26, 31, 34, 37, 38, 42, 46, 47, 53, 57, 58, 61, 62, 64, 66, 67, 68, 73, 74, 76, 78, 79, 81, 82, 83, 86, 88, 90, 93, 97, 98, 100, 104, 105, 108, 112, 115, 117, 121, 125, 127, 128, 129, 130, 132, 133, 134, 135, 137
Azərbaycan bəylərbəyiliyi, 53
Azərbaycan SSR, 16, 17, 20, 58, 61, 67, 79, 82, 83, 98, 104, 105, 132

## B

Babül-əbvab, 22
Bağdad, 42
Bakı, 1, 2, 14, 15, 17, 20, 24, 26, 34, 45, 58, 64, 74, 82, 130, 132, 134, 136, 150
Bakı şəhəri, 20
Baydar bəy, 52, 81, 82, 84, 86, 87, 119, 120, 121, 122, 123
Bədir xan, 27, 29, 34, 35
Bədir xan Ustaclu, 27
Bərdə, 22, 31, 32, 64, 68
Beşpara, 45, 101, 102
Beşpara məlikliyi, 102
Bəyazid, 53
Bəyazid I, 23
Beyləqan, 22
Boris Dorn, 20, 63, 83
Böyük Qafqaz sıra dağları, 21
Britaniya, 20, 37, 74
Buğurd dərəsi, 27
Buğurd qalası, 27, 62
Bürhan mirzə, 30, 31, 32, 40
Buxara, 136

## C

Camal Cavanşir, 60
Car, 136
Cavad qəsəbəsi, 29
Cəfər əl-Sadiq, 75
Cəfərqulu xan Dünbülü, 13, 53

Cəlaləddin Sunduk bəy, 31, 68
Cənubi Qafqaz, 109

## Ç

Çərəndab sultan Şamlu, 36, 69

## C

Cəyirli, 5
Cövşən ağa, 34
Culfa, 43

## D

Dağıstan, 21, 22, 24, 28, 38, 56, 126, 136, 137
Danqı, 45, 100, 102, 109
Danqı (bölük), 98, 99, 102
Danqı kəndi, 12
Danqı mahalı, 45, 51, 52
Danqı məlikliyi, 100, 102
Danqı qışlağı, 46
Danqılı Məlik Müzəffər, 45, 100, 102
Davud bəy, 12, 48, 49, 50, 52, 54, 81, 82, 83, 84, 86, 87, 109, 115, 119, 120, 121, 123
Dəbirsəyaqi, 70
Dərbənd, 22, 24, 29, 30, 37, 45, 74
Dərbənd şəhəri, 130
Dərvişməhəmməd xan, 8, 9, 26, 27, 28, 29, 30, 31, 33, 34, 36, 41, 62, 63, 64, 68, 69, 72
Div Sultan Rumlu, 25
Dövlətyar bəy, 29

## Ə

Əbdüllətif əfəndi, 134, 136
Əbdürrəzzaq, 33, 37, 68, 72, 74, 75
Əbubəkir mirzə, 40
Əbubəkr Əhməd İbn əl-Fəqih əl-Həmədani, 22
Əbülqasım Evoğlu Heydər, 69
Əbutalıb, 80, 81
Əfqanıstan, 17
Əl-Bəlazuri, 21
Əl-Cərrah, 22
Ələkbər Dehxuda, 130
Əli (imam), 40, 57, 65, 71, 80, 81, 98, 101, 111, 113, 114
Əli (möhür izində ad), 106
Əli bin-Musərriza, 75
Əli ən-Nəqi, 75
Əli Sultan, 57
Əli xan, 40, 65
Əli Zeynalabdin, 75
Əli-əl-Murtəza, 75
Əlimərdan bəy, 56, 57, 126, 127, 128, 129, 130
Əliqulu xan, 123, 124
Əl-İstəxri, 23
Əliyev S., 71

## E

Elman Eldaroğlu, 15

## Ə

Əlqas mirzə, 8, 27, 28, 29, 30, 31, 32, 63, 64, 69
Əmir Sam, 71
Əmir Teymur, 23
Əmir Yusif, 34
Əmiraslan xan, 133
Əmirgülü bəy, 124, 125
Ərdəbil, 10, 17, 26, 42
Ərdəbil şəhəri, 26
Ərəş, 34
Ərəş şəhəri, 34
Əvəz bəy, 49, 83

Əziz Məhəmməd oğlu, 95

## F

Fahrettin Kırzıoğlu, 41
Fazıl, 5
Fərasad (bölük), 102
Fərasad mahalı, 101
Fərhad paşa, 42
Fərrux xan, 47
Fətəli bəy, 104
Fətəli şah, 53
Fəxran hakimliyi, 124
Fəzlullah Rəşidəddin, 15
Fillip Musəvi, 18

## G

Gələsən, görəsən (qala), 9, 31, 35, 36, 59, 64, 69
Gelibolulu Əli, 41
Gəncə, 29
Gəncə hakimliyi, 137
Gəncə şəhəri, 29, 45
Georgi, 43
Georgi mirzə, 66
Gülüstan qalası, 29, 74
Günel Musəvi, 15, 18
Gürcüstan, 10, 20, 21, 23, 25, 28, 29, 33, 38, 40, 41, 43, 44, 56, 65, 66, 68, 102, 115
Gürcüstan SSR, 20, 33, 68

## H

Hacı Çələbi, 58, 59, 133, 134, 135, 136, 137, 138
Hacı Seyid Əbdülhəmid, 21, 63, 134
Hacıkənd, 16
Haqnəzər bəy, 50
Həmədan, 31
Həsən (Hacı Çələbinin oğlu), 135, 136, 138
Həsən bəy (Şəki hakimi), 25, 26, 62, 63
Həsən bəy Rumlu, 25, 30, 35, 36, 62, 64
Həsən əl-Əsgər, 75
Həsən ər-Rza, 75
Həsən sultan, 26
Həsənəli xan, 137
Heydər Əliyev, 1, 6, 14, 148
Heydər mirzə, 39, 65
Hindistan, 136
Hüseyn bəy, 27
Hüseyn əl-Şəhid, 75
Hüseyn Kuçek Lələ, 14
Hüseyn xan Dünbülü, 53
Hüseyn Yəhyaye, 17
Hüseyncan, 36, 64

## İ

İbrahim xan, 58, 132, 133
İmam Rza, 49
İnal Məmmədli, 149
İrakli mirzə, 41
İran, 6, 14, 15, 16, 17, 18, 42, 53, 56, 57, 58, 59, 63, 129, 131, 137
İraqi-Əcəm, 42
İrəvan, 43
İrəvan bəylərbəyliyi, 105
İsa Həsən Kəlaliyan, 57
İsa xan, 40, 41, 65, 77
İsfahan, 16, 42, 54, 66
İsfahan şəhəri, 49
İsgəndər bəy Türkman, 62, 63, 65, 66, 67, 69, 74, 77
İsmayıl mirzə, 30, 31
İsmayıl xan, 109
İstanbul, 10, 11, 30
İsveç, 17, 18

## K


Kafkaz, 41
Kambiz (Azər Musəvinin oğlu), 18
Kamibəran, 22
Kasamonu, 30, 36
Kaxetiya, 34, 35, 36, 39, 43, 44, 63
Kəlat, 136
Kəlkuttə, 63
Kərim ağa Fateh, 21, 58, 63
Kəşərənd kəndi, 52
Kəskər, 49, 83
Kirəm, 25
Kirmanşah, 16
Kirovabad, 16
Kiş, 5, 31, 34
Kiş kəndi, 34, 35, 36, 45, 51, 52, 64, 78, 81, 82, 84, 86, 87, 119, 120, 121
Kiş qalası, 34, 35, 36, 64, 69
Konstantin, 43, 44, 66
Kosa Pirqulu, 36, 69
Krım, 37, 38
Kumuk, 37
Kür çayı, 22, 23, 24, 57
Kürdüstan, 115


## L


Lar, 49
Lar şəhəri, 49
Lar vilayəti, 83
Lələ Mustafa paşa, 40, 41
Lələ paşa, 65
Leninqrad, 83
Levon, 25, 26, 34, 35, 63, 65
Loristan, 42
Lund şəhəri, 17, 18


## M


Mahmud ağa, 34
Mahmud bəy, 34, 35
Mahmud paşa, 43
Masal bəy, 124
Mazandaran, 31, 32, 48, 83, 95
Mehdi xan, 130
Məhəmməd (peyğəmbər), 71, 111, 113
Məhəmməd Bağır, 54, 55
Məhəmməd bəy Talış, 27
Məhəmməd əl-Mehdi, 75
Məhəmməd əl-Müqəddəsinin, 22
Məhəmməd Əmin paşa, 42, 43, 66
Məhəmməd ət-Təqi, 75
Məhəmməd Kazim, 125, 126, 130, 133, 137
Məhəmməd Mehdi bin Həbibullah əl-Huseyni, 106
Məhəmməd Mehdi Həbibullah oğlu, 95
Məhəmməd Məsum, 49
Məhəmməd sultan, 12
Məhəmməd sultan Cəyirli, 46, 67
Məhəmməd Tahir Nəsrabadi, 95
Məhəmməd Tahir Nəsrəbadı, 89
Məhəmməd Tahir Vəhid, 45, 49, 50, 83, 84
Məhəmməd xan Qacar, 136
Məhəmməd xan sultan, 129
Məhəmməd Yusif, 48
Məhəmmədbağır bəy, 119, 120
Məhəmməd-əl-Baqir, 75
Məhəmmədəli bəy Əfşar, 130
Məhəmməd-əl-Mustafa, 75
Məhəmmədi xan, 104, 105, 106
Məhəmmədxan bəy, 56, 114, 115, 116
Məhəmmədxan sultan, 126
Mehman Süleymanov, 2
Məlik Cəfər, 59, 132, 133, 134, 135, 138
Məlik Əlimərdan, 131

Məlik Həsən, 13, 54, 55, 56, 59, 109, 110, 111, 114, 115, 116, 117
Məlik Kəyumər, 31, 69
Məlik Nəcəfqulu, 58, 59, 130, 131, 132, 133, 134
Məlik Qaraca, 45, 101
Məlik Qaracı, 102
Məlik Səfərqulu, 13, 55, 56, 109, 110, 111, 115, 116
Məlik Səfiqulu, 11, 49, 52, 54, 55, 57, 81, 82, 83, 84, 86, 87, 100, 101, 102, 103, 109, 111, 115, 119, 120, 121, 122, 123, 124, 125, 126, 129
Məlik Xanəli, 123, 124
Məlik Yusif, 45, 101, 102
Məmmədbağır bəy, 120
Məntşa Sultan Ustaclu, 27
Mərənd, 12, 46, 53
Meşəbaşı, 45, 98, 100, 102, 109
Meşəbaşı (bölük), 98, 99
Meşəbaşı kəndi, 101, 102
Meşəbaşı mahalı, 51, 52
Məşhəd, 136
Məşhəd şəhəri, 49
Məsum, 29, 71
Məsum bəy, 29
Məsum bəy Səfəvi, 71
Mir Sultan Əbdürrəzzaq, 72
Mir Tağı Musəvi, 17, 18
Mirsultan, 33, 68
Mirtağı Musəvi, 18
Mirzə Adıgözəlbəy, 136
Mirzə Camal Cavanişir, 136
Mirzə Cavanşir, 136
Mirzə Əliyar, 56, 115, 116
Mirzə Fətəli Axundov, 18
Mirzə Kamran, 55, 104, 105, 107, 108
Mirzə Ömər, 41
Mirzə Tağı, 50
Molla Məhəmməd əl-Cari, 136
Moskva, 125, 126
Muğan, 21, 126
Mürşüdqulu bəy, 110, 111
Murtuzaqulu xan, 100, 103
Musa-əl-Kazim, 75
Mustafa paşa, 40

**N**

Nadir şah, 12, 57, 58, 59, 82, 126, 127, 128, 129, 130, 131, 132, 133, 135, 136, 137, 138
Namiq Musalı, 26
Narme, 62
Naxçıvan, 43
Nəbi, 71
Nəcəfqulu, 57, 58, 59, 129, 131
Nəcəfqulu xan, 104, 105, 106
Nuxa, 13, 36, 52, 53
Nuxu, 45, 52, 53
Nuxu kəndi, 51, 52, 78, 81, 82, 84, 86, 87, 119, 120, 121

**O**

Ordubad, 43

**Ö**

Örkəncoğlu, 28

**O**

Osmanlı dövləti, 8, 9, 10, 11, 12, 23, 27, 30, 31, 37, 38, 40, 41, 42, 43, 44, 45, 46, 48, 56, 57, 64, 65, 66, 67, 68, 74, 75
Osmanlı imperiyası, 130
Oxud, 5

## P

Pənahiyan M. P., 71
Pərixan xanım, 38, 65

## Q

Qafqaz, 21, 38, 45
Qafqaz Albaniyası, 5
Qanıq çayı, 25
Qanıx çayı, 41
Qara Keşiş, 45
Qarabağ, 23, 31, 56, 60, 136
Qarabağ bəylərbəyliyi, 50, 56, 100, 103
Qarabağ və Kaxet bəylərbəyliyi, 117
Qarabağ vilayəti, 42, 115
Qaracadağ, 10
Qaraqaytaq, 137
Qaraqaytaq düzənliyi, 137
Qaravəli Ərəbkirlu Sunduq bəy Qorçubaşı, 27
Qasım mirzə, 37, 38, 74
Qax, 45, 98, 100, 101, 102, 109
Qax (bölük), 98, 99, 102
Qax mahalı, 51, 52
Qax məlikliyi, 102
Qax rayonu, 12, 45, 101
Qaytaq, 37
Qazı Əbdüllətif əfəndi, 20, 63
Qəbələ, 22, 29, 43, 57, 66
Qəbələ qalası, 43, 44
Qəhqəhə qalası, 32
Qəndəhar şəhəri, 57, 129
Qətran Təbrizi, 52
Qəzvin, 32, 39, 42
Qəzvin şəhəri, 32, 39, 65
Qiberi, 25
Qırat xan, 129
Qiyasəddin bin Humaməddin Xondəmir, 23, 69, 70
Qori, 25, 39
Qoyunulumu, 24
Quba xanlığı, 136
Qustəntil xan, 66
Qutul xan, 63

## R

Rahim Həsənov, 2, 6, 18
Rəşad Mustafayev, 2
Rəşt şəhəri, 49, 83
Rövşanə Nizamiqızı, 149
Rövşən Novruzoğlu, 14
Rusiya, 109, 129, 130
Rusiya İmperiyası, 109
Rüstəm Musəvi, 18
Rüstəm xan, 83
Ruzbeh Musəvi, 18

## S

Sabirabad, 29
Sistan ölkəsi, 83
SSRİ, 13, 17, 18
Süleyman mirzə, 38
Sultan Heydər, 24
Sultan Məhəmməd Xudabəndə, 40, 41, 42, 65, 66
Sultan Murad, 40
Sultan Süleyman, 30, 31, 37, 68, 74
Sultan Xəlil, 27
Sultan Xəlil bin Şeyxşah, 27
Sunduq bəy Qorçubaşı, 29, 35
Surxab xan, 57, 125, 126, 127, 129
Surxay xan, 57, 125
Sayın kəndi, 26
Səfəvilər dövləti, 2, 6, 7, 8, 9, 10, 11, 12, 13, 14, 25, 27, 28, 29, 30, 31, 32, 33, 37, 38, 40, 41, 45, 46, 48, 61, 62, 63, 64, 67, 68, 69, 81, 82, 120
Səhənd yaylağı, 28, 63

Səlcuqilər dövləti, 5
Səməd bəy, 133
Semyon, 39
Sənan paşa, 37
Sərab, 11
Sərab şəhəri, 26
Sərdar xan, 57, 129, 130, 131
Seyd Cəfər Pişəvəri, 14
Seyid Əlaəddin Hüseyn, 95
Seyid Məhəbbət bəy Kəmunə, 28
Seyidağa Onullahi, 15
Sidi Əhməd (Seyid Əhməd), 23
Sidi Əli (Seyid Əli), 23
Salman ibn Rəbiə, 22
Salman mirzə, 41
Salman Mümtaz, 20, 21, 58, 63, 132
Salmas, 53
Saltıkov-Şedrin, 83
Sam mirzə, 40, 71
Sam Mirzə, 65

## Ş

Şabran, 21, 22
Şah Abbas I, 10, 11, 12, 21, 41, 42, 43, 44, 45, 46, 47, 48, 52, 66, 67, 78, 81, 83, 95
Şah Abbas II, 13, 49, 50, 51, 54, 78, 81, 82, 83, 84, 86, 88, 89, 90, 92, 93, 94, 95, 96, 97, 98, 99, 100, 101, 104, 105, 106
Şah dağı, 26
Şah İsmayıl I, 7, 8, 14, 24, 25, 26, 27, 62, 65
Şah İsmayıl II, 9, 39, 40, 65
Şah İsmayıl Xətai, 14
Şah Məhəmməd Xudabəndə, 10
Şah Səfi, 76, 77, 78, 79, 80, 81, 82, 83, 86, 91, 95, 106
Şah Səfi I, 11, 12, 45, 47, 48, 49, 51, 78, 91, 109
Şah Səfi II, 13, 54, 55, 104, 105, 106, 108
Şah Süleyman, 13, 54, 104, 108, 109, 110, 111
Şah Sultan Hüseyn, 13, 54, 55, 56, 70, 110, 112, 113, 114, 117, 118
Şah Təhmasib I, 8, 9, 14, 27, 28, 29, 30, 31, 32, 33, 34, 35, 36, 37, 38, 39, 40, 62, 63, 64, 65, 68, 69, 70, 71, 73, 74, 75
Şah Təhmasib II, 56
Şahmir xan, 10, 11, 41, 43, 44, 66, 67, 77
Şahnəzər, 29, 30
Şahnəzər (mehtər), 83
Şahqulu sultan Ustaclu, 34, 35
Şahqulu Xəlifə, 29, 35
Şahrux bin Sultan Fərrux, 27
Şamaxı, 22, 28, 29, 37, 42, 43, 44, 45, 60, 130, 136
Şamaxı bəylərbəyliyi, 130
Şamaxı şəhəri, 27, 29, 32
Samur çayı, 30, 137
Şamxal Sultan Çərkəz, 9, 38, 39, 64, 65
Şəkərənd, 54
Şəkərənd kəndi, 52, 78, 81, 82, 84, 86, 87, 119, 120, 121, 123, 124, 125
Şəki, 1, 2, 5, 6, 7, 8, 9, 10, 11, 12, 13, 15, 18, 19, 20, 21, 22, 23, 24, 25, 26, 27, 28, 29, 30, 32, 33, 34, 36, 37, 38, 39, 40, 41, 42, 43, 44, 45, 46, 47, 48, 50, 51, 52, 53, 55, 56, 57, 58, 59, 60, 61, 62, 63, 64, 65, 66, 67, 69, 74, 75, 76, 77, 78, 79, 80, 82, 88, 92, 93, 94, 99, 104, 105, 106, 107, 110, 115, 119, 120, 121, 126, 129, 130, 133, 134, 135, 138, 148
Şəki çarlığı, 5

Şəki dövləti, 2, 7
Şəki əyaləti, 109
Şəki hakimliyi, 7, 8, 9, 10, 11, 12, 13, 25, 26, 27, 33, 36, 44, 47, 48, 51, 52, 54, 62, 63, 64, 65, 66, 68, 76, 78, 90, 93, 94, 95, 96, 98, 104, 105, 107, 108, 109, 110, 111
Şəki kəndi, 52
Şəki mahalı, 82, 87, 115, 116, 126, 127, 129, 131, 138
Şəki məlikliyi, 13, 55, 56, 57, 78, 83, 87, 92, 99, 100, 101, 102, 108, 109, 111, 112, 114, 115, 117, 123, 125, 127, 128, 129, 130, 131, 132, 133, 134, 135, 136, 138
Şəki məlilkiyi, 11
Şəki ölkəsi, 48, 50, 61, 62, 64, 68, 69, 72, 73, 74, 78, 84, 88, 89, 90, 91, 92, 96, 97, 98, 99, 100, 101, 102, 108, 109, 110, 111, 112, 114, 117, 119, 126, 127, 128, 129, 130, 132, 134, 135
Şəki qışlaqları, 47, 76, 79
Şəki rayonu, 19
Şəki sancağı, 41
Şəki şəhəri, 22, 23
Şəki vilayəti, 2, 9, 12, 13, 21, 23, 24, 25, 26, 28, 29, 30, 31, 32, 33, 34, 36, 37, 38, 39, 40, 42, 43, 44, 45, 46, 47, 49, 50, 51, 52, 53, 54, 55, 56, 57, 59, 65, 67, 69, 81, 82, 83, 86, 105
Şəki xanlığı, 13, 36, 45, 58, 59, 60, 82, 109, 132, 133, 134, 136
Şəkkan, 21, 22
Şəkki, 23
Şəkrənd, 54
Şəkri, 54
Şəmkur, 22
Şenten, 65
Şərur düzü, 14
Şeyxəli, 101
Şeyxşah, 62
Şirvan, 8, 10, 11, 21, 23, 24, 25, 27, 28, 29, 30, 31, 32, 33, 34, 35, 36, 37, 38, 40, 41, 43, 44, 45, 46, 48, 56, 59, 62, 63, 64, 65, 66, 67, 68, 69, 72, 73, 74, 75, 104, 120, 123, 126, 130, 133, 134
Şirvan bəylərbəyliyi, 8, 13, 47, 48, 50, 51, 52, 54, 55, 56, 57, 76, 77, 78, 79, 80, 86, 88, 90, 93, 94, 98, 99, 100, 103, 104, 105, 106, 107, 109, 111, 120, 123, 124, 129, 130, 131
Şirvan hakimliyi, 43, 48
Şirvan ölkəsi, 73, 74
Şirvan vilayəti, 37, 45
Şirvanşah Fərrux Yasar, 24
Şirvanşah I İbrahim, 23
Şirvanşah II Xəlilullah, 62
Şirvanşah Şahrux, 8, 27, 62, 63
Şirvanşahlar dövləti, 8

## T

Tağı Musəvi, 2, 6, 7, 8, 9, 10, 11, 12, 13, 14, 15, 16, 17, 18, 19, 58, 61, 67, 68, 73, 76, 78, 79, 81, 82, 83, 86, 88, 90, 93, 95, 97, 98, 100, 104, 105, 108, 112, 117, 125, 127, 128, 130, 132, 135, 148
Talış, 10, 42
Tanqıt, 45
Tanqıt kəndi, 12
Təbərsəran, 137
Təbriz, 7, 8, 16, 25, 26, 27, 28, 29, 42, 53, 59, 63, 66, 87, 115, 136
Təbriz şəhəri, 30
Tehran, 14, 16, 24, 62, 69, 70, 89, 95, 106, 130
Tiflis, 9, 39, 42

Toygün bəy Qacar, 36, 37, 38, 64
Tuğra (Azər Musəvinin qızı), 18
Tuğra Musəvi, 17
Türkiyə, 17

### V

Vladimir Lenin, 17
Vüqar İskəndərov, 6
Vüsal Baxışov, 2

### X

Xalxal, 10
Xanəli xan Kuklan, 137
Xarəzm, 136
Xəlifə Sultan əl-Hüseyni, 95, 98
Xəzər (ölkə), 22
Xəzər dənizi, 32, 129, 130, 131
Xivə, 136
Xorasan, 10, 42, 83, 84
Xosrov xan, 51, 52, 78, 86, 87, 88, 90, 98, 99, 100, 103
Xoy, 53
Xuzistan, 42

### Y

Yaqub sultan Qacar, 27
Yevlax, 29
Yusif Musəvi, 16, 18

### Z

Zahid Məmmədov, 149
Zal xan, 124
Zaqafqaziya, 109
Zərdüşt (Azər Musəvinin oğlu), 18
Zəyəm, 25
Ziya Musəvi, 18
Ziyaəddin, 123

### А

Азия, 71
Африка, 71

### Д

Дагестан, 129

### М

Москва, 129

### آ

آذربایجان, 17

### خ

خلیفه سلطان الحسینی, 89, 92, 101

### س

سرخاب, 126

### ش

شاه صفی, 76
شیخعلی, 101

### ع

عباس ثانی, 89

### م

محمد, 101

Ümummilli lider Heydər Əliyevin
100 illik yubileyinə ithaf olunur

# ŞƏKİNİN ORTA ƏSRLƏR TARİXİ

## (Tağı Musəvinin tədqiqatları üzrə)

“Elm və təhsil” nəşriyyatının direktoru:
**İNAL MƏMMƏDLİ**

**Dizayner:** Zahid Məmmədov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 14.06.2023
Şərti çap vərəqi 9,5. Sifariş № 242
Kağız formatı 60x84 1/16. Tiraj 500

Kitab **"Elm və təhsil"** nəşriyyat-poliqrafiya
müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8/4